AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ
HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

Əliyev Etibar Əli oğlu,
hüquq üzrə elmlər doktoru

# BEYNƏLXALQ HÜQUQ:

## ANLAYIŞI, HÜQUQ DOKTRİNASI VƏ TƏDRİS KURSU

*Əsər Azərbaycan Hüquqşünasları Konfederasiyası tərəfindən çapa tövsiyə olunmuşdur.*

BAKI – 2016

*Elmi məsləhətçi:*

**Hüseynov L.H.**, Azərbaycan Respublikası MM Aparatının «Dövlət quruculuğu üzrə qanunvericilik» Şöbəsinin müdiri, hüquq üzrə elmlər doktoru, professor.

*Elmi redaktor:*

**Əliyev Ə.İ.**, Bakı Dövlət Universiteti «Hüquq» Fakültəsinin dekanı, hüquq üzrə elmlər doktoru, professor.

*Rəyçilər:*

**Mustafayeva A.İ.**, AMEA Hüquq və İnsan Haqları İnstitutunun direktoru, hüquq üzrə elmlər doktoru, professor;

**Sadıqov Ə.İ.**, Bakı Dövlət Universiteti «Beynəlxalq ümumi hüquq» Kafedrası, hüquq üzrə elmlər doktoru, professor;

**Əfəndiyev O.F.**, Azərbaycan İqtisad Universitetinin «Hüquq» Kafedrası, hüquq üzrə elmlər doktoru, professor;

**Adilov N.A.**, Azərbaycan Hüquqşünasları Konfederasiyasının sədr müavini, hüquq üzrə fəlsəfə doktoru;

**Qarayev R.M.**, AMEA Hüquq İnstitutu «Beynəlxalq hüquq və beynəlxalq münasibətlər» Şöbəsinin aparıcı elmi işçisi, hüquq üzrə fəlsəfə doktoru, dosent.

E-1957 **Əliyev Etibar Əli oğlu.** "Beynəlxalq hüquq: anlayışı, hüquq doktrinası və tədris kursu". Bakı, "Günəş-B" nəşriyyat-poliqrafiya müəssisəsi, 2016, 100 səh.

**ISBN 978-9952-440-41-5**

Azərbaycan Respublikasında ilk dəfə yazılmış bu əsərdə beynəlxalq hüquqa obyektiv mənada, habelə hüquq doktrinası və tədris kursu kimi anlayış verilir, onun nizamasalma, tədqiqetmə və öyrətmə predmetinə aid məsələlərə ətraflı şəkildə toxunulur. Beynəlxalq hüquq elmi və beynəlxalq-hüquq münasibətlərinin xarakterik xüsusiyyətlərinə dair bəzi məqamların mahiyyətinə aydınlıq gətirilir.

Əsərdən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, həmçinin beynəlxalq hüquq elmi sahəsində çalışan mütəxəssislər, vəkillər və digər praktik işçilər faydalana bilər.

**I E.Ə.ƏIiyev - 2016**

# ON SOZ

Müasir dövrdə beynəlxalq aləmdə baş verən qlobal proseslərin nizama salınmasında, eləcə də ədalətli, təhlükəsiz və dayanıqlı beynəlxalq münasibətlər sisteminin formalaşmasında beynəlxalq hüquq əhəmiyyətli rol oynayır. Dövlətlərin yürütdükləri xarici siyasətin hüquqi bazası sayılan beynəlxalq hüquq beynəlxalq münasibətlərdə hüquqi əsasları möhkəmləndirir ki, bu, onların həyata keçirdikləri xarici siyasət prioritetlərindən biridir.

Planetdə yaşayan bütün xalqlann və dövlətlərin təhlükəsizliyinin təmin edilməsində, həmçinin beynəlxalq sülhün qorunub saxlanılmasında əvəzedilməz və misilsiz rola malik olan müasir beynəlxalq hüquq BMT Nizamnaməsi kimi təmələ söykənir ki, bu, zamanəmizin ən vacib beynəlxalq hüquqi-siyasi sənədi sayılır.

Müasir dövrdə beynəlxalq hüquq vasitəsilə dövlətlərarası münasibətlərin, praktiki olaraq, bütün sahələrinin hüquqi tənzimlənməsi həyata keçirilir. Beynəlxalq hüquq subyektlərinin beynəlxalq- hüquqi statusu, funksiyaları, əsas beynəlxalq hüquq və vəzifələri, mübahisə və münaqişələrin həllinin tənzimlənməsi, eləcə də məsuliyyət məsələləri be5məlxalq hüquqla müəyyən edilir.

Beynəlxalq-hüquqi tənzimetmə funksiyasmı həyata keçirərkən beynəlxalq hüquq hamılıqla qəbul edilmiş öz prinsiplərinə əsaslanır ki, imperativ xarakter və normativ əhəmiyyət daşıyan bu prinsiplər iki yerə bölünür: əsas prinsiplər, sahəvi (xüsusi) prinsiplər. Beynəlxalq hüququn əsas prinsipləri (dövlətlərin suveren bərabərliyi prinsipi, güc tətbiq etməmək və ya güclə hədələməmək prinsipi, dövlətlərin daxili işlərinə qanşmamaq prinsipi, beynəlxalq mübahisələri dinc yolla həll etmək prinsipi, dövlətlərin ərazi bütövlüyü prinsipi və s.) beynəlxalq dövlətlərarası münasibətlərin bütün sferalarında tətbiq olunur. Normativ məzmunu olan və vacib beynəlxalq-hüquqi sənədlərdə öz ifadəsini tapan həmin prinsiplər

dövlətlərarası münasibətlərin tənzimlənməsi sistemində mühüm rol oynayır. Universallıq beynəlxalq hüququn əsas prinsiplərinin xarakterik xüsusiyyəti olub, bunu ifadə edir ki, beynəlxalq hüququn bütün subyektləri məcburən həmin prinsiplərə əməl etməli və onlan lazımınca yerinə yetirməlidirlər.

Beynəlxalq hüququn sahəvi (xüsusi) prinsipləri isə beynəlxalq hüququn tərkibində müstəqil hüquq sahəsi kimi tanınan hüquqi qurumlara xas olan əsas normativ ideyalardır. Belə prinsiplər beynəlxalq hüququn bu və ya digər konkret sahəsində tətbiq edilir.

Beynəlxalq hüququn təşəkkül tapması, formalaşması və inkişafı beynəlxalq birliyin üzvü olan müstəqil və suveren dövlətlərin fəaliyyəti ilə birbaşa bağlıdır. Qloballaşma dövründə bu məsələ daha aktual görünür və qeyd etməliyik ki, beynəlxalq hüquq döv- lətlərarası hüquqdur.

Azərbaycan Respublikası da öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə dünya birliyinin tamhüquqlu üzvünə çevrilmiş, bir sıra qlobal layihələr gerçəkləşərək, ənənəvi təsərrüfat və idarəetmə mexanizmlərində ciddi dəyişikliklər baş verməklə ölkədə yeni infrastruktur sahələri yaranmış, beynəlxalq əlaqələr sferası genişlənmiş, hüquqi dövlət quruculuğu istiqamətində silsilə qanunvericilik aktları qəbul edilərək, insanların azad və təhlükəsiz yaşaması, müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində bir çox əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Müdrik ulu öndərin elmi əsaslara söykənən ictimai-siyasi və sosial-iqtisadi sferalarda çoxaspektli inkişaf kursu bazar iqtisadiyyatına keçid və dünyada baş verən qloballaşma prosesləri fonunda ölkə Prezidenti İlham Əliyev tərəfindən zənginləşdirilərək, yeni çalarlarla və uğurla davam etdirilir; gələcəyə istiqamətlənmiş bu sosial-iqtisadi və hüquqi islahatlar bütün sahələrdə, o cümlədən beynəlxalq təhlükəsizlik sektorunda öz müsbət nəticələrini verməkdədir.

Azərbaycanın xarici əlaqələrində beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli münasibətlərin qurulması və inkişaf etdirilməsi prioritet istiqamətlərdən sayılır. Məhz bu istiqamətdə yürüdülən siyasətin nəticəsi olaraq, Azərbaycan dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının - BMT, BƏT, ÜST, BMAT, BDT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumların üzvü kimi onlann işində yaxından iştirak edir.

Azərbaycan həm də Avropa İttifaqı, Beynəlxalq Valjmta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. bu kimi təşkilatlarla fəal əməkdaşlıq edir. İndiyədək bu təşkilatlar tərəfindən ölkəmizdə çoxsaylı iqtisadi və sosialyönümlü proqram və layihələr həyata keçirilmişdir. Son dövrlərdə Azərbaycanın üzv olduğu və əməkdaşlıq etdiyi bütün bu beynəlxalq təşkilatlarla əlaqələri daha da genişlənmiş, dərinləşmiş və möhkəmlənmişdir; BMT Təhlükəsizlik Şurasına Azərbaycanın qeyri-daimi üzv seçilməsi (2011-ci il) ölkəmizin beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığının bariz nümunəsidir.

Azərbaycanın xarici siyasət sahəsində beynəlxalq təhlükəsizlik strukturlan ilə əməkdaşlığı da apancı xətt təşkil edir. Bu istiqamətdə NATO ilə əlaqələr xüsusilə qeyd edilməlidir. Azərbaycan - NATO əlaqələri ölkəmizin Avratlantİk strukturlara inteqrasiyasının tərkib hissələrindən biridir. Bu əməkdaşlıq Azərbaycamn 1994-cü ildə «Sülh Naminə Tərəfdaşlıq» Proqramına qoşulması ilə başladı. Bununla, Azərbaycan NATO hərbi strukturları ilə əməkdaşlıq etmək, birgə təlimlər keçirmək, hərbi kadrlar hazırlanmasında blokun təcrübəsindən bəhrələnmək imkanlan qazanmışdır.

Ölkəmiz Avropa ilə Asiyam, Şimalla Cənubu bir-birinə bağlayan nəhəng transmilli eneıji-nəqliyyat layihələrinin həyata keçirilməsində mühüm rol oynayır. TRASEKA, BTC, BTƏ, TAN AP, TAP və digər qlobal ticarət layihələri də daxil olmaqla, zəngin karbohidrat ehtiyatlarımızın dünya bazarlanna çıxarılması, beynəlxalq idman oyunlarmın keçirilməsi, genişmiqyaslı turizm, iqtisadi, səhiyyə, elmi-texniki, mədəni və digər multikultural tədbirlərin gerçəkləşdirilməsi Azərbaycanın beynəlxalq aləmdəki rolunu artıraraq,

onun gələcək inkişafı üçün daha yeni perspektivlərin açılmasına zəmin yaradır, habelə beynəlxalq ictimaiyyətdə Azərbaycan həqiqətlərinin təbliği, milli maraqlanmızm müdafiəsi və digər dövlətlərlə qarşılıqlı faydalı münasibətlərin dərinləşməsi işinə öz töhfələrini verir.

Məhz bu cür vəziyyət Azərbaycanın da iştirakçısı olduğu dövlətlərarası beynəlxalq münasibətlər sisteminin daha yüksək səviyyədə və etibarlı şəkildə müvafiq hüquq normaları vasitəsi ilə tənzimlənməsini şərtləndirir; həmin normalann məcmusu isə beynəlxalq hüquq adlanır. Tərəfimizdən toxunulan bu məsələ, hesab edirik ki, Azərbaycan Respublikasının müasir dövrdə beynəlxalq strukturlara inteqrasiyası şəraitində olduqca aktualdır.

Azərbaycan Respublİkasmda ilk dəfə olaraq, geniş formatda və müvafiq təhsil standartlanna uyğun yazılmış bu əsərdə beynəlxalq hüquqa doktrinal və tədris kursu mənasında anlayış verilir, onun nizamasalma, tədqiqetmə və öyrətmə predmetinə aid məsələlərə ətraflı şəkildə toxunulur və onlann mahiyj'ətinə aydınlıq gətirilir. Müasir beynəlxalq hüququn sistemi təqdim edilərək, beynəlxalq təşilatlar hüququ, xarici əlaqələr hüququ, beynəlxalq iqtisadi hüquq, beynəlxalq insan hüququ, beynəlxalq cinayət hüququ, beynəlxalq humanitar hüquq və s. bu kimi müstəqil hüquq sahələri fərqləndirilir.

Sözügedən əsər, ilk növbədə, tələbə-oxucu auditoriyasını beynəlxalq hüququn ibarət olduğu müvafiq hüquq normaları və beynəlxalq hüquq doktrinası haqqında zəruri elmi biliklərlə təmin edir. Belə biliklərə yiyələnmək və onlan mənimsəmək olduqca vacib məsələdir. Axı, Azərbaycan Respublikasının məqsədlərindən biri dünya birliyinə inteqrasiya olunmaqdan ibarətdir; inteqrasiya həm iqtisadi, sosial və humanitar, həm də insan hüquqlan, ekologiya, kosmos və s. bu kimi sahələri əhatə edir.

Əsəri fərqləndirən məziyyətlərdən biri odur ki, o, Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunun və Bakı Dövlət Universiteti «Hüquq» Fakültəsi «Beynəlxalq

ümumi hüquq» Kafedrasının təklif və tövsiyələri nəzərə alınmaqla hazırlanmış və Azərbaycan Hüquqşünasları Konfederasiyası tərəfindən çapa tövsiyə olunmuşdur.

Çoxsaylı elmi mənbələr və elektron informasiya resursları əsasında hazılanmış bu kitab müasir beynəlxalq hüquq elmində mövcud olan boşluqların dolduralmasına, cəmiyyətdə dinamik inkişaf və hüquqi dövlət quruculuğu prosesləri kontekstində əhalinin maariflənməsinə, hüquqi aiqoritm və hüquqi nihilizm təzahürlərinin aradan qaldmlmasına və qarşısının alınmasına xidmət edir.

Qeyd etməliyik ki, müasir beynəlxalq hüquq dövlətlərarası münasibətlər sistemində böyük əhəmiyyətə malik olan və mühüm rol oynayan siyasi-hüquqi fenomendir. Belə fenomenə dair elmi bilikləri, qismən də olsa, təsbit edən bu əsər həm də Azərbaycan Respublikasımn beynəlxalq hüquq elmi (doktrina) üçün töhfə ola bilər. Unutmaq olmaz ki, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, beynəlxalq hüququn norma və hamılıqla qəbul edilmiş prinsipləri Azərbaycanın qanunvericilik sisteminin aynlmaz tərkib hissəsidir. Tələbələr tərəfindən beynəlxalq hüquq elminin öyrənilməsi isə mühüm və zəruri olan aktual vəzifələrdəndir.

Əsərdən ali məktəb tələbələri, müəllimlər, hüquqşünaslar, tədqiqatçılar, beynəlxalq hüquq elmi sahəsində çalışan mütəxəssislər, vəkillər və digər praktik işçilər faydalana bilər.

**Məmmədov R.F.**
**Bakı Dövlət Universiteti «Beynəlxalq ümumi hüquq» Kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor.**

# I FƏSİL. BEYNƏLXALQ HÜQUQUN ANLAYIŞI VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

## 1.1. Beynəlxalq hüququn anlayışı və predmeti

### 1.1.1. Beynəlxalq hüquq - müstəqil hüquq sistemi kimi

Sosial tənzimləyici rolunda çıxış edən hüququn yerinə yetirdiyi əsas funksiyalardan biri onun cəmiyy'ətdəki ictimai münasibətləri nizamlamasından və qaydaya salmasından ibarətdir. Qeyd etməliyik ki, hüququn tənzimetmə obyekti olan ictimai münasibətlər isə yalnız və təkcə dövlət sərhədləri daxilində əmələ gəlmir. Belə ki, həmin münasibətlərin müəyyən hissəsi dövlətlərin sərhədlərindən kənarda da yaranır; onların məcmusuna beynəlxalq münasibətlər deyilir.

Beynəlxalq münasibətlər dedikdə dövlətlərin sərhədlərindən kənara çıxan bütün ictimai münasibətlərin məcmusu başa düşülür.

Bildiyimiz kimi, dövlətlərin sərhədləri daxilində yaranan ictimai münasibətlər (onlara dövlətdaxili münasibətlər deyilir), yəni konstitusiya, maliyyə, inzibati, cinayət, əmək, mülki və digər münasibətlər hüququn ayrı-ayn müstəqil sahələri (məsələn, konstitusiya hüququ, maliyyə hüququ, inzibati hüquq, cinayət hüququ, əmək hüququ, mülki hüquq və s.) tərəfindən tənzimlənir; həmin müstəqil hüquq sahələri birləşərək hər bir dövlətin milli hüquq sistemini formalaşdınr.

Dövlətin milli hüquq sistemi dedikdə onun daxili hüquq sistemi başa düşülür. Buna görə də, dövlətin milli hüquq sisteminə dövlətdaxili hüquq sistemi də deyilir; o, eyni zamanda, sadəcə olaraq, milli hüquq və ya dövlətdaxili hüquq da adlanır.

Hər bir dövlətin aynca olaraq, özünəxas daxili (milli) hüquq sistemi vardır. Buna görə də, daxili (milli) hüquq sistemlərinin

sayı Yer kürəsində mövcud olan dövlətlərin sayına bərabərdir; nə qədər dövlət varsa, bir o qədər də daxili (milli) hüquq sistemləri mövcuddur. Hal-hazırda dünyadakı dövlətlərin və dövlətəoxşar qurumlann sayı 220-yə yaxındır'; deməli, bu gün dünyada təxminən 220-yə yaxın daxili (milli) hüquq sistemi mövcuddur.

Beynəlxalq münasibətlərə gəldikdə, qeyd etmək lazımdır ki, bu münasibətlər, bir qayda olaraq, daxili (milli) hüquqla tənzimlənmir. Belə ki, beynəlxalq münasibətlər dövlətlərin sərhədlərindən kənara çıxan əlaqələr olduğuna görə onlann ayn-ayn daxili (milli) hüquqla tənzimlənməsi qeyri-mümkündür. Başqa sözlə, beynəlxalq münasibətlərin yaranması iki və daha çox dövlətlə bağlı olduğuna görə daxili (milli) hüquq onlan tənzimləmək iqtidannda deyildir.

Beynəlxalq münasibətlər geniş və əhatəli anlayışdır; bu münasibətlər özündə həm dövlətlərarası, həm də qeyri-dövlətlərarası beynəlxalq münasibətləri birləşdirir. Dövlətlərarası beynəlxalq münasibətlər, hüquq ədəbiyyatı səhifələrində çox düzgün olaraq göstərildiyi kimi, beynəlxalq münasibətlərin vacib hissəsini təşkil edir.^

Dövlətlərarası beynəlxalq münasibətlərin əsas və başlıca iştirakçılan hakimiyyət subyekti olan dövlətlərdir; belə münasibətlərə çoxlu misallar çəkə bilərik. Məsələn, ticarət, nəqliyyat, maliyyə- valyuta, investisiya və digər sahələrdə iki dövlət öz arasında əlaqəyə girir; belə halda dövlətlərarası beynəlxalq iqtisadi münasibətlər yaranır.

Dövlətlər öz aralarında müttəfiqlik, qarşılıqlı yardım, sülh, bitərəflik haqqında və siyasi xarakterli digər müqavilələr bağlayırlar; bu zaman dövlətlərarası beynəlxalq müqavilə münasibətləri əmələ gəlir.

Dövlətlər arasında beynəlxalq münasibətlər xarici əlaqələr (diplomatiya və konsulluq) sahəsində də yarana bilər ki, bu mü-

**1 URL:http://www.bibliotekar.ru**

**2 Поздняков Э.А. Системный подход и международные отношения. М., !976,с,36-37.**

nasibətlərin tarixi qədim dövrlərlə bağlıdır; onlara diplomatik və konsulluq münasibətləri deyilir.

İnsan hüquqları dövlətlərarası beynəlxalq münasibətlərin əmələ gəldiyi sahələrdən biridir; onlara beynəlxalq insan hüquqları münasibətləri deyilir; bu münasibətlərin beynəlxalq-hüquqi müstəvidə tənzimlənməsi əsas insan hüquq və azadlıqlannın qorunması üçün vacib əhəmiyyət kəsb edir.

Dövlətlərarası beynəlxalq münasibətlər humanitar, ekologiya, dənizdən, hava məkanından və kosmik fəzadan istifadə olunması, həmçinin cinayətkarlıqla mübarizə və digər sahələrdə də yarana bilər. Söhbət dövlətlərarası ekoloji, humanitar, dəniz, hava, kosmos və digər münasibətlərdən gedir.

Göstərilən və sadalamadığımız digər münasibətlər, şübhəsiz, hər hansı bir hüquqla tənzimlənir; həmin hüquqa beynəlxalq hüquq deyilir. Bəs, beynəlxalq hüquq dedikdə, biz nə başa düşürük?

Qeyd etmək lazımdır ki, beynəlxalq hüquq hər hansı hüquq sisteminin tərkib hissəsi olan və bu sistemə daxil olan müstəqil hüquq sahəsi deyildir. Məsələn, mülki, konstitusiya, maliyyə, inzibati, cinayət, əmək və digərləri müstəqil hüquq sahələri olmaqla dövlətdaxili (milli) hüquq sisteminə daxildirlər. Bu sözləri beynəlxalq hüquq haqqında demək olmaz. Məsələ burasmdadu: ki, beynəlxalq hüquq özü ayrıca və müstəqil hüquq sistemi olub, bir neçə müstəqil hüquq sahəsindən (məsələn, beynəlxalq iqtisadi hüquq, beynəlxalq hava hüququ, beynəlxalq müqavilə hüququ, xarici əlaqələr hüququ və digər hüquq sahələrindən) ibarətdir. Belə ki, alimlərdən A.P.Movçanın haqlı və düzgün olaraq göstərdiyi kimi, müasir dünyada yalnız iki növ hüquq sistemi mövcuddur; həmin sistemlərdən biri beynəlxalq hüquq (beynəlxalq hüquq sistemi), digəri isə milli (dövlətdaxili) hüquq (milli hüquq sistemi) adlanır.*

**1 Мовчан А.П. Международное воздушное право. Книга 1, М., 1980, с. 15- 16.**

Qeyd etmək lazımdır ki, elmi doktrinada beynəlxalq hüququn müstəqil hüquq sistemi olması barədə iki cür müxtəlif fikir söylənilir. Bir qrup alim belə hesab edir ki, beynəlxalq hüquq dövlətdaxili (milli) hüquqla birlikdə vahid (bir) hüquq sistemini yaradır; onlann fikrincə, dünyada vahid (bir) hüquq sistemi mövcuddur ki, həmin sistem özündə həm beynəlxalq hüququ, həm də dövlətdaxili hüququ birləşdirir. Söylənilmiş bu fikir beynəlxalq hüquqla dövlətdaxili hüquq arasındakı münasibət məsələsi barədə mövcud olan monizm nəzəriyyəsinin' mahiyyətini təşkil edir.

İkinci qrup müəlliflərin yanaşmasma görə, beynəlxalq hüquq və dövlətdaxili (milli) hüquq iki müxtəlif hüquq sistemləridir. Söylənilmiş bu fikir isə beynəlxalq hüquqla dövlətdaxili (milli) hüquq arasındakı münasibətlə əlaqədar mövcud olan dualizm nəzəriyyəsinin^ əsasını təşkil edir.

Biz, tam əminliklə belə hesab edirik ki, dualizm nəzəriyyəsi həqiqətə daha yaxındır. Doğrudan da, beynəlxalq hüquq müxtəlif ölkələrin dövlətdaxili (milli) hüquq sistemləri ilə paralel olaraq, mövcud olan aynca, xüsusi və müstəqil hüquq sistemidir. Təsadüfi deyil ki, xarici ölkələrin beynəlxalq hüquq doktrinası (elmi) məsələyə bu cür yanaşaraq, beynəlxalq hüququn hüquqi məkanda tutduğu yeri məhz belə müəyyənləşdirir. Bu, dünya elmində, əsasən, hamılıqla qəbul olunmuş və geniş yayılmış fikirdir.

Qeyd etmək vacibdir ki, «hüquq sistemi» beynəlxalq və milli (dövlətdaxili) hüquq sistemlərindən başqa^ həm də digər mənada işlədilir. Belə ki, digər mənada hüquq sistemi dedikdə hüquq

**1 URL:http;//ww\\'.e-col!ege.ru**

**2 URL:http://www.e-college.ru**

**3 Gösterilən hüquq sistemləri arasındakı münasibət və əlaqəyə dünya elmi xüsusi diqqət yetirmişdir. *Bu barədə daha ətraflı:* Ануфриева Л.П. Соотношение международного пуб.чичного и международного частного права: правовые категории. М., 2002, с.321-365.**

ailəsi başa düşülür. Müəyyən hallarda hüquq sistemi dedikdə məhz hüquq ailəsi başa düşülür.’

Hüquq ailəsi dedikdə ayn-ayn ölkələrin milli (dövlətdaxili) hüquq sistemlərinin elə qrupu başa düşülür ki, bu qrupa daxil olan milli hüquq sistemləri bir-birinə yaxm olub, ümumi əlamətlərlə xarakterizə olunur.

Hüquq ədəbiyyatı səhifələrində hüquq ailəsinin müxtəlif tipoioji bölgüsünə rast gəlinir: roman-german, ingilis-amerikan, skandinaviya, indus, müsəlman, slavyan, sosialist və digər qanşıq hüquq ailəsi.^ Lakin, ənənəvi olaraq, hüququn mənbələrinin iyerarxiyası (hüququn formalan) baxımından, müasir dövrdə dünyada, əsasən, iki hüquq ailəsi fərqləndirilir:

- rornan-german hüquq ailəsi (bu ailəyə kontinental Avropa ölkələrinin, Türkiyənin və digər ölkələrin milh hüquq sistemləri daxildir);
- ingilis-amerikan və ya ingilis-sakson hüquq ailəsi (bu ailəyə ABŞ, İngiltərə, Kanada, Avstraliya və digər ölkələrin milli hüquq sistemləri daxildir).

### 1.1.2. Beynəlxalq hüquq - dövlətlərarası hüquq kimi

Beynəlxalq hüquq daxili (milli) hüquq sistemindən bununla fərqlənir ki, o, dövlətlərarası hüquqdur. Hətta hüquq doktrinasında dəfələrlə qeyd edilmişdir ki, beynəlxalq hüququ «dövlətlərarası hüquq» adlandırmaq daha düzgün olardı. Beynəlxalq hüquqa dair

1 ***Məsələn, bax:*** **Правовые системы стран мира / Отв. ред. А.Я.Сухарев. М., 2001; Рене Давид, Камилла Жоффре-Спинози. Основные правовые системы современности. М., 1999; Марченко М.Н. Правовые системы современного мира. М., 2001.**

2 ***Hüquq ailəsi barədə bax:*** **Юридическая энциклопедия / Под ред. М.Ю.Тихомирова. М., 2005, с.671.**

tədris və monoqrafiya ədəbiyyatı səhifələrində beynəlxalq hüquq düzgün olaraq «dövlətlərarası hüquq» kimi xarakterizə edilir. Bunun bir neçə səbəbi vardır. Birinci səbəb ondan ibarətdir ki, beynəlxalq hüquq, əsasən və başlıca olaraq, dövlətlər tərəfindən yaradılır (qeyd etməliyik ki, dövlətlər beynəlxalq hüququn yeganə yaradıcısı deyildir; o, digər subyektlər tərəfindən də yaradıla bilər). Dövlətdaxili (milli) hüquq isə səlahiyyətli dövlət orqanlannın hakimiyyət xarakterli qərarlan nəticəsində formalaşır. Beynəlxalq hüquqa gəldikdə isə, qeyd etməliyik ki, o, dövlətlərin öz iradə ifadələri barədə razılığa gəlmələri yolu ilə yaradılır; bu yol beynəlxalq hüquq yaradıcılığı prosesinin mahiyyətini təşkil edir; bu proses isə beynəlxalq sazişlər vasitəsi ilə həyata keçirilir. Birmənalı şəkildə deməliyik ki, beynəlxalq sazişlər (müqavilələr) beynəlxalq hüquq sistemində hüquq yaradıcılığının əsasım təşkil edir. Buna görə də, beynəlxalq hüquq bilavasitə dövlətlərin iradəsini ifadə edir. Bununla yanaşı və bərabər, qeyd etməliyik ki, beynəlxalq hüquq həm də dövlətlərarası beynəlxalq təşkilatlar tərəfindən yaranır.'

İkinci, beynəlxalq hüquqla, bir az əvvəldə qeyd etdiyimiz kimi, dövlətlərarası münasibətlər tənzimlənir. Belə ki, beynəlxalq hüquq ayrı-ayn hüquq normalarından ibarətdir; bu normalar, hər şeydən əvvəl və başlıca olaraq, dövlətlər arasındakı münasibətləri tənzimləyir.^ Xüsusi olaraq qeyd etməliyik ki, beynəlxalq hüququn dövlətlərarası münasibətləri tənzimləməsi barədə fikir sovet dövrünün bütün dərsliklərində öz təsdiqini tapmışdır.-* Müasir

1 **Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 1998,** С.6.

2 **Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1974, с.46- 47; Международное право. Учебник / Под ред. Г.И.Тункина. М., 1982, с.44-45.**

3 ***Məsələn, bax:*** **Международное право / Под ред. Ф.И.Кожевникова. М., 1957; Лисовский В.И. Международ-ное право. Киев, 1955; Международное право. Учебник / Отв. ред. Е.А.Коровин. М., 1951; Международное право. Учебник / Под ред. Н.Т.Блатовой. М., 1987; Международное право / Под ред. Г.И.Тункина. М., 1982 və Ь.**

dövrdə bu fikir həm də bizim yaxın qonşumuz olan Rusiya Federasiyasında yazılan dərsliklərdə geniş yayılmışdır.' Azərbaycanlı alim L.H.Hüseynov haqlı olaraq göstərir ki, beynəbcalq hüquq dövlətlər arasındakı münasibətləri nizama salmaq üçündür.^ Qərb hüquq ədəbiyyatı səhifələrində də göstərilir ki, beynəlxalq hüquq dövlətlərin davranışını (amerikalı hüquqşünas R.Vallas),^ onlar arasındakı münasibətləri qaydaya salan normalardan ibarətdir (polşalı professor A.Klafkovski," ingilis professoru C.Obrayen^). Deməli, bütün bunlar bizə belə bir fikir söyləməyə imkan verir ki, beynəlxalq hüquq, hər şeydən əvvəl, ilk növbədə, dövlətlərarası münasibətlərin tənzimlənməsinə yönəlmişdir.

Üçüncü, be)məlxalq hüquq, əsasən və başlıca olaraq, dövlətlərin öz səyləri hesabına təmin edilir. Belə ki, beynəlxalq hüquq, məlum olduğu kimi, müxtəlif və çoxsaylı hüquq normalanndan ibarətdir; bu normalara əməl olunması və riayət edilməsi əgər lazım gələrsə, bu və ya digər məcburiyyət tədbiri vasitəsi ilə təmin edilir; həmin tədbirləri isə dövlətlər, habelə dövlətlərarası beynəlxalq təşkilatlar həyata keçirirlər.^

Göstərdiyimiz səbəblərə görə bejməlxalq hüquqa həm də dövlətlərarası hüquq deyilir. Hətta bir sıra xarici ölkədə «beynəlxalq hüquq» termininin qarşılıqlı ekvivalenti və əvəzi kimi işlədilən anlayışlarda beynəlxalq hüququn dövlətlərarası hüquq olması öz əksini tapır. Məsələn, «beynəlxalq hüquq» terminini ifadə etmək üçün ingiliscə «intemational law», fransızca «droit intemational», ispanca «gerecho intemacional», italyanca «diritto intemazionale» və s. anlayışlarından istifadə olunur; həmin anlayışlarda işlədilən

1 ***Məsələn, bax:*** **Международное право. Учебник / Отв. ред. Е.Т.Усенко, Г.Г.Шинкарецкая. М., 2003, с. 17.**

2 **Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.6.**

3 **Wallace R. International Law. London, 2005, p. 1-2.**

4 **Klafkowski A. Prawo miedzynarodowe publiczne. Warszawa, 1970, c.l8.**

5 **O’Brien J. intemational Law. London / Sydney, 2001, p.l.**

6 **Курс международного права. Том 1. М., 1989, с.29; Международное право. Учебник / Пред. ред. кол. Г.И.Тункин. М., 1999, с. 10; Международное право. Учебник / Под ред. Л.Н.Шестакова. М., 2005, с. 17.**

«nation» ifadəsi həm də «dövlət», «ölkə» kimi mənalan bildirir. Buna görə də, göstərilən xarici anlayışlar hərfən «dövlətlərarası hüquq» mənasını ifadə edir.'

Bəzi ölkələrdə isə, əksinə, «beynəlxalq hüquq» termininin qarşılıqlı əvəzi və ekvivalenti kimi işlədilən anlayışlarda həmin terminin hərfən dövlətlərarası hüquq mənasını bildirməsi öz əksini tapmır. Məsələn, beynəlxalq hüquqa rusca «mejdunarodnoe pravo», ukrayna dilində «mijnarodne pravo», bolqarca «mejdunarodno pravo», serb dilində «medunarodne pravo», polşa dilində «prawo miedzynarodowe» və s. deyilir. Həmin anlayışlar hərfi mənada azərbaycan dilinə «dövlətlərarası hüquq» kimi deyil, «xalqlararası hüquq» kimi tərcümə olunur. Türkiyədə beynəlxalq hüquq «mil- letlerarası hukuk» kimi terminlə ifadə olunur ki, həmin termin dövlətlərarası hüquq deyil, millətlərarası hüquq mənasını ifadə edir. Almaniyada «beynəlxalq hüquq» termininin qarşılıqlı ekvivalenti kimi «Völkerrecht» anlayışı işlədilir ki, həmin anlayış «xalqlar hüququ» mənasını bildirir.

Nə «xalqlararası hüquq», nə «millətlərarası hüquq», nə də «xalqlar hüququ» və s. bu kimi terminlər «beynəlxalq hüquq» anlayışının əsl və həqiqi mənasına uyğun gəlir; həmin terminlər beynəlxalq hüququn real məzmununu və onun funksiyasını tam şəkildə açıqlamır. Unutmaq olmaz ki, «beynəlxalq hüquq» termininin kəsb etdiyi əsl və həqiqi məna bundan ibarətdir: o, real surətdə mövcud olan dövlətlərarası hüquqdur.

Qeyd etmək lazımdır ki, beynəlxalq hüquqa dair ədəbi)^at səhifələrində «beynəlxalq hüquq» termini ilə yanaşı, həm də, eyni zamanda, «be>TiəIxalq ümumi hüquq» anlayışı işlədilir. «Beynəlxalq hüquq» anlayışından istifadə olunması barədə ilk təklif ingilis filosofu və hüquqşünası İ.Bentama məxsusdur; xatırladaq ki, o, 1789-cu ildə nəşr etdirdiyi məşhur traktatda («Beynəlxalq hüququn və sülhün prinsipləri»)^ birinci dəfə olaraq,

**1 Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, С.4.**
**2 URL:http://www.uchebnik - besplatno.com**

«beynəlxalq hüquq» terminini işlətmək haqqında təkliflə çıxış etmişdir. Həmin traktatda o, Roma hüququ dövründən bəri işlədilən «xalqlar hüququ» (jus gentium) terminini «intemationai law» («beynəlxalq hüquq») termini ilə əvəz etmişdir. 1802-ci ildə yeni termin Fransada işlədilməyə başladı; XIX əsrin ortalarından etibarən isə «beynəlxalq ümumi hüquq» termini tətbiq olundu.

İnqilabaqədərki Rusiya hüquq ədəbiyyatı səhifələrində, bir qayda olaraq, «beynəlxalq hüquq» termini işlədilmişdir;' həmin dövrdə «beynəlxalq ümumi hüquq» kimi anlayışdan istifadə edilməsinə, demək olar ki, təsadüf olunmur.

Sovet dövrünün hüquq ədəbiyyatı səhifələrində, əsasən və başlıca olaraq, «beynəlxalq hüquq» termini işlədilmişdir;^ bu termindən istifadə olunması müqayisəedilməz dərəcədə üstünlük təşkil edir. Bununla yanaşı, sovet dövründə müəyyən hallarda həm də «beynəlxalq ümumi hüquq» anlayışı işlədilirdi.^

«Beynəlxalq ümumi hüquq» terminindən, əsasən. Qərb hüquq ədəbiyyatında istifadə olunur; bu termin dəbdə olub, Avropa müəllifləri tərəfindən tez-tez hallarda işlədilir.“* Rusiya Federasiyası və MDB üzvü olan digər ölkələrdə hansı termindən istifadə olunmasına üstünlük verilməsinə gəldikdə isə, qeyd etməliyik ki, bu ölkələrin hüquq ədəbiyyatında çox nadir hallarda «beynəlxalq

**1 *Mssdhn bax:* Капустин М.Н. Международное право. Ярославль, 1872; Каченовский Д.И. Курс международного права. Харьков, 1863; Корку- нов Н.М. Лекции по международному праву. СПб., 1883-1884; Камаров- ский Л.А. Международное право. М., 1905; Мартенсе Ф.Ф. Современное международное право цивилизованных народов. Том 1-2. СПб., 1904- 1905; Уляницкий В. А, Международное право. Томск, 1911 və s.**

**2 *MэзэЬn, bax:* Международное право. Учебник / Отв. ред. Б.А.Коровин. М., 1951; Международное право. М., 1960; Международное право. Учебник/Отв. ред. Н.Г.Блатова. М., 1987; Курс международного права. М., 1972; Курс международного права. М., 1989; Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1974 və s.**

**3 Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1982, с.З.**

***A Məsələn, bax:* Daillier R, Pellet A. Droit International Public. R, 2002; Rousseau Ch. Droit International Public. П., 1970 və s.**

ümumi hüquq» termini işlədilir;' həmin ölkələrin həm tədris, həm də monoqrafiya ədəbiyyatmda «beynəlxalq hüquq» anlayışından istifadə olunması son dərəcə geniş yayılmışdır.- Təsadüfi deyil ki, son zamanlar Rusiya Federasiyasında onlarca sayda dərslik yazılmışdır ki, onlarm hamısı «beynəlxalq hüquq» («mejdunarodnoe pravo») adlanır.

Beynəlxalq-hüquqi sənədlərdə hansı termindən istifadə edilməsinə gəldikdə isə, qeyd etməliyik ki, bu sənədlərdə hər iki termin işlədilir. Məsələn, BMT Nizamnaməsində (13-cü maddədə) «beynəlxalq hüquq» terminindən istifadə olunur; BMT Baş Assambleyasının 11 dekabr 1946-cı il tarixli Qətnaməsində (Beynəlxalq hüququn proqressiv inkişafı və kodifıkasiya olunması haqqında Qətnamədə), habelə Beynəlxalq Hüquq Komissiyası haqqında Əsasnamədə isə «beynəlxalq ümumi hüquq» termini işlədilir.

Beləliklə, müasir dövrdə «beynəlxalq ümumi hüquq» termini epizodik və çox nadir hallarda tətbiq olunur. Hansı termindən istifadə edilməsinin məqsədəuyğun və üstün olmasına gəldikdə, qeyd etməliyik ki, bunun heç bir hüquqi əhəmiyyəti və mənası yoxdur. Başqa sözlə, göstərilən terminlərin hansından istifadə edilməsi məsələnin mahiyyətini dəyişmir. Belə ki, onlar məzmunca üst-üstə düşən, mənaca sinonim (eynimənalı) terminlərdir; həm beynəlxalq hüquq, həm də beynəlxalq ümumi hüquq dövlətlərarası hüquqdur.

**1 *MdS3lm, bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009; Международное право. Учебник / Под общ. ред. А. Я.Капустина. М., 2008, с. 19; Əliyev Ə.İ. Beynəlxalq ümumi hüquq (metodik vəsait). Bakı, 2004 və b.**

**2 *Məsələn, bax:* Международное право. Учебник / Пред. ред. кол. Г.И.Тун- кин. М., 1999; Международное право. Учебник / Отв. ред. Е.Т.Усенко, Г.Г.Шинкарецкая. М.,2003; Международное право. Учебник / Под ред. Л.Н.Шестакова. М., 2005; Международное право. Учебник / Отв. ред. В. И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007; Международное право. Учебник / Отв. ред. ЕИ.Курдюков. Казань, 2004; Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2СЮ4; Ш;^вддов Jä-М.- ]""''^ллгнаподн.о®_ право. М., 2008 və b.**

Beynəlxalq hüququn dövlətlərarası hüquq olması o deməkdir ki, beynəlxalq hüquq yalnız ayrıca və konkret dövlətlə deyil, dünyada mövcud olan bütün dövlətlərlə bağlıdır. Buna görə də, o, aynca dövlətin hüququ kimi deyil, dövlətlərarası hüquq, yəni müstəqil və suveren dövlətlər arasındakı münasibətləri tənzimləyən hüquq kimi çıxış edir. Təsadüfi deyil ki, beynəlxalq hüquq tarixən dövlətlərarası hüquq kimi, başqa sözlə, yalnız dövlətlər arasındakı münasibətləri tənzimləyən hüquq kimi yaranmışdır.

### 1.1.3. Beynəlxalq hüququn doktrinal anlayışı

Hüquqi məkanda beynəlxalq hüququn tutduğu yeri, habelə beynəlxalq hüququn, təbiət etibarilə, dövlətlərarası hüquq olmasım müəyyənləşdirdikdən sonra, təbii ki, biz, ona doktrinal (elmi) anlayış verməliyik. Belə ki, bu, hüquq doktrinasının (elminin) «işi» və vəzifəsi sayılır. Beynəlxalq hüquqa dair normativ materiallarda, yəni beynəlxalq qanunvericilikdə beynəlxalq hüququn leqal (normativ) anlayışı formulə edilmir; odur ki, müvafiq anlayışı beynəlxalq hüquq doktrinası (elmi) verməlidir. Beynəlxalq hüquqa aid elə bir definisiya formulə edilməlidir ki, bu, onun hüquqi mahiyyətini və sosial təyinatını (məqsədini) müəyyənləşdirə bilsin. Bu zaman, təbii ki, ortaya belə bir sual çıxır: söhbət hansı mənada beynəlxalq hüquqa anlayış verilməsindən gedir? Axı, beynəlxalq hüquq çoxmənalı anlayışdır. O, aşağıda göstərilən dörd əsas mənada işlədilir:

- obyektiv mənada beynəlxalq hüquq;
- beynəlxalq qanunvericilik mənasında beynəlxalq hüquq;
- elmi mənada beynəlxalq hüquq;
- tədris kursu mənasında beynəlxalq hüquq.

Obyektiv mənada beynəlxalq hüquqa ilk növbədə anlayış verməliyik. Bir az öncə söhbət məhz obyektiv mənada beynəlxalq hüquqa dair anlayışın formulə edilməsindən gedirdi.

Hüquq ədəbiyyatı səhifələrində obyektiv mənada beynəlxalq hüququn çoxsaylı, bir-birindən fərqli və müxtəlif doktrinal (elmi) tərifi formulə olunur. Həm inqilabaqədərki Rusiya alimləri, həm sovet dövrünün müəllifləri, həm də tanınmış xarici mütəxəssislər - beynəlxalq hüquqşünaslar tərəfindən beynəlxalq hüquqa cürbəcür elmi anlayışlar verilir; bu anlayışlann həm üstün, həm də fərqli cəhətləri vardır. Lakin, buna baxmayaraq, onlann hamısı obyektiv mənada beynəlxalq hüququn mahiyyətinə aydınlıq gətirilməsi baxımından əhəmiyyətlidir. Müəlliflərdən K.A.Bekyaşev alimlər tərəfindən beynəlxalq hüquqa verilən anlayışlara ətraflı şəkildə toxunmağa təşəbbüs göstərmişdir.'

Nəzəri ədəbiyyatda obyektiv mənada beynəlxalq hüquqa «ictimai münasibətləri tənzimləyən hüquq normalannın sistemi (məcmusu)» kimi anlayış verilir. Obyektiv mənada beynəlxalq hüququn tərifini formulə edərkən, aydın məsələdir ki, həmin anlayışı nəzərə almalıyıq. Buna görə də, ilk növbədə, müəyyənləşdirməliyik ki, obyektiv mənada beynəlxalq hüquqla hansı növ ictimai münasibətlər - beynəlxalq münasibətlər tənzimlənir.

Obyektiv mənada beynəlxalq hüquqla, hər şeydən əvvəl, suveren, müstəqil və hakimiyyət daşıyıcısı olan dövlətlər arasında yaranan münasibətlər tənzimlənir. Lakin beynəlxalq hüquqa yalnız dövlətlər arasında yaranan münasibətləri tənzimləyən hüquq normalarının sistemi kimi anlayış vermək kifayət deyil. Bu, beynəlxalq hüquqa verilən klassik (ənənəvi) anlayışdır. Belə ki, beynəlxalq hüququn iki cür anlayışı fərqləndirilir; bunlardan biri klassik (ənənəvi), digəri isə müasir anlayış adlanır.

Beynəlxalq hüququn klassik (ənənəvi) anlayışı hələ XIX əsrdə formulə edilmişdi; bu anlayışa görə, beynəlxalq hüquq dedikdə dövlətlər arasında münasibətləri tənzimləyən hüquq normalannın sistemi başa düşülürdü. Beynəlxalq hüquqa dair belə anlayış

**1 Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с. 12-19.**

verilməsi bununla izah olunurdu ki, o dövrdə beynəlxalq hüququn subyekti kimi yalnız suveren və müstəqil dövlətlər tanmırdı; başqa hər hansı qurum beynəlxalq hüququn subyekti sayılmırdı. Qeyd etməliyik ki, beynəlxalq hüququn klassik (ənənəvi) anlayışı öz aktuallığını yalnız keçən yüzilliyin ortalarına (II Dünya Müharibəsi dövrünə) kimi saxlaya bilmişdir. Belə ki, həmin dövrdə beynəlxalq hüququn yeni subyektləri (məsələn, dövlətlərarası beynəlxalq təşkilatlar və s.) yarandı; bu subyektlərlə dövlətlər, eləcə də onların özləri arasında əmələ gələn müxtəlif məzmunlu beynəlxalq münasibətlər beynəlxalq hüquqla tənzimlənir. Əlbəttə, belə halda beynəlxalq hüququn klassik (ənənəvi) anlayışı tədricən öz əhəmiyyətini itirməyə başladı.

Beynəlxalq hüquqla təkcə dövlətlər arasmda yaranan beynəlxalq münasibətlər tənzimlənmir; onun köməyi və vasitəsi ilə həm də, eyni zamanda, hakimiyyət (dövlət) xarakterli digər beynəlxalq münasibətlər nizamlanır və qaydaya salınır ki, həmin münasibətlər dövlətlərarası beynəlxalq təşkilatların, öz dövlətini yaratmaq uğrunda mübarizə aparan millətlərin, habelə dövlətəbənzər (döv- lətəoxşar) qurumların (məsələn, Vatikan) iştirakı ilə yaranır. Nəzərə almaq lazımdır ki, suveren və müstəqil dövlətlər arasında yaranan münasibətlər də hakimiyyət (dövlət) xarakterli beynəlxalq münasibətlərdir.

Beləliklə, beynəlxalq hüquqla həm suveren və müstəqil dövlətlər arasmda yaranan, həm də hakimiyyət xarakterli digər beynəlxalq münasibətlər tənzimlənir. Klassik (ənənəvi) anlayışdan fərqli olaraq, beynəlxalq hüququn müasir anlayışına görə, beynəlxalq hüquq, hər şeydən əvvəl və başlıca olaraq, dövlətlər arasmda yaranan beynəlxalq münasibətləri tənzimləyir; lakin onlar bejməlxalq hüquqla tənzimlənən yeganə münasibətlər deyildir; beynəlxalq hüquqla dövlətlər arasmda yaranan münasibətlərdən başqa, digər növ beynəlxalq münasibətlər də tənzimlənir.

Digər tərəfdən, biz, müəyyənləşdirməliyik ki, beynəlxalq hüququn tənzimlədiyi hakimiyyət (dövlət) xarakterli beynəlxalq münasibətlər beynəlxalq əməkdaşlığın hansı əsas sahələrində ya-

ramr. Hamıya aydın şəkildə məlumdur ki, beynəlxalq əməkdaşlıq, əsasən, aşağıdakı sahələrdə həyata keçirilir; siyasi, iqtisadi, elmi- texniki və mədəni, ekologiya, cinayətkarlıqla mübarizə, xarici əlaqələr, insan hüquqlan, habelə kosmos, dəniz və hava məkanından istifadə sahəsində və s.

Nəhayət, biz, həm də müəyyənləşdirməliyik ki, göstərilən sahələrdə yaranan hakimiyyət (dövlət) xarakterli beynəlxalq münasibətləri beynəlxalq hüquq hansı məqsədlə tənzimləyir. Qeyd etməliyik ki, hakimiyyət (dövlət) xarakterli beynəlxalq münasibətləri beynəlxalq-hüquqi tənzimetmənin üç əsas məqsədi vardır.' Həmin məqsədlər bunlardan ibarətdir:

- beynəlxalq sülhü möhkəmləndirmək;
- beynəlxalq təhlükəsizliyi təmin etmək;
- beynəlxalq əməkdaşlığı inkişaf etdirmək.

Hesab edirik ki, yuxarıda şərh olunanlar obyektiv mənada beynəlxalq hüquqa lakonik, dolğun, məzmunlu, hərtərəfli və əhatəli doktrinal (elmi) anlayış verilməsi üçün kifayətdir.

Obyektiv mənada beynəlxalq hüquq dedikdə dünyada sülhün möhkəmləndirilməsi, təhlükəsizliyin təmin olunması və əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə siyasi, iqtisadi, elmi-texniki və mədəni, xarici əlaqələr (diplomatiya və konsulluq), ekologiya, cinayətkarlıqla mübarizə, kosmosdan, dənizdən və haha məkanından istifadə, insan hüquqlan və digər sahələrdə əmələ gələn hakimiyyət (dövlət) xarakterli, hər şeydən əvvəl və əsasən, suveren dövlətlər arasında yaranan beynəlxalq münasibətləri tənzimləyən hüquq normalarının sistemi başa düşülür.

Bu, tərəfimizdən müasir beynəlxalq hüquqa verilən doktrinal (elmi) anlayışdır. Zənn edirik ki, bu anlayış reallığa və həqiqətə daha uyğundur. Göründüyü kimi, o, beynəlxalq hüququn ənənəvi (klassik) anlayışından fərqlənir.

**1 Курс международного права. М., 1972, с.16-17; Лукашук И.И. Международное право.. Общая часть. М., 1997, с.1; Международное право. Учебник/Отв. ред. Е.Т.Усенко, Г.Г.Шинкарецкая. М., 2003, с.17 У8 Ь.**

Ənənəvi anlayış, bildiyimiz kimi, klassik beynəlxalq hüquqa verilən tərifdir.

Beynəlxalq hüquq obyektiv mənadan başqa, həm də beynəlxalq qanunvericilik mənasında işlədilir. Qanunvericilik mənasında beynəlxalq hüquq dedikdə beynəlxalq-hüquqi aktlann elə məcmusu başa düşülür ki, həmin aktlann köməyi və vasitəsilə hakimiyyət xarakterli beynəlxalq münasibətlərin, yəni beynəlxalq hüquqla nizamlanan və qaydaya salınan beynəlxalq münasibətlərin tənzimlənməsi həyata keçirilir. Beynəlxalq-hüquqi aktlar dedikdə, hər şeydən əvvəl və ilk növbədə, beynəlxalq müqavilələr başa düşülür. Beynəlxalq müqavilələr beynəlxalq hüquq normalannı müəyyənləşdirir ki, həmin normalann vasitəsi ilə hakimiyyət xarakterli beynəlxalq münasibətlər tənzimlənir.

«Beynəlxalq qanunvericilik» terminindən Qərb hüquq ədəbiyyatında istifadə olunur; bu termini hərfi mənada deyil, şərti anlayış kimi başa düşmək lazımdır. Həmin tenninlə bütün beynəlxalq müqavilələrin məcmusu əhatə olunur.

Elmi mənada beynəlxalq hüquq dedikdə beynəlxalq-hüquqi məsələlər (beynəlxalq hüquq normalan, beynəlxalq-hüquqi aktlar, yəni beynəlxalq qanunvericilik aktlan, hakimiyyət xarakterli beynəlxalq münasibətlər və digər məsələlər) barədə beynəlxalq hüquq üzrə mütəxəssis alimlərin irəli sürdükləri fikirlərin, ideyalarm, konsepsiyalann, nəzəriyyələrin, anlayışlann, təlimlərin və fərziyyələrin sistemi başa düşülür. Söhbət beynəlxalq hüquq elmindən gedir; ona çox vaxt beynəlxalq hüquq doktrinası da deyilir.

Hakimiyyət xarakterli beynəkalq münasibətləri hüquqi cəhətdən tənzimləmək obyektiv mənada beynəlxalq hüququn əsas vəzifəsi sayılır; elm mənasında beynəlxalq hüququn (beynəlxalq hüquq elminin) əsas vəzifəsi isə hakimiyyət xarakterli beynəlxalq münasibətləri beynəlxalq-hüquqi tənzimetmənin qanunauyğunluq- larmı öyrənməkdən ibarətdir.

Nəhayət, tədris kursu mənasında beynəlxalq hüquq dedikdə beynəlxalq hüquqa dair tədris fənni başa düşülür. Söhbət beynəlxalq

hüquq dərsliyindən gedir. Beynəlxalq hüquq dərsliyi isə oxucu auditoriyasına üç əsas və başlıca məsələni öyrədir, onu həmin məsələlər barəsində elmi biliklərlə təmin edir. Göstərilən məsələlərə aiddir: obyektiv mənada beynəlxalq hüquq, qanunvericilik məna- smda beynəlxalq hüquq, elmi mənada beynəlxalq hüquq (beynəlxalq hüquq elmi).

Beynəlxalq hüquq dərsliyinin yazılması işinə başlanması Rusiyada inqilabaqədərki dövrə təsadüf edir.' Sovet dövründə bu iş xeyli genişlənmişdir. Belə ki, XX əsrin ortalarından sonra SSRİ- də,^ sonra isə Rusiya Federasiyasında 3 O-dan çox beynəlxalq hüquq dərsliyi yazılmışdır.^

Sovet dövründə Azərbaycan Respublikasında Ə.Əsgərovun müəllifliyi ilə 1979-cu ildə «Beynəlxalq hüquq» adlı dərs vəsaiti nəşr olunmuşdur.'* Respublikamız öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra azərbaycanlı alim L.Hüseynov tərəfindən ilk dəfə beynəlxalq hüquq dərsliyi yazılaraq çap edilmişdir.^

Beynəlxalq hüquq dərsliyi Avropa ölkələrində də yazılmışdır. Belə ki, keçən yüzilliyin 70-80-ci illərində bir sıra Avropa ölkəsində beynəlxalq hüquq dərsliyi nəşr olunmuşdur;^ onlar beynəlxalq hüquq deyil, beynəlxalq ümumi hüquq dərsliyi adlanır.

**1 *Məsələn, bax:* Казанский П.Е.Учебник международного права, публичного и гражданского. Одесса, 1902, с.6.**

**2 *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Е.А.Коровин. М., 1951; Международное право. М., 1957; Международное право. Учебник/ Отв. ред. Г.И.Тункин. М., 1974; Ме.ждународное право. Учебник / Отв. ред. Н.Т.Блатова. М., 1987; Международное право. Учебник. М., 1987 VƏ Ь.**

**3 *Məsələn, bax:* Международное право. Учебник / Отв. ред. Л.Н.Шестакова. М., 2005; Международное право. Учебник / Отв. ред. Е.Т.Усенко, Г.Г.Шинкарецкая. М., 2003 və s.**

**4Əsgərov Ə. Beynəlxalq hüquq. Dərs vəsaiti. Bakı, 1979.**

**5 Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000.**

**6 *Məsələn, bax:* Manyal of Public International Law / Ed. by M. Sorensen. London, 1978; Encyclopedia of Public International Law. Vol.7. Amsterdam, 1984.**

Lakin, qeyd etmək lazımdır ki, beynəlxalq hüquq dərsliklərinin hamısında, bir qayda olaraq, həm elm, həm də tədris kursu (fənni) mənasında beynəlxalq hüquqa geniş yer ayrılmır; müəlliflər beʒTiəlxalq hüquq dərsliklərində yalnız «beynəlxalq hüquq elmi»‘, habelə «tədris fənni kimi beynəlxalq hüquq»^ terminlərini işlətməklə kifayətlənmişlər.

### 1.1.4. Beynəlxalq hüququn nizamasalma predmeti

Beynəlxalq hüquqla hansı növ ictimai münasibətlər tənzimlənirsə, elə həmin münasibətlər də onun nizamasalma predmetini təşkil edir. Buna görə də beynəlxalq hüququn nizamasalma predmeti dedikdə onunla tənzimlənən ictimai münasibətlər qrupu başa düşülür.

Beynəlxalq hüququn nizamasalma predmeti elə bir meyardır ki, həmin meyar onu dövlətdaxili (milli) hüquqdan fərqləndirməyə imkan verir. Məlum olduğu kimi, dövlətdaxili (milli) hüququn nizamasalma predmetini ayrıca, konkret bir dövlətin daxilində yaranan ictimai münasibətlər təşkil edir. Beynəlxalq hüququn nizamasalma predmeti rolunda isə bir dövlətin sərhədləri çərçivəsindən kənara çıxan münasibətlər çıxış edir.

Dövlətin sərhədlərindən kənara çıxan ictimai münasibətlərə, əvvəllərdə göstərdiyimiz kimi, beynəlxalq münasibətlər deyilir.^ Lakin beynəlxalq münasibətlərin hamısı beynəlxalq hüququn nizamasalma predmetinə daxil olmur. Belə ki, beynəlxalq münasibətlər iki yerə bölünür:

1 ***Məsələn, bax:*** **Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 1999, с. 17.**

2 ***Məsələn, bax:*** **Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с. 17.**

3 **Усенко Е.Т. Теоретические проблемы соотношения международного и внутригосударственного права // Советский ежегодник международного права, 1977. М., 1978, с.57-86.**

- hakimiyyət xarakterli beynəlxalq münasibətlər;
- qeyri-hakimiyyət xarakterli be)məlxalq münasibətlər.

Hakimiyyət xarakterli beynəlxalq münasibətlər dedikdə dövlət hakimiyyəti səlahiyyətinə və funksiyasına malik olan qurumlar arasında yaranan beynəlxalq münasibətlər başa düşülür. Dövlət hakimiyyəti səlahiyyətinə və funksiyasına malik olan qurumlar arasında yarandığına görə onlara həm də, eyni zamanda, haki- miyyətlərarası beynəlxalq münasibətlər' və ya dövlət xarakterli beynəlxalq münasibətlər^ deyilir. Beynəlxalq hüququn nizamasalma predmetini də məhz hakimiyyət xarakterli münasibətlər və ya hakimiyyətlərarası beynəlxalq münasibətlər, yaxud dövlət xarakterli beynəlxalq münasibətlər təşkil edir. Bu terminlər - «hakimiyyət xarakterli beynəlxalq münasibətlər», «hakimiyyətlərarası beynəlxalq münasibətlər» və «dövlət xarakterli beynəlxalq münasibətlər» ifadələri terminoloji baxımdan fərqli olsalar da, məzmunca, tam üst-üstə düşən, sinonim (eynimənalı) anlayışlardu*.

Qeyd etdik ki, göstərilən beynəlxalq münasibətlər dövlət hakimiyyəti səlahiyyətinə və funksiyasına malik olan qurumlar arasında yaranır. Bəs, dövlət hakimiyyəti səlahiyyətinə və funksiyasına malik olan qurumlar dedikdə, biz nə başa düşürük?

Dövlət hakimiyyəti səlahiyyətinə və funksiyasına malik olan qurumlar dedikdə aşağıdakılar başa düşülür:

- suveren dövlətlər;
- öz dövlətçiliyi (öz dövlətini yaratmaq) uğrunda mübarizə aparan xalqlar (millətlər);
- dövlətəoxşar qurumlar (məsələn, Vatikan);
- dövlətlərarası beynəlxalq təşkilatlar.

Əgər göstərilən qurumlar siyasi, iqtisadi, elmi-texniki və digər sahələrdə öz aralarında bu və ya digər münasibətə daxil olarsa.

**1 Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, .Э.С.Кривчикова. М., 2000, с.8.**

**2 Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, С.29.**

onlar hakimiyyət xarakterli beynəlxalq münasibətlər hesab ediləcəkdir. Hakimiyyət xarakterli beynəlxalq münasibətlər geniş anlayışdır. Belə ki, onları bu və ya digər meyara görə müxtəlif növlərə bölmək olar. Məzmun baxımından hakimiyyət xarakterli beynəlxalq münasibətlərin bir neçə növü fərqləndirilir; siyasi xarakterli beynəlxalq münasibətlər, beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq ekoloji münasibətlər, xarici əlaqələr sahəsində beynəlxaq münasibətlər və s.

Hansı qurumlar arasında yaranmasından asılı olaraq, hakimiyyət xarakterli beynəlxalq münasibətlərin aşağıdakı növləri vardır:

- dövlətlər arasındakı beynəlxalq münasibətlər;
- dövlətlərlə dövlətlərarası beynəlxalq təşkilatlar arasında yaranan münasibətlər;
- dövlətlərarası beynəlxalq təşkilatların özləri arasında yaranan münasibətlər;
- dövlətlərlə öz dövlətçiliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) arasında yaranan beynəlxalq münasibətlər;
- dövlətlərlə dövlətəoxşar qurumlar arasında yaranan beynəlxalq münasibətlər;
- dövlətlərarası beynəlxalq təşkilatlarla öz dövlətçiliyi uğrunda mübarizə aparan xalqlar (millətlər) arasmda yaranan beynəlxalq münasibətlər və s.

Göstərilən beynəlxalq münasibətlərin hamısı üçün belə bir ümumi cəhət vardır ki, onlar dövlətlərarası beynəlxalq münasibətlərdir. Başqa sözlə, hakimiyyət xarakterli beynəlxalq münasibətlərin bütün növləri dövlətlərarası beynəlxalq münasibət olmaları ilə xarakterizə edilir. Belə fikir söyləmək üçün kifayət dərəcədə əsaslar vardır. Hər şeydən əvvəl, qeyd edək ki, iki dövlət bir-biri ilə bu və ya digər sahədə əlaqəyə girərsə, belə əlaqə döv- lətlərarası beynəlxalq münasibət deməkdir. Bu, aydın məsələdir. Dövlətlərlə dövlətlərarası beynəlxalq təşkilatlar arasındakı münasibətlərə gəldikdə, qeyd etməliyik ki, bu münasibətlər də döv-

lətlərarası beynəlxalq münasibətlər deməkdir. Ona görə ki, dövlətlərarası beynəlxalq təşkilatlan dövlətlər yaradırlar; onların üzvləri ayn-ayrı dövlətlərdən ibarətdir. Buna görə də, dövlətlərarası beynəlxalq təşkilatlar dövlətlərin birlik formasıdır. Məlum məsələdir ki, əgər dövlətlər belə təşkilatlarla əlaqəyə girərsə, belə əlaqə dövlətlərarası münasibət deməkdir.

Dövlətəoxşar qurumlar da dövlətlərə xas olan bir sıra əlamətə malikdir. Təbii ki, belə qurumlarla dövlətlər arasında yaranan əlaqələr dövlətlərarası beynəlxalq münasibətlər hesab ediləcəkdir.

Öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan xalq (millət) formalaşmaqda və yaranmaqda olan dövlət kimi hərəkət edir. Başqa sözlə, belə millət yaranma prosesində olan dövlət deməkdir. Aydın məsələdir ki, onunla dövlət arasındakı əlaqə də, faktiki olaraq, dövlətlərarası münasibət kimi tanınmalıdır və tanınır da.

Dövlətlərarası beynəlxalq münasibətlər iki mənada işlədilir: məhdud mənada, geniş mənada. Məhdud mənada dövlətlərarası beynəlxalq münasibətlər yalnız dövlətlər arasında yaranan münasibətlərə deyilir. Başqa sözlə, məhdud mənada dövlətlərarası beynəlxalq münasibətlər dedikdə suveren və müstəqil dövlətlərin iştirak etdikləri münasibətlər başa düşülür; belə münasibətlər klassik beynəlxalq hüququn nizamasalma predmetini təşkil edir.

Geniş mənada dövlətlərarası beynəlxalq münasibətlər dedikdə suveren dövlətlərin, öz dövlətçiliyi uğrunda mübarizə aparan millətlərin (məsələn, Fələstin xalqının və s.), dövlətəoxşar qurumlann və dövlətlərarası beynəlxalq təşkilatlann (məsələn, Birləşmiş Millətlər Təşkilatının, Beynəlxalq Valyuta Fondunun, Ümumdünya Ticarət Təşkilatının, Beynəlxalq Mülki Aviasiya Təşkilatının və s.) iştirakı ilə yaranan münasibətlər başa düşülür; belə münasibətlər isə müasir beynəlxalq hüququn nizamasalma predmetini təşkil edir. Müəlliflərin əksəriyyəti, məsələn, S.V.Çemiçenko’, İ.İ.Lu-

**1 Междзшародное право. Учебник / Отв.ред. А.А.Ковалев, С.В.Черни- ченко. М., 2008, с.25.**

kaşuk', A.Y.Kapustin^, Q.V.İqnatenko^ və digərləri «dövlətlərarası beynəlxalq münasibətləD) anlayışının məhdud və geniş mənalarda işlədilməsmi fərqləndirməsələr də, belə hesab edirlər ki, beynəlxalq hüququn predmeti rolunda məhz dövlətlərarası beynəlxalq münasibətlər çıxış edir. Bu fikri tamamlayaraq göstəririk ki, müasir beynəlxalq hüququn nizamasalma predmetini, sadəcə olaraq, məhdud mənada dövlətlərarası münasibətlər deyil, bütövlükdə geniş mənada dövlətlərarası münasibətlər təşkil edir. Tam əminliklə hesab edirik ki, məsələyə belə yanaşma daha dəqiq və əhatəlidir.

Beynəlxalq münasibətlərin digər növünə, yəni qeyri-hakimiyyət xarakterli beynəlxalq münasibətlərə gəldikdə isə, qeyd etməliyik ki, belə münasibətlər dövlət hakimiyyəti səlahiyyətinə və funksiyasına malik olan qurumlar arasında deyil, ayn-ayn, müxtəlif dövlətlərin fiziki və hüquqi şəxslərinin, dövlətlərin və qeyri- hökumət beynəlxalq təşkilatların iştirakı ilə yaranır (məsələn, iki dövlətin hüquqi şəxsləri arasında, dövlətlə xarici dövlətin hüquqi şəxsləri arasında, dövlətlə qeyri-hökumət beynəlxalq təşkilat arasında, dövlətlə xarici ölkənin fiziki şəxsi arasında, iki dövlətin fiziki və hüquqi şəxsləri arasında və s.); həmin münasibətlərə hüquq ədəbiyyatı səhifələrində qeyri-dövlətlərarası beynəlxalq münasibətlər* və ya qeyri-dövlət xarakterli beynəlxalq münasibətləri də deyilir. Beynəlxalq xüsusi (mülki) hüquq elmində isə qeyri- hakimiyyət xarakterli beynəlxalq münasibətlər «xarici elementli beynəlxalq mülki münasibətlər» adlanır.® Göstərilən anlayışlar arasında fərq yoxdur və onlann hamısı eyni məna ifadə edir.

**1 Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997, с. 1.**

**2 Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, С.21.**

**3 Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, С.29.**

**4 Богуславский М.М. Международное экономическое право. М., 1986, с.5.**

**5 Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.29.**

**6 Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı, 2007.**

Qeyri-hakimiyyət xarakterli beynəlxalq münasibətlər dövlət- lərarası münasibətlər olmadığına görə beynəlxalq hüquqla tənzimlənmir və onun nizamasalma predmetinə daxil olmur. Belə ki, beynəlxalq hüquq yalnız dövlətlərarası münasibətləri nizama salmaq üçündür. Təsadüfi deyil ki, o, tarixən məhz belə münasibətlərin tənzimləyicisi kimi yaranmış və inkişaf etmişdir. Nəzərə almaq lazımdır ki, bütün dövrlərdə olduğu kimi, indi də beynəlxalq hüquqdan ancaq dövlətlərarası münasibətlərin hüquqi tənzimlənməsi üçün istifadə olunur.

Qeyri-hakimiyyət xarakterli beynəlxalq münasibətlərin hansı hüquqla tənzimlənməsinə gəldikdə isə, qeyd etməliyik ki, həmin münasibətlər beynəlxalq xüsusi hüquqla (International private law) tənzimlənir; onun köməyi və vasitəsi ilə həmin münasibətlərin iştirakçıları arasındakı qarşılıqlı münasibətlər qaydaya salınır. Beynəlxalq hüquq və beynəlxalq xüsusi hüquq bir-biri ilə sıx surətdə bağlıdır.

Hakimiyyət xarakterli (dövlətlərarası) beynəlxalq münasibətlərin beynəbcalq hüquqla, qeyri-hakimiyyət xarakterh (qeyri-dövlətlərarası) beynəlxalq münasibətlərin isə beynəlxalq xüsusi hüquqla tənzimlənməsinə baxmayaraq, həmin münasibətlər bir-biri ilə qarşılıqlı əlaqəlidirlər. Lakin, bir-biri ilə nə qədər qarşılıqlı əlaqədə olsalar da, onlar vahid sistem halında birləşmirlər. Qeyd etməliyik ki, sistem halında yalnız hakimiyyət xarakterli (dövlətlərarası) beynəlxalq münasibətlər birləşir; ona dövlətlərarası münasibətlər sistemi deyilir. «Dövlətlərarası münasibətlər sistemi» anlayışı müasir beynəlxalq hüquq elmində ilk dəfə olaraq, sovet dövrünün tamnmış alimi Q.İ.Tunkin tərəfindən işlədilmişdir.' Alimin fikrincə, dövlət hakimiyyətinə malik olan qurumlarm arasındakı dövlətlərarası münasibətlər müəyyən bir sistem təşkil edir. Bu sistemdə iştirak edən subyektlərə gəldikdə isə, qeyd etməliyik ki, dövlətlər, dövlətlərarası beynəlxalq təşkilatlar, öz dövlət müstəqilliyi uğrunda mübarizə aparan millətlər (xalqlar) və dövlətəoxşar qurumlar

**1 Тункин Г.И. Право и сила в международной системе. М., 1983,с.10.**

dövlətlərarası sistemin iştirakçılarıdır. Beynəlxalq hüququn nizamasalma predmeti rolunda da məhz həmin iştirakçılar arasında dövlətlərarası sistemdə yaranan münasibətlər çıxış edir.

Müəlliflərdən Q.V.İqnatenko beynəlxalq hüququn nizamasalma predmetinə dövlətlərarası münasibətlərdən başqa «digər beynəkalq münasibətləri» də daxil edir.* Lakin alim «digər beynəlxalq münasibətlər» anlayışının mahiyyətinə aydınlıq gətirmir; onun söylədiyi belə bir fikirlə həm də razılaşro-aq mümkün deyil ki, beynəlxalq hüquqla guya «müəyyən dövlətdaxili münasibətlər» də tənzimlənir.^ Axı, yuxanda qeyd olunduğu kimi, beynəlxalq hüquq dövlətlərarası xarakterə malikdir.

Beləliklə, müasir beynəlxalq hüququn nizamasalma predmetini yalnız aşağıdakı münasibətlər təşkil edir ki, həmin münasibətlər mənaca eyni olub, bir bərabərdə tutulur:

- hakimiyyət xarakterli beynəlxalq münasibətlər;
- dövlət xarakterli beynəlxalq münasibətlər;
- dövlətlərarası beynəlxalq münasibətlər;
- hakimi>7ətlərarası beynəlxalq münasibətlər;
- dövlətlərarası sistemdə yaranan münasibətlər.

## 1.2. Beynəlxalq hüququn funksiyaları, əhəmiyyəti və xüsusiyyətləri

### 1.2.1. Beynəlxalq hüququn funksiyaları

Beynəlxalq hüququn mahiyyəti, eləcə də beynəlxalq hüququn sosial təyinatı onun yerinə yetirdiyi funksiyalarda ifadə edilir. Belə ki, funksiyalar beynəlxalq hüququn mahİ5^ətini və sosial təyinatını müəyyənləşdirməyə imkan verən məsələlərdən biri

1 Международное право. Учебник /Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, С.23.
2 Yenə həmin dərslik, s.23.

hesab olunur; funksiyalar həm də, eyni zamanda, beynəlxalq hüquqim ictimai həyatda (söhbət beynəlxalq ictimai həyatdan gedir) hansı rol oynamasım ifadə edir.

Beynəlxalq hüququn flınksiyalan dedikdə onun özünün tənzimlədiyi geniş mənada dövlətlərarası münasibətlərə, dövlətlərarası sistem iştirakçılannın (dövlətlərin, dövlətlərarası beynəlxalq təşkilatların və s.) davranışına göstərdiyi təsirin əsas istiqamətləri başa düşülür.

Beynəlxalq hüquqa dair həm tədris, həm də monoqrafiya ədəbiyyatında beynəlxalq hüquqim bir neçə funksiyası göstərilir. Lakin, qeyd etməliyik ki, beynəlxalq hüququn hansı flınksiyalan yerinə yetirməsi məsələsində müəlliflərin mövqeləri üst-üstə düşmür. Məsələn, Y.M.Kolosov beynəlxalq hüququn dörd' (koordinasiya funksiyası, tənzimetmə funksiyası, təminetmə funksiyası, mühafizəetmə funksiyası), K.A.Bekyaşev iki^ (koordinasiya funksiyası, idarəetmə funksiyası), İ.İ.Lukaşuk dörd funksiya^ (tənzimetmə funksiyası, beynəlxalq hüququn məqsəd və prinsiplərinə zidd olan yeni münasibət və institutlann yaranması ilə mübarizə aparmaq funksiyası, intemasionalizm - beynəlmiləlləşdirmək funksiyası, informasiya-tərbiyə funksiyası) və s. yerinə yetirilməsini göstərirlər. Bir sıra dərslikdə isə «beynəlxalq hüququn flmksiyalan» mövzusuna, ümumiyyətlə, toxunulmur və ya yer aynlımr.'’

Hüquq ədəbiyyatında söylənilən fikirləri nəzərə alaraq, deyə bilərik ki, beynəlxalq hüquq ümumilikdə üç əsas funksiyanı yerinə yetirir; həmin funksiyalara aşağıdakılar aiddir:

1 **Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с.3.**

2 **Международное публичное право. Учебник / Отв. ред. К.А.Беюппев. М., 2009, с. 18-19.**

3 **Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997, с.23-24.**

4 ***МэвэЬп, bax:* Международное право. Учебник /Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов, М., 2009; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 və digərləri.**

- koordinasiya funksiyası;
- tənzimetmə funksiyası;
- mühafızəetmə funksiyası.

Qeyd etmək lazımdır ki, beynəlxalq hüquq beynəlxalq münasibətlərdə koordinasiya funksiyası yerinə yetirir. Buna görə də, beynəlxalq hüquq koordinasiya hüququ kimi tanmır.'

Koordinasiya funksiyasının mahiyyəti beynəlxalq hüququn hamılıqla qəbul olunmuş bir sıra standartı nəzərdə tutmasından, bu yolla onun dövlətlərin davranışını (beynəlxalq fəaliyyətini) uzlaşdırmasmdan və əlaqələndirməsindən ibarətdir. Məsələn, beynəlxalq hüquq radiotezlik spektrindən istifadənin qaydalannı müəyyən edir ki, bu qaydalar elektron rabitədən istifadə zamanı qarşılıqlı maneəni aradan qaldınr.

Beynəlxalq hüququn beynəlxalq münasibətlərdə koordinasiya funksiyasını yerinə yetirməsi sovet hüquq ədəbiyyatında göstərilmişdir.^ Özü də sovet hüquq ədəbiyyatı həmin funksiyanı beynəlxalq hüququn yeganə flmksiyası sayırdı.

Beynəlxalq hüququn tənzimetmə funksiyası onun geniş mənada dövlətlərarası münasibətləri nizamlamasında və qaydaya salmasında ifadə olunur. Qeyd etmək lazımdır ki, İ.İ.Lukaşuk çox düzgün olaraq, dövlətlərarası münasibətləri tənzimetməni beynəlxalq hüququn başlıca funksiyası hesab edir.^

Beynəlxalq hüququn tənzimetmə funksiyasını yerinə yetirməsi ona bir az əvvəldə verdiyimiz doktrinal (elmi) anlayışdan irəli gəlir. Belə ki, bu anlayışa görə, beynəlxalq hüquq hakimiyyət xarakterli beynəlxalq münasibətləri, əsasən də dövlətlər arasında yaranan beynəlxalq münasibətləri tənzimləyir.

**1 Государство и право. М., 2006, № 4, с.72.**

**2 Международное право. Учебник / Отв, ред. Г.И.Тункин. М., 1982, с. 11; Василенко В.А. Основы теории международного права. Киев, 1988, с.120** УО Ь.

**3 Лукашук И;И. Международное право. Учебник. Общая часть. М. 1997.**

Tənzimetmə elə müə>'yənetmə deməkdir. Buna görə də beynəlxalq hüququn tənzimetmə funksiyasının mahiyyəti onun döv- lətlərarası sistem iştirakçılan üçün (xüsusən də dövlətlər üçün) hüquq və vəzifələr, davranış qaydalan müəyyənləşdirməsindən ibarətdir. Belə müəyyənetmənin sayəsində yalnız dövlətlərarası sistemdə deyil, ümumiyyətlə, bütövlükdə qlobal beynəlxalq münasibətlər sistemində qayda-qanun yaradılır. Bunun nəticəsində isə beynəlxalq əməkdaşlığın və münasibətlərin, habelə beynəlxalq hüququn özünün inkişafı üçün əlverişli şərait təmin olunur.

Beynəlxalq hüququn tənzimetmə funksiyası həm də bunda ifadə olunur ki, o, beynəlxalq fəaliyyəti, dövlətlərarası əlaqələri və bütövlükdə beynəlxalq münasibətləri, ayn-ayn müxtəlif sahələrdə beynəlxalq əməkdaşlığı idarə edir. Buna görə də bir sıra müəllifin beynəlxalq hüququn ayrıca olaraq, idarəetmə funksiyasmı yerinə yetirməsi barədə fikir söyləməsinin də elə bir elmi zəmini yoxdui’. Məsələn, inqilabaqədərki Rusiya müəlliflərindən ERMartens qeyd edir ki, beynəlxalq hüquq dövlətlərin beynəlxalq fəaliyyətini idarə edir.’ Tanınmış fransalı professor G.Agnel göstərir ki, beynəlxalq hüquq dünya birliyini idarə etmək üçün nəzərdə tutulan norma və institutlardan ibarətdir.^ Söylənilən bu fikirlərdən belə çıxır ki, beynəlxalq hüquq idarəetmə funksiyasını yerinə yetirir.

Müəlliflərdən K.A.Bekyaşevə görə, subyektlərin beynəlxalq münasibətlərin müvafiq sahələrində fəaliyyətini idarə etmək beynəlxalq hüququn əsas funksiyası sayılır; alim belə hesab edir ki, müasir hüququn funksiyasına beynəlxalq münasibətləri tənzimetmə ilə bərabər, onlan idarə etmək də daxildir.^

Doğrudan da, nəzərə almaq lazımdır ki, beynəlxalq hüquq dövlətlərarası beynəlxalq münasibətləri idarə edir; buna görə də o, idarəetmə funksiyasım yerinə yetirir ki, bunu inkar etmək

**1 Мартенс Ф.Ф.Современное международное право цивилизованных народов. Том 1. СПб., 1882, С.25.**

**2 Agniel G. Droit International Public. Paris, 1998, p.8.**

**3 Международное публичное право. Учебник / Отв.ред. К.А.Бекяшев. М., 2009, с. 17-18.**

olmaz. Digər tərəfdən, unutmamalıyıq ki, beynəlxalq hüquq qlobal xarakter almış beynəlxalq münasibətləri idarəetmə sisteminin vacib elementidir. Lakin bunlar heç də belə bir fikir söyləməyə əsas vermir ki, beynəlxalq hüquq aynca olaraq və müstəqil surətdə idarəetmə funksiyasını yerinə yetirir. Məsələ burasındadır ki, beynəlxalq münasibətləri idarəetmə beynəkalq hüququn tənzimetmə funksiyasına daxildir. Başqa sözlə, beynəlxalq hüququn idarəetmə funksiyası elə onun tənzimetmə funksiyası ilə əhatə olimur. Ona görə ki, idarəetmə tənzimetmənin formalanndan biridir. Əgər dövlətlərarası beynəlxalq münasibətlər idarə olunursa, deməli, həmin münasibətlər tənzimlənir.

Beynəlxalq hüququn mühafızəetmə funksiyası dövlətlərarası sistem iştirakçılarının, xüsusən də dövlətlərin qanuni hüquq və mənafelərinin qorunmasında, onlar pozulduqda isə müdafiə edilməsində ifadə olunur; həmin funksiya dövlətlərarası sistem iştirakçıları tərəfindən hüquqazidd davranışa yol verilməsinin qarşısının alınmasına və belə davranışın aradan qaldırılmasına yönəldilmişdir.

Beynəlxalq hüquq özünün mühafızəetmə funksiyasını, əsasən, iki yolla həyata keçirir. Qadağan etmək (qadağa qoymaq) həmin yollardan biridir (məsələn, dövlətlərarası mübahisələrin zorla həll olunmasını qadağan etmək və s.); bu yolun mahiyyəti bu və ya digər hüquqazidd hərəkətin edilməsini yasaqlamaqdan ibarətdir (məsələn, bəzi silah növlərini, təcavüzkar müharibəni və s. qadağan etmək). Bununla beynəlxalq hüquq dövlətlərarası sistem iştirak- çılannm qanuni hüquq və mənafelərini mühafizə edir, beynəlxalq münasibətləri qoruyur.

İkinci yolun mahiyyəti hüquqazidd hərəkətlərin edilməsinə görə beynəlxalq-hüquqi sanksiyalar müəyyən edilməsindən ibarətdir. Beynəlxalq-hüquqi sanksiyalar (beynəlxalq hüquqda sanksiyalar) dedikdə hüquq pozımtusu törədən dövlətə qarşı tətbiq edilən hüquqauyğun məcburiyyət tədbirləri başa düşülür.'

**1 Международное право. Учебник / Отв. ред. Г.И.Тункин. М., 1982, с.217.**

Beynəlxalq-hüquqi sanksiyalar BMT-nin Nizamnaməsində nəzərdə tutulmuş və müəyyən edilmişdir. Belə ki, BMT Nizamnaməsinin 39, 41 və 42-ci maddələrinə görə. Təhlükəsizlik Şurası üç halda hərbi və qeyri-hərbi xarakterli məcburiyyət tədbiri (yəni beynəlxalq sanksiya) tətbiq edə bilər. Həmin hallara aşağıdakılar aiddir:

- sülh üçün təhlükə yarandıqda;
- sülh pozulduqda;
- təcavüzkar akt həyata keçirildikdə.

Beynəlxalq hüququn mühafizəetmə funksiyası nəinki beynəbcalq-hüquqi sanksiyalarm müəyyən edilməsi, həmçinin hüquqazidd hərəkətlər etmiş, yəni beynəlxalq hüquq pozuntusu törətmiş subyektə qarşı belə sanksiyalann bilavasitə tətbiq olunması yolu ilə yerinə yetirilir; bunun nəticəsində subyektlərin qanuni hüquqlan müdafiə edilir, zərərçəkən subyektin pozulmuş hüquqları bərpa olunur və hüquq pozuntusu törədən subyekt tərəfindən öz üzərinə düşən vəzifələrin icra edilməsi təmin olunur. Beynəlxalq-hüquqi sanksiyalar üçün tipik cəhət ondan ibarətdir ki, onlar yalnız beynəlxalq hüquq pozuntusuna cavab olaraq tətbiq edilir.'

Göstərilənlərdən başqa, beynəlxalq hüquq daha iki funksiya yerinə yetirir. Həmin funksiyalara aşağıdakılar aiddir:

- kompensasiya funksiyası;
- restitusiya funksiyası.

Beynəlxalq hüququn kompensasiya funksiyası özünün hüquqazidd beynəlxalq-hüquqi əməli nəticəsində başqa dövlətə zərər vuran dövlətin bu zərərin əvəzini tam həcmdə ödəməsində ifadə olunur. Hüquqazidd beynəlxalq-hüquqi əməl törədən dövlət həm maddi (əmlak), həm də mənəvi (qeyri-əmlak) zərəri kompensasiya etməlidir.

Beynəlxalq hüququn restitusiya funksiyası isə hüquqazidd beynəlxalq-hüquqi əməl törədilməsinə kimi mövcud olan vəziyyətin

**l Василенко В. А. Международно-правовые санкции. Киев, 1982, с.38.**

bərpa edilməsində ifadə olunur. Bir qayda olaraq, qeyri-maddi (qeyri-əmiak) hüquqlar bərpa olunur; məsələn, qanunsuz işğala son qoyulur, qanunvericilik aktı ləğv olunur və s. Bımunla yanaşı, maddi restitusiya (bərpa olunma) da həyata keçirilə bilər. Söhbət, hər şeydən əvvəl, hər hansı maddi obyektin əvvəlki vəziyyətinin hüquq pozuntusu törədən dövlət tərəfindən bərpa edilməsindən gedir. Məsələn, dövlət öz təqsiri üzündən çirkləndirdiyi suyam keyfiyyətini bərpa edir; başqa bir misalda, dövlət digər dövlətdən qanunsuz olaraq ələ keçirdiyi əmlakı (məsələn, dəniz gəmisini və s.) onun özünə qaytanr.

Beynəlxalq hüququn fünksiyalan hüquq doktrinasmda (elmində) kifayət dərəcədə tədqiq olunmayan və öyrənilməyən məsələlərdən biri sayılır. Ona görə də, beynəlxalq hüquq barədə yazan alimlər bu məsələnin hərtərəfli işıqlandınimasma lazımi diqqət yetirməlidirlər.

### 1.2.2. Beynəlxalq hüququn əhəmiyyəti

Beynəlxalq hüquq böyük əhəmi>7ətə malik olan sosial hadisədir. Belə ki, o, iqtisadi-sosial proseslərin qloballaşması dövründə beynəlxalq ictimai həyatda vacib rol oynayır.

Dövlətlərin fəaliyyət göstərmələri, eləcə də müasir dövrdə qlobal xarakter alan beynəlxalq münasibətlər sisteminin mövcud ohnası üçün sabit beynəlxalq qayda-qanun lazımdır. Sabit beynəlxalq qayda-qanun olmadan nə dövlətlər fəaliyyət göstərə, nə də beynəlxalq münasibətlər sistemi mövcud ola bilər. Bu, prinsip etibarilə, aydın və məlum olan məsələdir; bunu həm də, eyni zamanda, beynəlxalq münasibətlərin tarixi göstərir və təsdiq edir. Sabit beynəlxalq qayda-qanunun əsasmı isə məhz beynəlxalq hüquq təşkil edir; yalnız onun köməyi və vasitəsi ilə qaydaya salınmış və nizamlanmış sabit beynəlxalq birlik yaratmaq mümkündür.

Beynəlxalq hüququn rolu və əhəmiyyəti həm də bununla müəyyən olunur ki, o, əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq münasibətləri idarəetmə sisteminin vacib elementidir. Belə ki, beynəlxalq hüququn sayəsində təkcə dövlətlərarası əlaqələr deyil, bütövlükdə beynəlxalq münasibətlər idarə olunur; əks təqdirdə beynəlxalq münasibətlər sistemsiz, xaotik və qarma-qanşıq xarakter daşıyardı. Məhz beynəlxalq hüququn əsasında beynəlxalq münasibətlər sistemli şəkildə idarə olunur. Kifayət dərəcədə əminliklə deyə bilərik ki, beynəlxalq münasibətlərin, praktiki olaraq, bütün sahələrinin idarə olunmasında beynəlxalq hüququn rolu günbəgün artır.

Beynəlxalq hüquq bir dövlətin başqa dövlətə təcavüz etməsini, işğalçı müharibələr apanimasım və dövlətlərarası mübahisələrin zorla həll olunmasım qadağan edir; o, belə hərəkətləri sülh və bəşəriyyətin təhlükəsizliyi əleyhinə törədilən cinayət hesab edir. Hərbi münaqişələr, beynəlxalq terrorizmlə mübarizə, ətraf mühitin qorunması, Dünya okeanmın zəngin resurslannm mənimsənilməsi, kosmik fəzadan dinc məqsədlər üçün istifadə olunması, nüvə silahının yayılmasının qarşısının alınması və digər məsələlər beynəlxalq hüququn köməyi ilə həll olunur; həmin məsələlər, qeyd etməliyik ki, beynəlxalq hüququn tənzimetmə obyektinə daxildir. Beynəlxalq hüququn vasitəsi ilə dənizdən və hava məkanından istifadə, beynəlxalq turizm, insan hüquqlarmm beynəlxalq müdafiəsi, beynəlxalq telekommunikasiyalar, iqtisadi-təsərrüfat əhəmiyyətli yüklərin və poçtun xaricə daşınması, beynəlxalq nəqliyyata fəaliyyəti, cinayətkarlıqla beynəlxalq mübarizə və digər vacib məsələlər tənzimlənir.[1]

Beynəlxalq hüquq, istisnasız olaraq, bütün dövlətlərin suveren hüquqlanm qoruyur; bu hüquqlar pozulduqda isə beynəlxalq hüquq onlan müdafiə və bərpa edir.

Beynəlxalq hüquq hər bir ölkənin dövlət suverenliyini qoruyur. Təsadüfi deyil ki, o, suverenliyin mühafizə vasitəsi hesab edilir.

**1 Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000, s.5.**

Buna görə də, beynəlxalq hüququn sayəsində hər bir ölkə dünyada özünü təhlükəsiz hesab edir.

Beynəlxalq hüquqla hər bir dövlətin qanuni hüquq və maraqlan müdafiə olunur. İstənilən dövlət başqa dövlətlərlə qarşılıqlı münasibətlərini vahid beynəlxalq birlik çərçivəsində inkişaf etdirir. Buna görə də, beynəlxalq hüquq yalnız ayn-ayrı dövlətlərin deyil, həm də bütövlükdə beynəlxalq birliyin mənafelərini müdafiə edir, qoruyur.

Beynəlxalq hüquq gələcək nəsilləri müharibə təhlükəsindən xilas etmək məqsədinə xidmət edir; bu məqsədə çatmaq üçün onun öhdəsində və sərəncamında kifayət dərəcədə beynəlxalq- hüquqi vasitələr vardır. Beynəlxalq hüquq əsasında dünyada sülh möhkəmləndirilir, beynəlxalq təhlükəsizlik təmin olunur və ayrı- ayn sahələrdə beynəlxalq əməkdaşlıq inkişaf edir. Təsadüfi deyil ki, bunlar beynəlxalq hüququn əsas məqsədləri sayılır.

Beynəlxalq hüquq sosial proqresə və dünya xalqlarınm həyat səviyyəsinin yaxşılaşdınimasına kömək edir. Beynəlxalq hüquq vasitəsilə dövlətlər arasında dostluq münasibətləri onlann sosial, siyasi və iqtisadi sistemindən, habelə inkişaf səviyyəsindən asılı olmayaraq inkişaf edir.

Beynəlxalq hüquq təkcə dövlətlərarası münasibətlərin tənzimlənməsinə həsr olunan normalardan ibarət deyildir; o, həm də dövlətlərin ümumi mənafelərinə uyğnn olaraq, digər subyektlərin status və fəaliyyətinə aid olan normalar nəzərdə tutur. Qeyd etməliyik ki, beynəlxalq hüquqda elə normalar vardır ki, həmin normalar insan hüquq və azadhqlanna toxunur. Unutmaq olmaz ki, beynəlxalq münasibətlər yalnız bütövlükdə cəmi)ryətin ictimai həyatına deyil, həm də cəmiyyətin hər bir üzvünə təsir göstərir; həmin münasibətlər isə bu və ya digər formada beynəlxalq hüquqla tənzimlənir.

Beynəlxalq hüquq imkan verir ki, hər bir xalq öz inkişaf yolunu seçsin, iqtisadi, siyasi və hərbi təhlükəsizliyini təmin etsin; o, istənilən dövlətin milli mənafelərinə, ümumiyyətlə, bütövlükdə bəşəriyyətin maraqlanna cavab verən hüquq kimi tanmır.

Beynəlxalq hüququn nizamasalma predmeti günbəgün genişlənir; buraya beynəlxalq münasibətlərin yeni sahələri daxil olur. Hətta, ənənəvi olaraq, dövlətdaxili (milli) hüquq çərçivəsində tənzimlənən bir sıra məsələ (məsələn, insan hüquqları, dövlət ərazisindən təsərrüfat məqsədləri üçün istifadə və s.) artıq beynəbcalq hüquq müstəvisində və kontekstində həll olunur.

Beynəlxalq hüququn köməyi ilə, əsasən, ciddi xarakterli qlobal beynəlxalq problemlər (təhlükəsizlik məsələləri, narkobiznes və terrorizmlə mübarizə, iqtisadi əhəmiyyətli məsələlər, transmilli mütəşəkkil cinayətkarlıqla mübarizə, beynəlxalq münaqişələr, mali}^'ə böhranı və s.) həll edilir.

1995-ci ildə Nyu-York şəhərində birinci ümumdünya beynəlxalq hüquq konfransı' keçirilmişdir; həmin konfrans beynəlxalq hüququn rolu və əhəmiyyətini belə müəyyən etmişdir: beynəlxalq hüquq beynəlxalq ünsiyyət dilidir.

### 1.2.3. Beynəlxalq hüququn xüsusiyyətləri

Beynəlxalq hüququn əsas xüsusiyyətləri dedhikdə onun xarakterik cəhətləri başa düşülür. Başqa sözlə, beynəlxalq hüququ xarakterizə edən əlamətlər onun əsas xüsusiyyətləri hesab olunur; spesifik xarakterə malik olan həmin əlamətlər məhz beynəlxalq hüquqa xasdır. Odur ki, belə əlamətlər beynəlxalq hüququ dövlətdaxili (milli) hüquqdan fərqləndirməyə imkan verir.

Beynəlxalq hüququn birinci əsas xüsusiyyəti ondan ibarətdir ki, o, bütün dövlətlər üçün ümumidir. Belə ki, beynəlxalq hüququn tərkibinə həm də elə hüquq normaları daxildir ki, bu normalar bütün dövlətlər (və ya onlann əksəriyyəti) üçün vahid olub, məcburi xarakter daşıyır. Buna görə onlar hamılıqla qəbul olumuş və ya universal hüquq normaları adlanır. Universal hüquq norraalanna dünyamn bütün dövlətləri əməl edirlər; belə normalar

**URL:http://www'.kontrolnaja.ru**

bütün dünya dövlətləri üçün məcburidir. Digər tərəfdən, beynəlxalq hüquq bir sıra hamılıqla qəbul olunmuş prinsipə (ümumtanınmış prinsipə) malikdir ki, həmin prinsiplərə də bütün dünya dövlətləri riayət etməlidirlər (kitabın fəsillərindən biri, xüsusi olaraq, məhz beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsiplərinə həsr olunmuşdur). Qeyd etməliyik ki, beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri universal hüquq normaları ilə birlikdə onun əsas məzmununu xarakterizə edir. Bu mənada beynəlxalq hüquq bütün dünya dövlətləri üçün ümumi olub, «universal (ümumi) beynəlxalq hüquq» anlayışı ilə əhatə edilir. Bununla beynəlxalq hüquq dövlətdaxili (milli) hüquqdan fərqlənir. Belə ki, bildiyimiz kimi, hər bir dövlətin öz daxili (milli) hüququ vardır. Təbii ki, müxtəlif dövlətlərin daxili (milli) hüquqlan (məsələn, Fransa Respublikasınm daxili hüququ, Türkiyə Respublikasınm daxili hüququ, Azərbaycan Respublikasının daxili hüququ və s.) bütün dünya ölkələri üçün ümumi ola bilməz. Bu, sübuta ehtiyacı olmayan məlum məsələdir.

Beynəlxalq hüququn bütün dünya dövlətləri üçün ümumi olması «sivil xalqlann beynəlxalq hüququ» kimi diskriminasiya xarakterli konsepsiyaya ziddir. Bu konsepsiya beynəlxalq hüquq tarixinin klassik dövründə irəli sürülmüşdü; həmin konsepsiyaya görə, yalnız «sivil xalqlar» beynəlxalq birliyə aid ola bilərdilər; zəif inkişaf etmiş ölkələr isə bərabərhüquqlu qarşılıqlı münasibətlərdən təcrid olunmuşdu. Hal-hazırda isə göstərilən konsepsiyadan tam şəkildə imtina olunmuşdur. Belə ki, müasir dövrdə beynəlxalq hüquq həm inkişaf etmiş, həm inkişaf etməkdə olan, həm də az (zəif) inkişaf etmiş dövlətlər üçün ümumi olan hüquqdur. Deyilənləri bununla təsdiq edə bilərik ki, BMT-nin Nizamnaməsi beynəlxalq hüququn əsası sayılır; həmin sənədə görə, bütün sülhsevər dövlətlər BMT-nin üzvü ola bilər. Bu gün dünyanın istənilən müstəqil dövlətinin beynəlxalq birlikdə iştirak etməsi mümkündür; müasir dövrdə bütün maraqlı dövlətlər beynəlxalq əməkdaşlığın həyata keçirilməsində, eləcə də beynəlxalq müqavilələrin bağlanmasında iştirak edə bilərlər.

Universal (ümumi) beynəlxalq hüququ partikulyar beynəlxalq hüquqdan fərqləndirmək lazımdır. Beynəlxalq hüquq universal normalardan başqa, həm də lokal normalardan ibarətdir. Lokal normalar dedikdə müəyyən qrup dövlətlərə və yaxud iki və ya daha artıq dövlətə aid olan, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdə nəzərdə tutulan normalar başa düşülür. Məhz belə normalann sisteminə partikulyar beynəlxalq hüquq deyilir; partikulyar beynəlxalq hüquq bütün dünya dövlətləri üçün deyil, yalnız bu və digər region dövlətləri, yaxud iki və ya daha artıq dövlət üçün məcburidir.

Beynəlxalq hüququn ikinci əsas xüsusiyyəti ondan ibarətdir ki, o, yalnız hakimiyyət xarakterli, yəni dövlətlərarası (hakimiy- yətlərarası) beynəlxalq münasibətləri tənzimləyir. Bu xüsusiyyəti ilə də o, dövlətdaxili (milli) hüquqdan fərqlənir. Belə ki, dövlətdaxili (milli) hüquq həmin dövlətin daxilində yaranan ictimai münasibətləri (məsələn, konstitusiya münasibətlərini, maliyyə münasibətlərini, inzibati münasibətləri, mülki münasibətləri, cinayət münasibətlərini və s.) tənzimləyir. Qeyd etmək lazımdır ki, beynəlxalq hüquq dövlətdaxili (milli) hüququn nizamasalma predmetinə daxil olan ayn-ayrı ictimai münasibətləri beynəlxalq-hüquqi tənzimləməyə qadir deyildir; dövlətdaxili (milli) hüquq da, öz növbəsində, beynəlxalq hüququn nizamasalma predmetinə aid olan dövlətlərarası beynəlxalq münasibətləri tənzimləmək iqtidarında deyildir.

Beynəlxalq hüququn üçüncü əsas xüsusiyyəti bundan ibarətdir ki, onun subyekti qismində yalnız dövlətlərarası beynəlxalq münasibətlər sisteminin iştirakçılan, başqa sözlə, hakimiyyət xarakterli beynəlxalq münasibətlərin iştirakçıları çıxış edə bilərlər; hansı qurum belə münasibətlərdə iştirak edə bilərsə, o, beynəlxalq hüququn subyekti sayılır. Dövlətdaxili (milli) hüququn subyektlərinə gəldikdə isə, qeyd etməliyik ki, həm hakimiyyət səlahiyyətinə malik olan qurumlar (məsələn, dövlət, dövlət orqanlan, bələdiyyə, bələdiyyə orqanlan və s.), həm də hakimiyyət səlahiyyətinə malik olmayan qurumlar (məsələn, fiziki şəxslər, hüquqi şəxslər) dövlətdaxili (milli) hüququn subyekti ola bilərlər. Beynəlxalq hüququn

subyektləri isə yalnız dövlət hakimiyyəti səlahiyyətinə malik olan qurumlardır.

Beynəlxalq hüququn yaradılma prosesi onun dördüncü əsas xüsusiyyəti hesab olunur; bu xüsusiyyət də onu dövlətdaxili (milli) hüquqdan fərqləndirməyə imkan verir. Beynəlxalq hüquq, daha doğrusu, beynəlxalq hüququn ibarət olduğu beynəlxalq hüquq normalan dövlətlərarası beynəlxalq münasibətlər sisteminin əsas iştirakçılanmn (söhbət beynəkalq hüququn əsas subyektlərindən gedir) iradə ifadəsi əsasında yaradılır. Belə ki, beynəlxalq hüquq normalanm, əsasən, dövlətlər işləyib hazırlayır və qəbul edirlər; həmin normalar dövlətlər arasında bağlanan beynəlxalq müqavilələrin vasitəsi və köməyi ilə yaradılır. Dövlətdən başqa, beynəkalq hüquq normalarmın yaradılmasında dövlətlərarası beynəkalq təş- kilatlann da rolu qeyd edilməlidir.

Milli hüquq normalan, adətən, xüsusi olaraq təsis edilmiş qanunvericilik orqanı tərəfindən yaradılır. Beynəlxalq hüquq praktikasında belə orqan mövcud deyil və ümumiyyətlə, təsis edilməmişdir.

Dövlətdaxili (milli) hüququn yaradılması prosesinə gəldikdə, qeyd etmək vacibdir ki, dövlətdaxili (milli) hüququn ibarət olduğu hüquq normaları həmin dövlətin qanunvericilik hakimiyyəti tərəfindən yaradılır; qanunvericilik hakimiyyətini isə, xüsusi olaraq təsis edilmiş ali qanunverici orqan — parlament həyata keçirir.

Beynəkalq hüququn beşinci əsas xüsusiyyəti onun mənbəyinə aiddir. Beynəlxalq müqavilə və beynəlxalq-hüquqi adətlər onun əsas mənbə növləridir. Dövlətdaxili (milli) qanunvericilik aktlan beynəlxalq hüququn mənbəyi ola bilməz.

Dövlətdaxili (milli) hüququn mənbəyinə gəldikdə isə, qeyd etməliyik ki, normativ-hüquqi aktlar (qanunlar və qanunqüwəli aktlar) dövlətdaxili (milli) hüququn əsas mənbə növüdür; hüquqi adətlər də onun mənbə növü kimi tanmır. Hər bir dövlətin əsas qanunu olan Konstitusiya dövlətdaxili (milli) hüququn normativ əsası və bazası sayılır. Beynəlxalq hüququn isə «konstitusiya»

kimi normativ əsası və bazası yoxdur. Belə ki, dövlətlərarası sistemdə indiyədək hər hansı «konstitusiya» qəbul edilməmişdir.

Beynəlxalq hüququn altmcı əsas xüsusiyyəti ona əməl olunmasını təmin edən beynəlxalq-hüquqi məcburetməyə malik olmasıdır. Bir qayda olaraq, beynəlxalq hüquqa, başqa sözlə, beynəlxalq hüquq normalarma dövlətlərarası beynəlxalq münasibətlər sisterninin iştirakçılan könüllü surətdə əməl edirlər; əgər bu, mümkün olmazsa, onda beynəlxalq-hüquqi məcburetmə tədbirləri tətbiq olunur. Məqsəd beynəlxalq hüquq normalarına əməl olunmasını təmin etməkdən ibarətdir. Belə tədbirlər yalnız o halda tətbiq oluna bilər ki, beynəbcalq hüquq normalan pozulsun. Lakin dövlətlararası sistemdə xüsusi məcburetmə orqanlan mövcud deyil və yoxdur ki, beynəlxalq hüquq normalanna əməl olunmasını təmin etsinlər, Dövlətdaxili sferada belə orqanlar (məhkəmə, prokurorluq, polis və s.) vardır; məhz həmin orqanların köməyi və vasitəsi ilə dövlətdaxili (milli) hüquq normalanna əməl olunması təmin edilir.

Beynəlxalq-hüquqi məcburetmə hüquq pozuntusu törədən subyektə beynəlxalq-hüquqi sanksiyalar tətbiq edilməsini nəzərdə tutur; bu sanksiyaların vasitəsi ilə beynəlxalq hüququn subyektləri törədilmiş beynəlxalq hüquq pozuntusuna cavab verirlər.' Dövlət beynəlxalq-hüquqi sanksiyanı fərdi və ya kollektiv surətdə tətbiq edə bilər; belə sanksiyaların tətbiqi BMT-nin Təhlükəsizlik Şurasının və ya Baş Assambleyasının qərarlannda da nəzərdə tutula bilər.

## 1.3. Beynəlxalq hüququn sistemi

### 1.3.1. Beynəlxalq hüququn sistemi anlayışı

Obyektiv mənada beynəlxalq hüquq çoxsaylı, məzmunca müxtəlif beynəlxalq hüquq nonnalanndan ibarətdir; bu normalann

**1 BacHJiCHKO B.A. MexmyHaponHO-npaBOBtıe caHKUHH. KH6B, 1982, c.38.**

köməyi və vasitəsilə beynəlxalq hüquq öz nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyir.

Beynəlxalq hüquq normalan xaotik və qarma-qarışıq şəkildə yerləşmirlər, əksinə, onlar nizamla, qaydaya salınmış şəkildə və müəyyən ardıcıllıqla düzlənirlər. Beynəlxalq hüquq normalannm bu cür düzümünə hüquq elmində beynəlxalq hüququn sistemi deyilir. Beynəlxalq hüququn sistemi onu ifadə edir ki, beynəlxalq hüquq çoxsaylı və müxtəlif beynəlxalq hüquq normalannm təsadüfi yığımından ibarət deyildir; o, özündə daxilən vəhdətdə və bir-biri ilə qarşılıqlı dialektik əlaqədə olan beynəlxalq hüquq normalarını birləşdirir.

Beynəlxalq hüququn sistemi dedikdə beynəlxalq hüquq normalarının vəhdətində və qarşılıqlı dialektik əlaqəsində, həmin normaların hüquq institutlan, yarımsahələr və müstəqil hüquq sahələri üzrə nizamla düzlənməsində ifadə olunan daxili quruluşu başa düşülür.

«Beynəlxalq hüququn sistemi» tematikası hüquq ədəbiyyatında az yazılmış və tədqiq olunmuş mövzulardan biridir.' Beynəlxalq hüquqa dair müasir dərsliklərdə bu mövzunun geniş və əhatəli şəkildə işıqlandınimasına, demək olar ki, rast gəlmirik.^ Bəzi beynəlxalq hüquq dərsliklərində həmin mövzuya ümumiyyətlə toxunulmur.^ «Beynəlxalq hüququn sistemi» mövzusu beynəlxalq hüquq doktrinasında da kifayət dərəcədə tədqiq edilməmiş və öyrənilməmişdir.

1 ***Bu mövzuya toxunan əsər barədə bax:*** **Фельдман Д.И. Система международного права. Казань, 1983.**

2 ***Məsələn, bax:*** **Международное право. Учебник / Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. М., 2009, с.44; Международное право. Учебник / Отв. ред. А.Л.Ковалев, С.В.Черниченко. М., 2008, с.30-33. Международное право. Учебник / Отв. ред. Ю.М. Колосов, Э.С.Кривчикова. М., 2000, с.14-15** və s.

3 ***Məsələn, bax:*** **Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997; Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009 və Ь.**

Beynəlxalq hüququn sistemi üçün bir neçə əlamət səciyyəvidir; məhz bu əlamətlər beynəlxalq hüququn sistemini xarakterizə etməyə imkan verir.

Birinci, beynəlxalq hüququn sistemi obyektiv olaraq mövcud olan sosial-hüquqi hadisədir və buna görə də, o, obyektivliyi ilə xarakterizə olunur. Bu o deməkdir ki, beynəlxalq hüququn sistemi ayn-ayrı fiziki şəxslərin subyektiv mülahizəsi, şəxsi istəyi, fərdi düşüncəsi və şüuru əsasında formalaşmır. Əksinə, beynəlxalq hüququn sistemi real surətdə mövcud olan gerçək dövlətlərarası beynəlxalq münasibətlər sistemi ilə müəyyən olunur və şərtlənir. Belə ki, məhz həmin sistemin obyektiv qanunauyğunluqlan əsasında və təsiri altında beynəlxalq hüququn sistemi yaranır. Buna görə də, beynəlxalq hüququn sistemi obyektiv əsasa və təmələ malikdir. Bunu nəzərə alaraq, bir sıra müəllif düzgün olaraq göstərir ki, beynəlxalq hüququn sistemi obyektiv xarakter daşıyır.'

Beynəlxalq hüququn sistemi mürəkkəb xarakterli elə bir sosial-hüquqi hadisədir ki, bu hadisə obyektiv qanunauyğımluqlan normativ formada ifadə edir. Hüquq sisteminin normativ forması, bir qayda olaraq, əsas və vacib sayılan konkret bir normativ hüquqi aktla müəyyən olunur. Ayrı-ayn ölkələrin hüquq sistemində belə akt qismində, adətən, konstitusiya çıxış edir. Beynəlxalq hüququn sisteminin normativ forması isə konstitusiya ilə müəyyənləşdirilmir. Ona görə ki, dövlətlərarası beynəlxalq münasibətlər sistemində «konstitusiya» kimi hüquqi akt mövcud deyildir. Hələ indiyə kimi dövlətlərin beynəlxalq birliyi üçün müvafiq konstitusiya qəbul edilməmişdir.

İkinci, beynəlxalq hüququn sistemi vahid, tam və bütöv sosial-hüquqi hadisədir. Belə ki, beynəlxalq hüquq daxilən, üzvi cəhətdən vahid, tam və bütöv olması ilə xarakterizə olunur. Ona görə ki, o, bir-biri ilə qarşılıqlı dialektik əlaqədə və vəhdətdə olan beynəlxalq hüquq normalarından təşkil olunmuşdur. Təsadüfi deyil ki.

**1** ***Məsələn, bax:*** **Курс международного права. Том 1. М., 1989, с.242.**

beynəlxalq hüququn sistemi üçün beynəlxalq hüquq normalannın vəhdəti və qarşılıqlı əlaqəsi xarakterikdir; həmin normalar eyni təyinata malik olub, vahid məqsədə, yəni dövlətlərarası beynəlxalq münasibətləri tənzimləmək məqsədinə xidmət edir.

Üçüncü, beynəlxalq hüququn sistemi özündə beynəlxalq hüququn müxtəlif struktur elementlərini birləşdirən sosial-hüquqi hadisədir. Belə ki, beynəlxalq hüququn sistemi belə bir suala cavab verir: tam və bütöv olan beynəlxalq hüquq hansı struktur elementlərdən təşkil olunmuşdur və bu elementlər arasında qarşılıqlı əlaqə necədir?

Beynəlxalq hüququn struktur elementləri dedikdə, onun daxili qumluşuna aid olan tərkib hissələri başa düşülür. Həmin elementlər bunlardan ibarətdir:

- hüquq sahəsi;
- hüquq yarımsahəsi;
- hüquq institutu;
- beynəlxalq hüquq normaları.

Beynəlxalq hüquq müstəqil hüquq sahələrinə, hüquq sahələri yanmsahələrə, yanmsahələr institutlara, institutlar isə, öz növbəsində, beynəlxalq hüquq normalanna bölünür. Buna görə də, beynəlxalq hüquq ayn-ayn sahələrdən, yanmsahələrdən, hüquq mstitutlanndan və hüquq normalanndan təşkil olunmuşdur.

Beynəlxalq hüququn struktur elementləri onun ayrılmaz tərkib hissəsidir. Beynəlxalq hüquqla onun struktur elementləri arasındakı münasibət fəlsəfi planda «tam» və onun «hissələri» arasındakı əlaqə kimidir. Fəlsəfi nöqteyi-nəzərdən «tam»ı onu təşkil edən «struktur element»lərsiz təsəvvür etmək qeyri-mümkündür; ayrı- ayn «struktur element»lər də, öz növbəsində, «tam»sız öz funksiyasını müstəqil surətdə yerinə yetirə bilməz.

Beynəlxalq hüquq norması beynəlxalq hüquq sisteminin ilkin struktur elementi sayılır; onlar eyninövlü dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyir. Eyninövlü münasibətləri tənzimləyən

beynəlxalq hüquq normalan birləşərək hüquq institutlanm, hüquq institutlan birləşərək yarımsahələri, yanmsahələr birləşərək hüquq sahələrini formalaşdırır.

Beynəlxalq hüququn sistemi onun bir-biri ilə daxilən qarşılıqlı əlaqədə olan struktur elementlərinin bütövlüyü deməkdir; obyektiv xarakter daşıyan bu bütövlüyün əsasında beynəlxalq hüquq normalarının nizamla və qaydaya salınmış halda düzlənməsi, başqa sözlə, onlann sistemli şəkildə yerləşməsi durur. Beynəlxalq hüquq normalarının sistemli şəkildə yerləşməsinin isə, ilk növbədə, nəzəri əhəmiyyəti vardır. Sistemli şəkildə yerləşmənin həm də beynəlxalq hüquq normayaradıcılığı, habelə hüquqtətbiqetmə prosesi üçün praktiki əhəmiyyəti vardır. Belə ki, əgər beynəlxalq hüquq normalan müəyyən sistem üzrə yerləşərsə, praktikada tətbiq edilməli olan nonnalan seçmək və müəyyənləşdirmək, təbii ki, asandır. Əksinə, beynəlxalq hüquq normalan xaotik halda yerləşərsə, onda tətbiq edilməli olan normaları müəyyənləşdirmək son dərəcə çətinlik yaradacaqdır.

«Beynəlxalq hüququn sistemi» anlayışını «beynəlxalq hüquq müstəqil hüquq sistemi kimi» anlayışı ilə qanşdırmaq olmaz; on- lan bir-brindən fərqləndirmək lazımdır. Belə ki, birinci halda söhbət beynəlxalq hüquq normalannm sistemli şəkildə yerləşməsindən, ikinci halda isə dünyada mövcud olan iki müstəqil hüquq sisteminin birindən, yəni beynəlxalq hüquqdan gedir. Əvvəllərdə qeyd etdiyimiz kimi, beynəlxalq hüquq müxtəlif ölkələrin daxili (milli) hüquq sistemləri ilə paralel olaraq, mövcud olan müstəqil hüquq sistemidir.

Beynəlxalq hüququn sistemi daim inkişafda olması ilə xarakterizə edilir. Belə ki, dövlətlərarası münasibətlər, yəni beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq əlaqələr genişləndikcə, beynəlxalq hüququn sistemi də inkişaf edir. Məlum məsələdir ki, dövlətlərarası münasibətlərin inkişafı beynəlxalq hüququn sisteminə təsir göstərməyə bilməz. Buna görə də beynəlxalq hüququn sisteminin inkişafi dövlətlərarası münasibətlərin inkişafından asılıdır. Bu səbəbdən beynəlxalq hüququn bu gün

mövcud olan sistemi dövlətlərarası beynəlxalq münasibətlərin uzunmüddətli tarixi inkişaf prosesində fonnalaşmışdır; həmin münasibətlərin hər bir tarixi inkişaf mərhələsi beynəlxalq hüququn sisteminə öz təsirini göstərmişdir. Xüsusən də BMT Nizamnaməsinin qəbul olunmasından sonra beynəlxalq hüququn yeni sistemi formalaşmışdır. Belə ki, həmin sənəd qəbul olunana kimi XIX əsrdə və XX əsrin əvvəllərində beynəlxalq hüquq, ənənəvi olaraq, aşağıdakı sahələrə bölünürdü: sülh hüququna, müharibə və ney- tralitet hüququna, səfirlik və konsulluq hüququna. BMT-nin Nizamnaməsi qəbul olunduqdan sonra isə bu kimi ənənəvi bölgüdən imtina olundu, beynəlxalq hüququn yeni struktur elementləri, xüsusilə də yeni sahələri yaranmağa başladı.

Bu gün beynəlxalq hüququn sisteminin qəti surətdə formalaşması barədə birmənalı fikir söyləmək olmaz. Belə ki, beynəlxalq hüquqim sisteminin formalaşması prosesi hələ başa çatmamışdır və indi də davam edir. Bu onunla izah edilir ki, beynəlxalq hüququn özü qanunauyğun proses kimi inkişaf edir və bu prosesin dayan- dmlması qeyri-mümkündür. Beynəlxalq hüququn sistemi qurularkən məhz beynəlxalq hüququn inkişafı nəzərə alınır.'

## L3.2. Beynəlxalq hüququn ümumi hissəsi

Beynəlxalq hüququn ibarət olduğu və onu təşkil edən beynəlxalq hüquq normaları xarakter baxımından, məzmun cəhətdən, eləcə də əhəmiyyət nöqteyi-nəzərindən eyni deyildir. Belə ki, beynəlxalq hüquq normaları arasında elələri (məsələn, beynəlxalq hüququn subyektlərinə aid olan normalar, beynəlxalq-hüquqi məsuliyyət barədə normalar və s.) vardır ki, onlar beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan bütün münasibətləri və ya həmin

**1 Левин Д.Б. Актуальные проблемы теории международного права. М., '1974,0.79.**

münasibətlərin əksəriyyətini tənzimləmək xüsusiyyətinə malikdir. Ona görə ki, beynəlxalq hüququn nizamasalma predmetini təşkil edən münasibətlər eynicinslidir. Beynəlxalq hüquq normalan arasında həm də elələri vardır ki, onlar beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan münasibətlərin yalnız ayn-ayn növlərini (məsələn, dövlətlərarası beynəlxalq iqtisadi münasibətləri, diplomatiya və konsulluq münasibətlərini, dövlətlərarası ekologiya münasibətlərini və s.) tənzimləmək məqsədinə xidmət edir. Bu baxımdan, beynəlxalq hüququ iki hissəyə bölmək məqsədəuyğundur (necə ki, dövlətdaxili hüququn ayn-ayn müstəqil sahələri, məsələn, maliyyə, inzibati, cinayət, mülki və digər hüquq sahələri də bölünür):

- ümumi hissə;
- xüsusi hissə.

Beynəlxalq hüququn ümumi hissəsi dedikdə istənilən dövlətlərarası beynəlxalq münasibət tənzimlənərkən tətbiq oluna bilən beynəlxalq hüquq normalarının sistemi başa düşülür; beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan münasibətlərin hamısına «ümumi hissə» normalarını tətbiq etmək mümkündür. Belə ki, beynəlxalq hüququn ümumi hissəsinə aid edilən normalar beynəlxalq hüququn bütün struktur elementləri (sahələri, yanmsahələri və institutlan) üçün ümumi əhəmiyyətə malikdir.

Beynəlxalq hüququn ümumi hissəsi beynəlxalq hüquq institutlanndan ibarətdir; onlar beynəlxalq hüquq üçün ümumi institut sayılır. Belə ki, beynəlxalq hüququn ümumi hissəsinin institutlan bütövlükdə beynəlxalq-hüquqi tənzimetmə mexanizmi üçün əhəmiyyətlidir. Həmin institutlar bunlardan ibarətdir;

- beynəlxalq hüququn əsas prinsipləri institutu;
- beynəlxalq hüquq subyektliyi institutu;
- beynəlxalq-hüquqi məsuliyyət institutu;
- beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutu və s.

Göstərilən beynəlxalq hüquq institutlarının elmi (doktrinal) anlayışını formula etməmişdən əvvəl belə bir suala cavab verməyə çalışaq: beynəlxalq hüquq institutu dedikdə nə başa düşülür?

Əvvəllərdə göstərdiyimiz kimi, beynəlxalq hüquq institutu beynəlxalq hüququn struktur elementlərindən biridir; bir neçə beynəlxalq hüquq institutu birləşərək beynəlxalq hüququn daha böyük və iri struktur elementlərini (məsələn, beynəlxalq hüququn ümumi hissəsini, beynəlxalq hüququn yanmsahəsini, beynəlxalq hüququn sahələrini) əmələ gətirir. Beynəlxalq hüquq institutu isə özü beynəlxalq hüquq normalanndan ibarətdir; bu normalar bilavasitə deyil, məhz beynəlxalq hüquq institutlan vasitəsilə beynəlxalq hüququn daha böyük və iri struktur elementlərini forma- laşdınr.

Beynəlxalq hüquq institutu dedikdə beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq münasibətlərin bu və ya digər sahəsini tənzimləyən eyninövlü hüquq normalarının qrupu (kompleksi) başa düşülür. Beynəlxalq hüququn bu struktur elementi özündə beynəlxalq münasibətlərin müəyyən növünün yalnız bir hissəsini nizama salan hüquq normalanm birləşdirir. Məsələn, diplomatiya hüququ kimi beynəlxalq hüquq institutu diplomatiya münasibətlərini tənzimləyən beynəlxalq hüquq normalarından ibarətdir; diplomatiya münasibətləri isə xarici əlaqələr üzrə beynəlxalq münasibətlərin (xarici əlaqələr üzrə münasibətlər beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq münasibətlərin bir növüdür) yalnız bir hissəsidir.

Beynəlxalq hüququn əsas prinsipləri institutu dedikdə beynəlxalq hüquq normalarının elə qrupu (kompleksi) başa düşülür ki, bu normalarda beynəlxalq hüququn əsas prinsipləri hüquqi cəhətdən təsbit olunur və formulə edilir; həmin normalar ümumi məzmuna malik olub bütövlükdə beynəlxalq hüquq üçün əsas ideyalar və rəhbər başlanğıclar müəyyənləşdirir. Buna görə də, onlar beynəlxalq- ***hüquqi*** tənzimetmə mexanizmində vacib rol oynayır.

Göstərilən beynəlxalq hüquq institutunun böyük əhəmiyyəti vardır. Belə ki, həmin institut beynəlxalq hüququn təməli və

özəyi sayılan əsas prinsipləri tənzimləyir; beynəlxalq hüququn əsas prinsipləri isə beynəlxalq münasibətlərin ən vacib, həyati, demək olar ki, taleyüklü məsələlərinə aiddir.*

Beynəlxalq hüquq subyektliyi institutu dedikdə elə normalar qrupu (kompleksi) başa düşülür ki, bu normalar beynəlxalq hüququn subyektlərinin hüquqi vəziyyətini və beynəlxalq statusunu, onlann dövlətlərarası beynəlxalq münasibətlərin iştirakçısı olmaq qabiliyyətini tənzimləyir. Beynəlxalq hüququn subyektləri beynəlxalq hüquqla tənzimlənən ictimai münasibətlərin tərəfləridir.^ Göstərilən beynəlxalq hüquq institutu bütövlükdə subyektləri bu münasibətlərdə tərəf kimi iştirak etmələri üçün beynəlxalq hüquq subyektliyi ilə təmin edir;^ həmin institutun vacib əhəmiyyətə malik olması da məhz bununla müəyyən edilir.

Beynəlxalq-hüquqi məsuliyyət institutu dedikdə elə normalar qrupu (kompleksi) başa düşülür ki, bu normalar beynəlxalq hüquq subyektlərinin məsuliyyət daşımalan ilə bağlı yaranan beynəlxalq münasibətləri (beynəlxalq məsuliyyət münasibətlərini) tənzimləyir. Beynəlxalq hüququn ümumi hissəsinə aid olan bu institutun böyük əhəmiyyətə malik olması şəksizdir və bunun, xüsusi olaraq, sübut olunması tələb edilmir. Təkcə bunu demək kifayətdir ki, beynəlxalq hüquq məsuliyyəti beynəlxalq hüquq normalarına əməl olunmasım təmin edən və pozulmuş beynəlxalq münasibətləri bərpa edən zəruri hüquqi vasitədir; o, beynəlxalq hüququn öz funksiyasını lazımınca yerinə yetirməsinin qarantı, beynəlxalq münasibətləri hüquqi tənzimetmənin xüsusi aləti sayılır.

Göstərilən institut beynəlxalq hüquq məsuliyyətinin əsasını və şərtlərini, onun forma və növlərini, hüququyğun fəaliyyətə görə məsuliyyəti, beynəlxalq hüquq məsuliyyətinin həyata keçirilməsini

**1 Де Аречага Э.Х. Современное международное право / Пер. с йен. М., 1983,с.135.**

**2 Курс междзн1ародного права. Том 1. М., 1989, с. 159.**

**3 Фельдман Д.И., Курдюков Г.И. Основные тенденции развития международной правосубьектности. Казань, 1974.**

və digər məsələləri tənzim edir; ona həm də beynəlxalq məsuliyyət hüquq institutu deyilir.'

Beynəlxalq mübahisələri dinc vasitələrlə həlletmə hüquq institutu dedikdə beynəlxalq hüquq normalarının elə bir qrupu (kompleksi) başa düşülür ki, bu normalar beynəlxalq münaqişə və ixtilaflann həlli qaydalannı müəyyənləşdirir; bu instituta görə, hər bir dövlət və beynəlxalq hüququn digər subyektləri öz aıalannda yaranan mübahisələri dinc xarakterli beynəlxalq-hüquqi vasitələrin (beynəlxalq danışıqlar, məsləhətləşmə, barışdırıcı komissiya, vasitəçilik və s.) köməyi ilə elə həll etməlidirlər ki, beynəlxalq sülh, təhlükəsizlik və ədalət üçün təhlükə yaranmasın; özü də onlar mübahisələri mahiyyətcə və vaxtında həll etməlidirlər.^

Bəzi müəlliflər beynəlxalq müqavilə hüququ institutunu da beynəlxalq hüququn ümumi hissəsinə aid edirlər. Digər alimlərin mövqeyincə isə, beynəlxalq müqavilə hüququ beynəlxalq hüququn xüsusi hissəsinə daxildir. Bu (sonuncu mövqe), hüquq ədəbiyyatında kifayət dərəcədə geniş yayılmış fikirdir. Müəlliflərin böyük əksəriyyəti məhz bu fikri dəstəkləyirlər. Biz də həmin mövqeyin tərəfdanyıq. Belə ki, beynəkalq hüququn xüsusi hissəsi beynəlxalq münasibətlərin ayn-ayrı konkret növlərini (məsələn, beynəlxalq iqtisadi münasibətləri, xarici əlaqələr üzrə münasibətləri, beynəlxalq ekologiya münasibətlərini və s.) tənzimləyir və həmin münasibətləri nizama salan beynəlxalq hüquq normalarından təşkil olunmuşdur. Beynəlxalq müqavilə münasibətləri isə beynəlxalq münasibətlərin konkret növlərindən biridir. Buna görə də, həmin münasibətləri (yəni beynəlxalq müqavilə münasibətlərini) tənzimləyən normaların sistemindən ibarət olan beynəlxalq müqavilə hüququ beynəlxalq hüququn ümumi hissəsinin deyil, xüsusi hissəsinin struktur elementi, tərkib hissəsi hesab edilməlidir.

1 ***Daha atrafh:*** **Лукашук И.И. Право международной ответственности. М., 2004.**

2 **Пушмин Э.А. Мирное разрешение международных споров. М., 1974, с. 10-11.**

Beynəlxalq hüququn ümumi hissəsi vacib hüquqi əhəmiyyətə malikdir; o, beynəlxalq hüququn nizamasalma predmetinin eyniliyini əks etdirir, beynəlxalq hüquqa aid bütün normalan birləşdirən halqa rolunu oynayır. Bunun nəticəsində isə hüquqi məzmunca həmin normaların ümumiliyi təmin olunur.

Beynəlxalq hüququn ümumi hissəsi bir tərəfdən imkan verir ki, beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan və öz təbiətinə görə bir-birinə oxşayan beynəlxalq münasibətlərin hüquqi tənzimiənməsindəki müxtəliflik və uyğunsuzluq aradan qaldınisın. Digər tərəfdən, ümumi hissə dövlətlərarası beynəlxalq əməkdaşhğın ayn-ayn sahələrində (məsələn, iqtisadi, ekologiya, kosmos, hava məkanı, dəniz, xarici əlaqələr və digər sahələrdə) yaranan beynəlxalq münasibətlərin bir şəkildə və eyni cür hüquqi tənzimlənməsini təmin edir. Buna görə, yəni dövlətlərarası beynəlxalq münasibətlərin hüquqi tənzimlənməsinin eyni şəkildə həyata keçirilməsini təmin etdiyinə görə beynəlxalq hüququn ümumi hissəsinə, obrazlı şəkildə, necə deyərlər, «minnətdarlıqla» yanaşılmalıdır.

Beynəlxalq hüququn ümumi hissəsinin əhəmiyyəti həm də bundan ibarətdir ki, o, beynəlxalq hüququn xüsusi hissəsinin ay- rı-ayn struktur elementlərində (hissələrində) hüquq normalanmn lazımsız təkrarlanmasının qarşısım alır. Belə ki, beynəlxalq hüququn xüsusi hissəsinin ayrı-ayn struktur elementləri (hissələri) ilə tənzimlənən beynəlxalq münasibətlərin bu və ya digər növünün (məsələn, beynəlxalq iqtisadi münasibətlərin, beynəlxalq ekologiya münasibətlərinin, beynəlxalq hava münasibətlərinin və s.) pozulmasına görə subyektlər beynəlxalq-hüquqi məsuliyyət daşıyırlar; belə struktur elementlərin hər birində beynəlxalq-hüquqi məsuliyyəti tənzimləməkdən ötrü, aynca olaraq, müvafiq beynəlxalq hüquq normalan nəzərdə tutmaq lazım gəlmir və tələb edilmir. Ona görə ki, beynəlxalq hüququn ümumi hissəsinin «beynəlxalq hüquq məsuliyyəti» kimi institutu vardır və bu institut özündə beynəlxalq hüququn bütün struktur elementləri (hissələri) üçün ümumi əhəmiyyətə malik olan normalan birləşdirmişdir. Məhz

bu normalann köməyi ilə beynəlxalq münasibətlərin hansı növünün pozulmasından asılı olmayaraq, beynəlxalq-hüquqi məsuliyyət tənzimlənir. Bu sözləri eləcə də beynəlxalq hüququn ümumi hissəsinin digər institutu - beynəlxalq mübahisələrin həlli institutu barədə də demək olar. Bütün bunlar belə bir fikir söyləməyə əsas verir ki, beynəlxalq hüququn ümumi hissəsi beynəlxalq qanunvericiliyin (beynəlxalq normativ hüquqi materialın) həcmini xeyli dərəcədə azaldır, onun praktiki istifadəsini asanlaşdırır və texni- ki-hüquqi üstünlüklə xarakterizə olunur.

### 1.3.3. Beynəlxalq hüququn xüsusi hissəsi

Beynəlxalq hüquq normaları arasında elələri vardır ki, onlar beynəlxalq hüququn bütün struktur elementləri (hissələri) üçün ümumi əhəmiyyətə malik deyildir. Buna görə də, təbii ki, belə normalar beynəlxalq hüququn nizamasalma predmetinə aid olan istənilən növ münasibətləri (məsələn, beynəlxalq hüquq subyektliyi, beynəlxalq hüquq məsuliyyəti və s. münasibətləri) tənzimləmək iqtidannda deyildir; həmin normalar beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq münasibətlərin yalmz ayn-ayn, konkret növlərini tənzimləmək məqsədinə xidmət edir. Onlann məcmusuna (sisteminə) hüquq doktrinasında beynəlxalq hüququn xüsusi hissəsi deyilir.

Beynəlxalq hüququn xüsusi hissəsi dedikdə beynəlxalq münasibətlərin ayrı-ayrı növlərini tənzimləməkdən ötrü tətbiq edilən beynəlxalq hüquq normalannm sistemi başa düşülür; «xüsusi hissə» normalarının köməyi və vasitəsilə beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan beynəlxalq münasibətlərin müxtəlif növlərinin (məsələn, beynəlxalq nəqliyyat münasibətləri, beynəlxalq ticarət-iqtisadi münasibətlər, beynəlxalq investisiya münasibətləri, beynəlxalq diplomatiya münasibətləri, beynəlxalq konsulluq münasibətləri, beynəlxalq kosmos münasibətləri, beynəlxalq dəniz

münasibətləri və s.) hüquqi tənzimlənməsi həyata keçirilir; onlar beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan ümumi xarakterli beynəlxalq m.ünasibətlərə tətbiq olunmur.

Beynəlxalq hüququn xüsusi hissəsi ayrı-ayn müxtəlif sahələrdən ibarətdir; onlara beynəlxalq hüququn sahələri deyilir. Hüquq ədəbiyyatı səhifələrində, bir qayda olaraq, «beynəlxalq hüququn xüsusi hissəsi» termininin əvəzinə, adətən, «beynəlxalq hüququn sahələri» anlayışı işlətmək geniş yayılmışdır. Başqa sözlə, beynəlxalq hüquq doktrinasında (elmində), eləcə də beynəlxalq hüquq dərsliklərində beynəlxalq hüququn xüsusi hissəsini əhatə etmək üçün «beynəlxalq hüququn sahələri» kimi termindən istifadə etmək dəbdə olub, adət halını almışdır. Söhbət beynəlxalq hüququn ibarət olduğu hüquq sahələrindən gedir. Bəs, beynəlxalq hüququn ibarət olduğu hüquq sahələri dedikdə, biz, nə başa düşürük? Bu suala cavab vermək üçün, hər şeydən əvvəl, müəyyənləşdirməliyik ki, hüquq sahəsinin özü nə deməkdir?

Qeyd etmək lazımdır ki, dünyada mövcud olan hər bir hüquq sistemi, istər dövlətdaxili (milli) hüquq sistemi olsun, istərsə də beynəlxalq hüquq sistemi, fərqi yoxdur, müəyyən hüquq sahələrinə bölünür. Hüquq sahəsi istənilən hüquq sisteminin əsas və ən iri (böyük) struktur elementidir. Həm beynəlxalq hüquq, həm də dövlətdaxili (milli) hüquq sisteminin digər struktur elementlərindən (yanmsahə və institutdan) fərqli olaraq, hüquq sahəsi müstəqilliyə malikdir; lakin hüquq sahəsinin müstəqilliyi mütləq deyil, nisbi xarakter daşıyır. Ona görə ki, hüquq sahəsi müstəqil hüquq sistemləri olan beynəlxalq və ya dövlətdaxili (milli) hüquq sistemlərinin struktur elementlərindən biridir. Yalnız beynəlxalq hüququn, eləcə də dövlətdaxili (milli) hüququn özü mütləq müstəqilliyə malikdir. Lakin, buna baxmayaraq, hüquq sahəsi hüquq sisteminin digər struktur elementləri ilə müqayisədə və onlara nisbətən müstəqil rola və əhəmiyyətə malikdir. Belə ki, istənilən hüquq sahəsi hüquq sisteminin tərkibinə, necə deyərlər, «muxtar hüquqi qurum» kimi daxil olur və bu səbəbdən onun «muxtar hüquqi qumm» statusu vardır.

Qeyd etməliyik ki, obyektiv xarakter daşıyan hüquq sistemi ictimai həyatda real surətdə mövcud olan münasibətlərin əksidir; hüquq normaları (hüquq normaları əsasında hüquq sistemi formalaşır) ilə tənzimlənən həmin münasibətlər məzmunca eyni deyil, müxtəlifdir. Belə ki, hüququn (hüquq normalarının) tənzimetmə predmetinə daxil olan ictimai münasibətlər məzmunca ayn-ayn növlərə bölünür (məsələn, konstitusiya münasibətləri, maliyyə münasibətləri, əmək münasibətləri, mülki münasibətlər, cinayət münasibətləri və digər münasibətlər). İctimai münasibətlərin növləri bir-birindən xarakterik əlamətləri, eləcə də sosial istiqaməti və təyinatı ilə fərqlənir. Bu səbəbdən ictimai münasibətlərin ayn- ayn növləri müəyyən qrup hüquq normalan ilə nizama salınır ki, həmin normalar öz tənzimlədiyi ictimai münasibət növlərinin xarakterik əlamətlərini, sosial təyinat və istiqamətini əks etdirir. Məhz belə normalar qrupuna hüquq nəzəriyyəsində «hüquq sahəsi» deyilir. Məsələn, maliyyə münasibətləri ictimai münasibətlərin bir növüdür; həmin münasibətləri tənzimləyən hüquq normalannın qrupu maliyyə hüququ adlanır. Maliyyə hüququ isə aynca hüquq sahəsidir. Digər bir misalda, əmək münasibətləri ictimai münasibətlərin növlərindən biridir; həmin münasibətləri tənzimləyən hüquq normalarının qrupu əmək hüququnu əmələ gətirir; əmək hüququ isə hüquq sahələrindən biri sayılır. İctimai münasibətlərin ayn-ayn növləri olan konstitusiya, inzibati, cinayət, mülki, ekologiya və digər ictimai münasibət növlərini tənzimləyən müəyyən hüquq normaları qrupu müvafiq olaraq, konstitusiya, inzibati, cinayət, mülki və ekologiya hüququ adlanır.

Hüquq sahəsi dedikdə hüquq sisteminin elə bir nisbi müstəqil struktur elementi (hissəsi) başa düşülür ki, bu element (hissə) ictimai münasibətlərin müəyyən növünü tənzimləyən hüquq normalarından ibarətdir. Başqa sözlə, hüquq sistemində digər struktur elementlərlə müqayisədə müstəqil yer tutan və ictimai münasibətlərin bu və ya digər növünü tənzimləyən hüquq normalarının qrupu (sistemi) hüquq sahəsi adlanır.

Beynəlxalq hüququn sahəsinə elmi (doktrinal) tərif verilməsinə gəldikdə isə, qeyd etməliyik ki, deyilən sözləri eyni ilə, olduğu kimi beynəlxalq hüququn sahəsinə də aid etmək olar. Belə ki, beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan dövlət- lərarası beynəlxalq münasibətlər məzmunca müxtəlif növlərə bölünür: beynəlxalq müqavilə münasibətləri, xarici əlaqələr üzrə münasibətlər, beynəlxalq iqtisadi münasibətlər, beynəlxalq təhlükəsizlik münasibətləri, beynəlxalq humanitar münasibətlər, beynəlxalq cinayət münasibətləri, beynəlxalq kosmos münasibətləri və s. Göstərdiyimiz və digər beynəlxalq münasibət növləri döv- lətlərarası beynəlxalq əməkdaşlığın ayn-ayn, müxtəlif sahələrində (məsələn, xarici əlaqələr, iqtisadi, ekologiya, humanitar, cinayətkarlıqla mübarizə və digər sferalarda) yaranır.

Beynəlxalq hüququn sahəsi dedikdə beynəlxalq hüquq sisteminin müstəqil əhəmij^ətə və rola malik olan elə bir struktur elementi (hissəsi) başa düşülür ki, bu element (hissə) özündə döviətlərarası beзməlxalq münasibətlərin müə)^ən növünü tənzimləyən hüquq normalarını birləşdirir. Məsələn, xarici əlaqələr (diplomatiya və konsulluq) üzrə münasibət döviətlərarası beynəlxalq münasibətlərin növlərindən biridir; bu münasibətləri tənzimləyən beynəlxalq hüquq normalanmn sistemi (kompleksi) xarici əlaqələr hüququ adlanır; xarici əlaqələr hüququ isə beynəlxalq hüququn sahələrindən biridir. Döviətlərarası bejməbcalq iqtisadi münasibət də döviətlərarası beynəlxalq münasibətlərin növüdür; həmin münasibətləri tənzimləyən beynəlxalq hüquq normalanmn qrupu (məcmusu) beynəlxalq iqtisadi hüquq adlanır; beynəlxalq iqtisadi hüquq isə beynəlxalq hüququn sahəsi sayılır və s.

Hüquq sahəsi beynəlxalq hüquq sisteminin vacib struktur elementidir; beynəlxalq hüququn digər struktur elementlərindən fərqli olaraq, o, öz funksiyasını müstəqil surətdə yerinə yetirə bilir. Bu onunla izah edilir ki, beynəlxalq hüququn sahəsi beynəlxalq münasibətlərin müəyyən növünü az və ya çox «muxtar» şəkildə tənzimləyən hüquq normalarının məcmusudur.'

**1 Фельдман Д.И. Система международного права. Казань, 1983, с.47.**

Beynəlxalq hüququn sistemində bu və ya digər sahənin ayrılmasına, başqa sözlə, beynəlxalq hüququn sahələrə bölünməsinə gəldikdə isə, qeyd etməliyik ki, bunun üçün müəyyən meyarlann olması tələb edilir. Dövlətdaxili (milli) hüquq sisteminin sahələrə bölünməsi üçün iki əsas meyarın mövcud olması vacibdir. Həmin meyarlara aşağıdakılar aiddir:'

- hüquqi nizamasalma predmeti;
- hüquqi nizamasalma metodu.

Dövlətdaxili (milli) hüquq sisteminə daxil olan hər bir hüquq sahəsi özünəməxsus nizamasalma predmetinə malikdir; istənilən hüquq sahəsinin həm də, eyni zamanda, özünəxas, spesifik nizamasalma metodu vardır. Göstərilən hər iki əsas amil (nizamasalma predmeti və metodu) dövlətdaxili (milli) hüquq sisteminin sahələrə bölünməsini şərtləndirən və belə bölünməyə səbəb olan meyar rolunu oynayır. Lakin bu meyarlar beynəlxalq hüquq sisteminin sahələrə bölünməsi, başqa sözlə, beynəlxalq hüququn tərkibində müxtəlif sahələrin ayniması üçün kifayət etmir; çünki beynəlxalq- hüquqi tənzimetmə mexanizmi, ümumiyyətlə, bütövlükdə beynəlxalq hüququn özü spesifik əlamətlərlə xarakterizə olunur. Bunun üçün Rusiya və başqa ölkələrin beynəlxalq hüquqa dair elmi ədəbiyyat səhifələrində digər meyarların da mövcud olması göstərilir.^ Beynəlxalq hüququn sistemində bu və ya digər sahənin mövcud olub-

1 **Хропанйук В.П. Dövlət və hüquq nəzəriyyəsi. Dərslik / Rus dilindən tərcümə. Bakı, 1995, s.l44.**

2 ***Mssələn, bax:*** **Фельдман Д.И. О системе международного права // Советский ежегодник международного права, 1977. М., 1978, с. 107-108; Фельдман Д.И. Система международного права. Казань, 1983, с.46-47; Богуславский М.М. Международное экономическое право. М., 1986, с. 30-31; Борисов К.Г. Международное таможенное право. М., 1997, с.10- 11; Шумилов В.М. Международное экономическое право в эпоху глобализации. М., 2003, с.94; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.36-37; Ашавский Б.М. К вопросу о международном экономическом праве // В книге: XXVIII ежегодное собрание Советской ассоциации международного права. Тезисы докладов. М., 1985, с. 18-27.**

olmaması məhz həmin meyarlann köməyi və vasitəsi ilə müəyyənləşdirilir. Gəlin, həmin meyarlarla tanış olaq; onlar beynəlxalq hüququn sahələrə aynimasım və bölünməsini şərtləndirən əlavə (yardımçı) meyarlar hesab edilirlər.

Beynəlxalq hüququn sistemində bu və ya digər sahənin ayrılmasına səbəb olan əsas meyar hüquqi nizamasalma predmeti sa- yılm Təsadüfi deyil ki, sovet dövrünün beynəlxalq hüquq doktrinası beynəlxalq hüququn sahələrə bölünməsinin ən vacib və mühüm meyan kimi məhz onu (nizamasalma predmetini) tanıyırdı.

Doğrudan da, beynəlxalq hüququn sistemində bu və ya digər sahənin ayrılması üçün həmin sahənin özünəxas nizamasalma predmeti, yəni tənzimlədiyi dövlətlərarası beynəbcalq münasibətlərin müəyyən növü olmalıdır; həmin növ münasibət bu və ya digər hüquq sahəsinin mövcud olmasını şərtləndirən obyektiv meyardır. Belə ki, dövlətlərarası beynəlxalq münasibətlərin bu və ya digər növü obyektiv surətdə hüquqi tənzimlənməyi tələb edir; əks halda beynəlxalq münasibətlər sistemində qayda-qanun olmazdı və xaos-anarxiya kimi arzuolunmaz vəziyyət yaranardı. Həmin növ münasibət isə, təbii ki, müvafiq hüquq normaları ilə tənzimlənir; bu normalar birləşərək beynəlxalq hüququn bu və ya digər sahəsini yaradır. Deməli, beynəlxalq hüququn sahəsi obyektiv surətdə hüquqi cəhətdən tənzimlənməyi tələb edən dövlətlərarası beynəlxalq münasibətlərin müəyyən növünü nizama salan hüquq normalarmın birləşməsidir. Lakin bu birləşmə hüquqyaratma subyektlərinin mülahizəsindən asılı deyildir və obyektiv xarakter daşıyır.

Qeyd etməliyik ki, beynəlxalq hüququn sahələrini bir-birindən ayırmağa imkan verən başlıca amil həmin sahələrin tənzimlədiyi dövlətlərarası beynəlxalq münasibətlərin özünəməxsusluğudur. Belə ki, beynəlxalq hüququn ayn-ayn sahələri tərəfindən tənzimlənən həmin münasibətlər öz məzmununa, konkret məqsəd və vəzifələrinə görə bir-birlərindən fərqlənir. Məsələn, «beynəlxalq iqtisadi hüquq» kimi sahə dövlətlərarası beynəlxalq iqtisadi münasibətləri tənzimlədiyi halda, «xarici əlaqələr hüququ» adlı sahə dövlətlərarası

beynəlxalq rəsmi nümayəndəlik münasibətlərini (diplomatiya və konsulluq münasibətlərini) nizamlayır. Beynəlxalq hüququn sahələrindən biri olan beynəlxalq ekologiya hüququ ətraf mühitin qorunması sahəsində yaranan dövlətlərarası münasibətləri (beynəlxalq ekologiya münasibətlərini) qaydaya salır.

Beynəlxalq hüququn sistemində bu və ya digər sahənin ayrılmasının əsas səbəbi olan dövlətlərarası münasibətlər beynəlxalq münasibətlər sisteminin vacib və mühüm hissəsi sayılır. Həmin münasibətlər beynəlxalq ictimai həyatın təşkilində son dərəcə əhəmiyyətli rol oynayaraq, beynəlxalq hüququn sahələrə bölünməsinin başlıca obyektiv əsası kimi çıxış edir. Bax, buna görə də, «sahələD> digər struktur elementlərlə müqayisədə beynəlxalq hüququn sistemində üstün yer tutur.

Hüquqi nizamasalma metodu kimi meyara gəldikdə, qeyd etməliyik ki, bu meyar dövlətdaxili (milli) hüquq sisteminin sahələrə bölünməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bir az öncə göstərdik ki, hüquqi nizamasalma predmeti ilə birlikdə hüquqi nizamasalma metodu dövlətdaxili (milli) hüquq sisteminin sahələrə bölünməsinə səbəb olan əsas meyar rolunu oynayır. Lakin, beynəlxalq hüquq ədəbiyyatında çox düzgün olaraq göstərilir ki, «hüquqi nizamasalma metodu» kimi meyardan beynəlxalq hüququn sahələrə ayniması üçün istifadə etmək qeyi'i-mümkündür.' Başqa sözlə, beynəlxalq hüququn sahələrə bölünməsi məsələsində «hüquqi nizamasalma metodu» kimi meyarın heç bir rolu və əhəmiyyəti yoxdur. Belə ki, beynəlxalq müqavilə-tənzimetmə üsulu beynəlxalq hüququn əsas nizamasalma metodu sayılır; həmin üsul isə beynəlxalq hüququn istənilən sahəsi üçün xarakterikdir. Beynəlxalq hüquqda bundan başqa, digər tənzimetmə metodlanndan da (məsələn, bey- nəlxalq-hüquqi məcburetmə metodu, beynəlxalq mübahisələrin dinc yolla həlli metodu və s.) istifadə edilir ki, onlar, demək olar, beynəlxalq hüququn bütün sahələrində tətbiq olunur. Nəzərə al-

**1 Фельдман Д.И. Система международного права. Казань, 1983, с.46-47.**

malıyıq ki, beynəlxalq hüququn deyil, dövlətdaxili (milli) hüququn sahələrinin spesifik, özünəxas nizamasalma metodu vardır.'

Beynəlxalq hüququn sahələrə bölünməsinə səbəb olan əlavə (yardımçı) meyarlara gəldikdə isə, qeyd etməliyik ki, dövlətlərarası münasibətlərin tənzimlənməyi tələb edən növünün böyük beynəbcalq ictimai əhəmiyyətə malik olması həmin meyarlardan biridir. Əgər müvafiq növ münasibət beynəlxalq əlaqələr sistemində vacib rol oynayarsa, habelə beynəlxalq sülhün möhkəmləndirilməsinin, beynəlxalq təhlükəsizliyin təmin edilməsinin və beynəlxalq əməkdaşlığın inkişafinm əsası olarsa, bu o deməkdir ki, həmin münasibət böyük beynəlxalq ictimai əhəmiyyətə malikdir. Şübhəsiz, böyük beynəlxalq ictimai əhəmiyyətə malik olan müvafiq münasibət növünü tənzimləyən beynəlxalq hüquq normalanmn sistemi beynəlxalq hüququn sahəsi kimi tanınmalıdır. Məsələn, beynəlxalq iqtisadi münasibətlərin böyük beynəlxalq ictimai əhəmiyyətə ma- lüc olması şəksizdir. Bu səbəbdən həmin münasibətləri tənzimləyən beynəlxalq hüquq normalanmn sistemi beynəlxalq hüququn sahəsini (beynəlxalq iqtisadi hüququ) yaradır. Digər bir misalda, diplomatiya və konsul münasibətləri beynəlxalq ictimai həyat, habelə dövlətlərin qarşılıqlı rəsmi əlaqələri üçün nə qədər vacib əhəmiyyətə malikdir. Odur ki, həmin münasibətləri tənzimləyən beynəlxalq hüquq normalanmn məcmusu beynəlxalq hüququn sahələrindən birini - beynəlxalq xarici əlaqələr hüququnu əmələ gətirir.

Beynəlxalq hüququn sistemində hüquq sahəsinin ayrılmasını şərtləndirən ikinci əlavə (yardımçı) meyar ondan ibarətdir ki, dövlətlər, ümumiyyətlə, beynəlxalq birlik böyük beynəlxalq ictimai əhəmiyyətə malik olan müvafiq münasibət növünün müstəqil surətdə hüquqi tənzimlənməsində maraqlı olmalıdır. Bu, məlum m*əsələdir. Heç də sirr deyil ki, böyük beynəlxalq ictimai əhəmiyyəti olan istənilən beynəlxalq münasibət növü özünün müstəqil surətdə

**1 Müəlliflərdən K.A.Bekyaşev belə güman edir ki, beynəlxalq hüququn hər bir sahəsi öz nizamasalma metoduna malikdir *(bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.23).**

hüquqi tənzimlənməsini tələb edir; çünki müstəqil hüquqi tən- zimetmə beynəlxalq münasibətlərin tam, hərtərəfli və effektli şəkildə nizama salınmasını təmin edir. Müstəqil hüquqi tənzimetmə isə hüquq institutunun deyil, məhz hüquq sahəsinin vasitə və köməyi ilə həyata keçirilə bilər. Buna görə də, beynəlxalq hüququn sistemində yeni hüquq sahəsinin ayniması və formalaşması obyektiv zərurətə çevrilir.

Kodifıkasiya fəaliyyəti beynəlxalq hüququn sistemində bu və ya digər sahənin ayrılmasına səbəb olan üçüncü əlavə (yardımçı) meyar hesab edilir; kodifıkasiya fəaliyyəti hüquq normalarının sistemləşdirilməsi (sistem halına salınması) üzrə fəaliyyət deməkdir. Kodifikasiyanın özü isə hüquq normalarının sistemləşdirilməsi, sistem halına salınmasıdır.

Kodifıkasiya dedikdə beynəlxalq hüququn hər hansı sahəsini təşkil edən əsas hüquq normalannın vahid beynəlxalq hüquqi aktda birləşməsi başa düşülür; belə akta kodifıkasiya aktı deyilir. Beynəlxalq hüququn sistemində sahənin ayniması üçün geniş və universal xarakterli kodifıkasiya aktı qəbul olunmalıdır. Söhbət, ilk növbədə, beynəlxalq müqavilələrdən gedir. Beynəlxalq müqavlə kodifıkasiya fəaliyyətinin, beynəlxalq hüquqi aktlann əsas və başlıca formasıdır.'

Beynəlxalq hüququn sistemində müəyyən sahənin ayniması üçün tələb edilir ki, həmin sahənin nizamasalma predmetinə daxil olan beynəlxalq münasibətlərin müvafiq növünü tənzimləyən beynəlxalq hüquq normalannın sayı kifayət dərəcədə olmalıdır; bu, dördüncü əlavə (yardımçı) meyardır. Ona görə ki, beynəlxalq hüququn sahələri müvafiq beynəlxalq hüquq normalannın sistemi olub, həmin normalar əsasında formalaşır. Qeyd etməliyik ki, beynəlxalq münasibətlər sahəsində və dövlətlərarası sistemdə ümumi normativ-hüquqi səlahiyyətə malik olan qanunvericilik hakimiyyəti və xüsusi hüquqyaratma orqanı yoxdur. Buna görə

1 *Daha ətraflı:* **Мовчан А.П. Кодификация и прогрессивное развитие международного права. М., 1972.**

də, beynəlxalq hüquq normalan beynəlxalq hüquq subyektlərinin özləri, hər şeydən əwəl, dövlətlər tərəfindən yaradılır; bu normaların yaradılmasında həm də, eyni zamanda, be5məlxalq təşkilatlar iştirak edir.‘ Əgər beynəlxalq hüquq subyektləri tərəfindən müvafiq münasibət növünü tənzimləməkdən ötrü yaradılan beynəlxalq hüquq normalannın həcmi kifayət dərəcədə geniş olarsa, bu, beynəlxalq hüququn sistemində müəyyən sahənin ayrılması üçün lazımi əsasın olmasını göstərir.

Nəhayət, beynəlxalq hüququn sistemində bu və ya digər hüquq sahəsinin ayniması üçün onun özünəxas sahəvi (xüsusi) prinsiplərə malik olması tələb edilir. Bu, beynəlxalq hüququn sistemində müəyyən hüquq sahəsinin ayrılmasına səbəb olan beşinci əlavə (yardımçı) meyardır. Doğrudan da, beynəlxalq hüququn sistemində hər hansı hüquqi qurumun «sahə» statusu ilə tanınması üçün tələb edilir ki, həmin qurum özünəxas sahəvi (xüsusi) prinsiplərə malik olsun. Sahəvi (xüsusi) prinsiplər odur ki, onlar yalnız müvafiq hüquq sahəsini xarakterizə edir və onun hüquqi mahiyyətini müəyyənləşdirir. Əgər belə prinsiplər varsa, onda müvafiq hüquqi qurum beynəlxalq hüququn sahəsi sayılır.^

Beynəlxalq hüququn konkret olaraq, hansı hüquq sahələrindən ibarət olmasına gəldikdə, qeyd etməliyik ki, bu, beynəlxalq hüquq ədəbiyyatı səhifələrində elmi mübahisəyə səbəb olan məsələlərdən biridir. Belə ki, bu məsələdə müəlliflərin mövqeləri üst-üstə düşmür. Digər tərəfdən, beynəlxalq hüquq normativ qaydada özünün ibarət olduğu hüquq sahələrinin dəqiq və hamılıqla qəbul edilmiş rəsmi siyahısını vermir. Beynəlxalq hüquq həm də normativ qaydada, rəsmən müəyyənləşdirmir ki, o, hansı dəqiq və dürüst para-

**1** ***Daha ətraflı:*** **Морозов Г.И. Международные организации. М., 1969, с.44 və b.**

**2 K.A.Bekyaşev beynəlxalq hüquqim sahələrə bölünməsinin üç meyarmı göstərir: hüquqi nizamasalma predmeti, hüquqi nizamasalma metodu, sahəvi (xüsusi) prinsiplər** ***(bax:*** **Межд)шародное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009, с.22-23). Zənn edirik ki, hüquqi nizamasalma metodu kimi meyar yalnız dövlətdaxili (milli) hüquqda müvafiq sahələrin aynimasmda əsas rol oynayır.**

metrlər əsasında sahələrə bölünür. Buna görə də, beynəlxalq hüququn hansı sahələrə ayniması məsələsini beynəlxalq hüquq doktrinası (elmi) həll edir. Beynəlxalq hüquq doktrinası (elmi) isə beynəlxalq hüququn sisteminə daxil olan sahələrin hamılıqla qəbul olunmuş siyahısını konkret müəyyənləşdirmir. Odur ki, beynəlxalq hüququn hansı sahələrdən ibarət olması barədə elmi polemika və diskussiya alimlər arasında bu gün də davam edir.

Qeyd etmək lazımdır ki, dövlətdaxili (milli) hüquq sistemlərinin sahələrə bölünməsi tarixi heç də yaxın dövrlərə təsadüf etmir. Beynəlxalq hüququn sahələrə bölünməsi tarixinə gəldikdə isə, deməliyik ki, beynəbcalq hüququn özü tarixən çoxdan yaranmışdır. Lakin müasir beynəlxalq hüququn sahələrə bölünməsi tarixi, əsasən, XIX - XX əsrlərə təsadüf edir. Əgər XIX əsrdə beynəlxalq hüquq sülh hüququ, müharibə hüququ, habelə diplomatiya və konsul hüququ kimi ənənəvi sahələrə aynlırdısa, BMT Nizamnaməsi qəbul olunduqdan sonra keçən yüzilliyin ortalannda beynəlxalq hüququn sahələri, əsasən, bunlardan ibarət oldu: beynəlxalq dəniz hüququ, beynəlxalq hava hüququ, diplomatiya və konsul hüququ. XX əsrin ortalarından etibarən beynəlxalq hüququn yeni sahələri yaranmağa başladı (məsələn, beynəlxalq insan haqlan hüququ, beynəlxalq ekologiya hüququ və s.).

Biz, beynəbcalq hüquqa dair ədəbiyyat səhifələrində göstərilənləri nəzərə alaraq, qeyd edirik ki, beynəlxalq hüquq hal-hazırda aşağıdakı sahələrdən ibarətdir; beynəlxalq hüququn sistemində həmin sahələrin mövcud olması, demək olar ki, bütün alimlər tərəfindən tanınır və hər hansı elmi diskussiyaya səbəb olmur:

- beynəlxalq müqavilələr hüququ;
- xarici əlaqələr hüququ;'
- beynəlxalq təşkilatlar hüququ;

**' Beynəlxalq hüququn göstərilən sahəsini həm də, eyni zamanda, «diplomatiya və konsul hüququ» və ya «səfirlik və konsulluq hüququ» da adlandırırlar *(bax:* Блищенко И.П. Дипломатическое право. М., 1990; Сабинин А.В.Посольское и консулское право. М., 1934 və Ь.).**

- beynəlxalq humanitar hüquq;
- beynəlxalq insan haqlan hüququ;
- beynəlxalq təhlükəsizlik hüququ;
- beynəlxalq dəniz hüququ;
- beynəlxalq hava hüququ;
- beynəlxalq kosmos hüququ;
- beynəlxalq cinayət hüququ;
- beynəlxalq iqtisadi hüquq;
- beynəlxalq ekologiya hüququ və s.

İndi isə beynəlxalq hüququn sadaladığımız sahələri barədə, qısaca da olsa, məlumat verək. Beynəlxalq müqavilə hüququ dedikdə beynəlxalq müqavilələrin bağlanma, qüvvədə olma və ləğv edilmə qaydalanm müvəyyənləşdirən hüquq normalannm sistemi başa düşülür; bu sahə beynəlxalq hüququn sistemində əsas və mərkəzi yer tutur.'

Xarici əlaqələr hüququ beynəlxalq hüququn elə bir sahəsidir ki, o, özündə dövlət və beynəlxalq təşkilatların iştirak etdikləri rəsmi nümayəndəlik münasibətlərini tənzimləyən hüquq normalannı birləşdirir; beynəlxalq hüququn bu sahəsi, əsasən, diplomatiya və konsulluq münasibətlərini tənzimləmək funksiyasını yerinə yetirir.^

Beynəlxalq təşkilatlar hüququ beynəlxalq hüququn subyektlərindən biri olan dövlətlərarası beynəlxalq təşkilatlann fəaliyyəti ilə bağlı münasibətləri tənzimləyən hüquq normalarından ibarət olan hüquq sahəsidir; beynəlxalq hüququn bu sahəsi dövlətlərarası beynəlxalq münasibətlər sistemində vacib rol oynayır. Ona görə ki, beynəlxalq təşkilatlar dövlətlərarası ünsiyyət və əlaqənin əsas təşkilatçılarıdır.^

1 ***Daha strafli:*** **Лукашук И.И. Современное право международных договоров. Том 1,2. М., 2004.**

2 ***Daha strqfli:*** **Сандровский К.К. Право внешних сношений. Киев, 1986.**

3 ***Daha ətrafli:*** **Шибаева Е.А. Право международных организаций. М., 1986; Зайцева О.Г. Международные межправительственные организации. М., 1983.**

Beynəlxalq humanitar hüquq dedikdə beynəlxalq hərbi münaqişələrlə bağlı münasibətləri tənzimləyən hüquq normalarının məcmusu başa düşülür;* ona həm də, eyni zamanda, beynəlxalq hərbi münaqişələr hüququ da deyilir.- Beynəlxalq hüququn bu sahəsinin əsas məqsədi beynəlxalq hərbi münaqişələrlə bağlı yaranan humanitar məsələləri həli etməkdən ibarətdir.

Beynəlxalq insan haqları hüququ dedikdə beynəlxalq hüququn elə bir sahəsi başa düşülür ki, bu sahə özündə insan hüquqlanm qoruyan, müdafiə və təmin edən hüquq normalarını birləşdirir;- onu ayrı-ayn müəlliflər «beynəlxalq humanitar hüquq»,“* «insan hüquqlannın beynəlxalq müdafiəsi»^ və s. adlandınrlar. Hansı terminlə əhatə və ifadə olunmasından asılı olmayaraq, beynəlxalq hüququn bu sahəsinin mühüm əhəmiyyəti vardır. Belə ki, onun köməyi və vasitəsilə insan hüquq və azadlıqlan (insan haqları) beynəlxalq səviyyədə təmin olunur. Beynəlxalq insan haqları hüququ müasir beynəlxalq hüququn yeni sahəsidir.

Beynəlxalq təhlükəsizlik hüququ dedikdə hərbi-siyasi sahədə dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalannın sistemi başa düşülür; onun əsas məqsədi sülhü möhkəmləndirmək, sanksiyalaşdınimamış hərbi güc tətbiq edilməsinin qarşısım almaq, beynəlxalq terrorizmlə mübarizə aparmaq, silahlarm məhdudlaşdıniması və azaldılması sahəsində dövlətlərarası bey-

1 ***Daha ətraflı:*** **Батырь В.А. Международное г)лианитарное право. М., 2006; İbayev V.Ə. Beynəlxalq hmnanitar hüquq. Dərslik. Bakı, 2001, 496 s. və b.**

2 **Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Р.Тузмухамедов. М., 2007, с.824; Международное право. Учебник / Отв. ред. Ю.М. Колосов, Э.С.Кривчикова, М., 2000, с.397.**

3 **Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqlan, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, 2007, 488 s. və b.**

4 ***Məsələn, bax:*** **Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.276; Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И. Тиунов. М., 2003, с. 378Д19.**

5 **Карташкин В.А. Международная защита прав человека. М., 1976; Даниленко Г.М. Международная защита прав человека. М., 2000 və b.**

nəlxalq əməkdaşlığı təmin etməkdən ibarətdir.' Beynəlxalq təhlükəsizlik hüququ beynəlxalq hüququn yeni sahələrindən sayılır.

Beynəlxalq dəniz hüququ dedikdə Dünya okeanından istifadə sahəsində beynəlxalq hüquq subyektlərinin fəaliyyətini tənzimləyən hüquq normalannm kompleksi başa düşülür. Dünya okeanmdan müxtəlif məqsədlər (hər şeydən əwəl, ticarət gəmiçiliyi və balıqçılıq məqsədləri) üçün istifadə edilməsi ilə bağlı olaraq, yaranan münasibətləri hüquqi tənzimləmək zərurəti beynəlxalq hüququn bu sahəsinin yaranmasına səbəb olmuşdur.'^

Beynəlxalq hava hüququ hava məkanından istifadə sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalannın sistemidir; beynəlxalq hüququn bu sahəsi öz quru və su əraziləri üzərindəki hava məkanına münasibətdə tam və müstəsna dövlət suverenliyini, açıq hava məkanında beynəlxalq uçuşların sərbəst həyata keçirilməsini, habelə beynəlxalq mülki aviasiyanın təhlükəsizliyini təmin edir.^

Be)TiəLxalq kosmos hüququ dedikdə kosmosdan, habelə kosmik texnikadan istifadə sahəsində dövlətlərarası münasibətləri tənzimləyən hüquq normalannm məcmusu başa düşülür.“' Beynəlxalq hüququn bu sahəsi kosmik fəaliyyətin həyata keçirilməsi sferasında dövlətlərin hüquq və vəzifələrini tənzimləyir, kosmosun hüququ rejimini müəyyənləşdirir. O, həm də kosmosdan hərbi məqsədlər üçün istifadə edilməsini məhdudlaşdıran müvafiq beynəlxalq-hü- quqi tədbirlər nəzərdə tutur.

Beynəlxalq cinayət hüququ beynəlxalq hüququn elə bir tərkib hissəsidir ki, o, özündə cinayətkarlıqla mübarizə sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyir; beynəlxalq hüququn bu sahəsi cinayətkarlıqla mübarizədə dövlətlərin beynəlxalq

1 ***Вах:*** **Малинин С. А. Право международной безопасности // В книге: Курс международного права. Том IV. М., 1989, с.167.**

2 ***Daha ətraflı:*** **Молодцов С.В. Международное морское право. М., 1987.**

3 ***Daha ətraflı:*** **Малеев Ю.М. Международное воздушное право. М., 1986.**

4 ***Daha ətraflı:*** **Международное космическое право / Отв.ред. Г.П.Жуков, Ю.М.Колосов. М., 1999.**

əməkdaşlığının inkişafını iki əsas istiqamətdə həyata keçirir: beynəlxalq müqavilə bağlamaq yolu ilə əməkdaşlıq, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq'.

Beynəlxalq iqtisadi hüquq dedikdə iqtisadi sahədə dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalannm sistemi başa düşülür; onun köməyi və vasitəsi ilə qlobal xarakter alan beynəlxalq iqtisadi münasibətlər sistemində qayda-qanun yaradılır.^

Beynəlxalq ekologiya hüququ dedikdə təbii resurslardan istifadə edilməsi və ətraf mühitin qorunması sahəsində dövlətlərarası beynəlxalq münasibətləri tənzimləyən hüquq normalannm sistemi başa düşülür; onun sayəsində təbii resurslardan səmərəli istifadə olunması, eləcə də ətraf mühitin çirklənmədən qorunması təmin edilir. Beynəlxalq ekologiya hüququ həm də «ətraf mühiti beynəlxalq mühafizə hüququ» adlanır.^

Qeyd etmək lazımdır ki, əgər beynəlxalq hüququn xüsusi hissəsi müstəqil hüquq sahələrinə aynlırsa, müstəqil hüquq sahələrinin özü yanmsahələrə bölünür; onlara beynəlxalq hüququn yanmsahələri deyilir. Başqa sözlə, əgər beynəlxalq hüququn xüsusi hissəsi müstəqil hüquq sahələrindən təşkil olunursa, hüquq sahələri özləri yanmsahələrdən ibarətdir. Yanmsahələr beynəlxalq hüquq sahəsinin tərkibinə daxil olan struktur elementlərdən (hissələrdən) biridir.

Beynəlxalq hüququn yanmsahəsi dedikdə beynəlxalq hüquq sahəsi çərçivəsində mövcud olan, bir-birinə oxşar və yaxın, eyninövlü hüquq institutlarımn məcmusu başa düşülür. Məsələn, beynəlxalq əqli mülkiyyət hüququ beynəlxalq iqtisadi hüququn (beynəlxalq iqtisadi hüquq, bildiyimiz kimi, beynəlxalq hüququn

1 ***Daha ətraflı:*** **Панов В.П. Международное >толовное право. М., 1997; Лукашук И.И. Наумов А.В. Международное уголовное право. Учебник. М., 1999; Иногамова-Хегай Л.В. Международное уголовное право. СПб., 2003.**

2 ***Daha ətraflı:*** **Вельяминов Г.М. Международное экономическое право и процесс. М., 2004; Ялийев *Е.Я.* Бейнялхалг игтисади щцгуг. Дярслик. Бакы, 2012, 648 с. və Ь.**

3 ***Daha ətraflı:*** **Тимошенко А.С. Формирование и развитие международного права окружающей среды. М., 1985.**

sahələrindən biridir) yarımsahəsidir; bu yarımsahə özündə bir- birinə oxşar və yaxın olan eyninövlü iki hüquq institutunu birləşdirir: beynəlxalq müəlliflik hüquq institutu, beynəlxalq patent hüquq institutu. Başqa bir misalda, beynəlxalq nəqliyyat hüququ beynəlxalq iqtisadi hüququn digər yanmsahəsi sayılır; bu yanm- sahənin tərkibində bir neçə hüquq institutu vardır:* beynəlxalq dəniz nəqliyyat daşımalan institutu, beynəlxalq dəmir yol nəqliyyat daşımaları institutu, beynəlxalq hava nəqliyyat daşımaları institutu, beynəlxalq avtomobil nəqliyyat daşımaları institutu, beynəlxalq su (çay) nəqliyyat daşımaları institutu, beynəlxalq boru kəmər nəqliyyat daşımaları institutu. Digər bir misalda, xarici əlaqələr hüququ, bir az əvvəldə göstərdiyimiz kimi, beynəlxalq hüququn sahələrindən biridir; diplomatiya hüququ onun yanmsahəsi sayılır və bu yarımsahə özündə bir neçə hüquq institutunu birləşdirir: diplomatik nümayəndəlik institutu, diplomatik missiya institutu, daimi nümayəndəlik institutu və s.

Beləliklə, müasir beynəlxalq hüququn xüsusi hissəsi hüquq sahələrindən, hüquq sahəsi isə hüquq yanmsahələrindən və hüquq institutlanndan ibarətdir.

## 1.4. Beynəlxalq hüququn nizamasalma metodu

### 1.4.1. Beynəlxalq hüququn nizamasalma metodu anlayışı

Beynəlxalq hüququn əsas anlayışlanndan biri onun nizamasalma metodu hesab edilir. Lakin, buna baxmayaraq, beynəlxalq hüquq doktrinasında (elmində) o, kifayət dərəcədə öyrənilməmiş məsələlərdən biri sayılır. Açıq şəkildə söyləsək, beynəlxalq hüquq elmində «beynəlxalq hüququn nizamasalma metodu» kimi vacib

**1 *Bax;* Əliyev E.Ə.Beynəlxalq nəqliyyat hüququ. Dərslik. Bakı, 2009, s.76- 537; Əliyev E.Ə.Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2012, s.514- 542 və b.**

məsələ, demək olar ki, ümumiyyətlə, tədqiq olunmamışdır. Müasir dövrün beynəlxalq hüquq dərsliklərində də həmin mövzuya ətıaflı şəkildə toxunulmur ki, bu cəhəti ayrıca fərqləndiımək lazımdır.' Hesab edirik ki, beynəlxalq hüququn nizamasalma metodunu tədqiq etmək və öyrənmək beynəlxalq hüquq elminin üzərinə düşən aktual vəzifələrdən biridir. Digər tərəfdən, beynəlxalq hüquq dərsliklərində «beynəlxalq hüququn nizamasalma metodu» kimi mövzunun geniş və hərtərəfli şəkildə işıqlandırılmasını vacib məsələ sayırıq. Zənn edirik ki, «beynəlxalq hüququn nizamasalma metodu» məsələsi həm beynəlxalq hüquq doktrinasında, xüsusən də monoqrafiyalarda, həm də beynəlxalq hüquq dərsliklərində kifayət dərəcədə işıqlandmlmahdır.

Beynəlxalq hüququn nizamasalma metodu onun nizamasalma predmeti ilə sıx surətdə bağlıdır; onlar arasında qarşılıqlı dialektik əlaqə mövcuddur. Belə ki, beynəlxalq hüququn nizamasalma metodu onun nizamasalma predmeti ilə şərtlənir; məhz beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətlərin konkret məzmunu beynəlxalq hüququn nizamasalma metodunu müəyyən edir.

Bildiyimiz kimi, beynəlxalq hüququn nizamasalma predmeti anlayışı belə bir suala cavab verir: beynəlxalq hüquqla hansı münasibətlər tənzimlənir? Beynəlxalq hüququn nizamasalma metodu anlayışına gəldikdə isə, qeyd etməliyik ki, bu anlayış belə bir suala cavab verir: həmin münasibətlər, yəni beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan münasibətlər beynəlxalq hüquqla necə tənzimlənir? Beynəlxalq-hüquqi tənzim- etmənin nə cür həyata keçirilməsi, tənzimetmə zamanı hansı üsullardan (hüquqi vasitələrdən) istifadə edilməsi və lazımi hüquqi

1 ***Məsələn, bax:*** **Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997; Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, 2000; Шумилов В.М. Международное право. Учебник. М., 2008; Международное право. Учебник / Отв. ред. В.И. Кузнецев, Б.Р.Тузмухамедов. М., 2007; Международное право. Учебник / Под общ. ред. А.Л.Капустина. М., 2008 VƏ Ь.**

nəticənin necə əldə olunması beynəlxalq hüququn nizamasalma metodu anlayışının mahiyyətini təşkil edir.

Beləliklə, beynəlxalq hüququn nizamasalma metodu dedikdə beynəbtalq hüququn tənzimetmə predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətlərə onun göstərdiyi təsir üsullan (vasitələri) başa düşülür.

### 1.4.2. Beynəlxalq hüququn nizamasalma metodologiysı

Beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası beynəlxalq münasibətlərin əhatə dairəsi kifayət qədər genişdir; bu münasibətlər dövlətlərarası beynəlxalq əməkdaşlığın ayn-ayn sahələrində (xarici əlaqələr, iqtisadi, ekologiya, təhlükəsizlik, humanitar, cinayətkarlıqla mübarizə, insan hüquqlarmm qorunması və digər sferalarda) yaranır. Məzmunca müxtəlif olduğuna görə həmin münasibətlərə, təbii ki, hüquqi nizamasalma metodunun bir deyil, bir neçə növü tətbiq edilir; həm də ona görə ki, dövlət- lərarası beynəlxalq sistem iştirakçılan arasındakı qarşılıqlı münasibətlər mürəkkəb xarakterə malikdir. Odur ki, dövlətlərarası beynəlxalq münasibətlərin tənzimlənməsi beynəlxalq hüququn xüsusi metodologiyası əsasmda həyata keçirilir və nizamasalma metodunun müxtəlif növləri tətbiq edilir; həmin növləri hətta müxtəlif meyarlara görə təsnifləndirmək olar.

Dövlətlərarası münasibət iştirakçılan üçün hüquq və vəzifələr müəyyənləşdirmək üsuluna görə beynəlxalq hüquqda nizamasalma metodunun iki növü fərqləndirilir:

- saziş metodu;
- adət metodu.

Saziş metodunun mahİ5^əti beynəlxalq müqavilə vasitəsi ilə dövlətlərarası münasibət iştirakçılan üçün müvafiq hüquq və vəzifələrin müəyyənləşdirilməsindən ibarətdir. Əgər münasibət işti- rakçılan üçün hüquq və vəzifələr müəyyənləşdirilərsə, deməli, həmin münasibət hüquqi cəhətdən tənzirnlənir. Belə ki, tənzimləmək

mahiyyətcə, müəyyən etmək (hüquq və vəzifələr müəyyən etmək) deməkdir. Bu zaman beynəlxalq müqavilə sözügedən münasibət iştirakçıları üçün hüquq və vəzifələr müəyyənləşdirmənin, yəni münasibətləri hüquqi tənzimetmənin üsulu (metodu) kimi çıxış edir.

Saziş metodu beynəlxalq hüququn nizamasalma metodunun əsas növü sayılır. Ona görə ki, beynəlxalq müqavilə dövlətlərarası münasibət iştirakçılan üçün hüquq və vəzifələr müəyyən etməyin başlıca vasitəsi, beynəlxalq-hüquqi tənzimetmənin əsas formasıdır. Beynəlxalq hüquq nizamladığı və tənzimlədiyi beynəlxalq münasibətlərə məhz beynəlxalq müqavilələrin köməyi ilə təsir edə bilir.

Adət metodunun mahiyyəti beynəlxalq-hüquqi adətlərin vasitəsilə dövlətlərarası beynəlxalq münasibət iştirakçılan üçün hüquq və vəzifələrin müəyyənləşdirilməsindən ibarətdir. Belə ki, beynəlxalq-hüquqi adət beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan münasibətləri tənzimləməkdən ötrü tətbiq edilən üsuldur. Elə münasibət növləri vardır ki, beynəlxalq hüquq onlara beynəlxalq- hüquqi adətlər vasitəsilə təsir göstərə bilir.

Beynəlxalq hüquq normalannda əks olunmasından asılı olaraq, beynəlxalq hüququn nizamasalma metodunun üç növü vardır (belə ki, beynəlxalq hüquq normaları bu və ya digər nizamasalma metodunu əks etdirir);

- icazə metodu;
- məcburetmə metodu;
- qadağanetmə metodu.

Beynəlxalq hüququn nizamasalma metodunun göstərilən növləri haqqında danışmamışdan əvvəl qeyd edək ki, beynəlxalq hüquqa dair tədris ədəbiyyatı səhifələrində tənzimetmə üsuluna (metoduna) görə, beynəlxalq hüquq normalan müəyyənləşdirdiyi hüquq və vəzifələrin xarakterindən asılı olaraq, üç növə bölünür:'

**1** ***Məsələn, bax:*** **Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 1997, с.112; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, с.36; Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И. Тиунов. М., 2009, с.129 və Ь.**

- səlahiyyətverici beynəlxalq hüquq normalan;
- məcburedici beynəlxalq hüquq normalan;
- qadağanedici beynəlxalq hüquq noımalan.

Səlahiyyətverici beynəlxalq hüquq normaları dedikdə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına müəyyən hərəkətləri etmək hüququ verən normalar başa düşülür. Məsələn, dövlətlərə kosmik fəzam tədqiq və ondan istifadə etmək hüququ verən norma səlahiyyətverici beynəlxalq hüquq normasıdır. İcazə metodu da məhz səlahiyyətverici beynəlxalq hüquq normalannın vasitəsilə tətbiq edilir. Qeyd etməliyik ki, icazə, mahiyyətcə, ictimai münasibətləri tənzimetraə üsullarından (metodlarından) biridir. Belə ki, beynəlxalq münasibət iştirakçılarına müəyyən hərəkətləri etməyə icazə vermək yolu ilə beynəlxalq hüquq həmin münasibətləri tənzimləyir.

Məcburedici beynəlxalq hüquq normaları dedikdə müəyyən hərəkətlərin edilməsinə yönəlmiş vəzifələr müəyyənləşdirən hüquq noımalan başa düşülür; belə normalar göstərir ki, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları necə davranmalı və qarşıya qoyulan məqsədə çatmaq üçün hansı hərəkətləri etməlidirlər. Məsələn, nüvə avariyası (qəzası) barədə xəbər verilməsi haqqında norma məcburedici beynəlxalq hüquq normasıdır. Məcburetmə metodu da məhz məcburedici beynəlxalq hüquq normalan vasitəsilə tətbiq olunur. Təsadüfi deyil ki, məcburetmə, mahiyyətcə, tənzim- etmənin metodlarından (üsullanndan) biri sayılır.

Qadağanedici beynəlxalq hüquq normalan dedikdə dövlətlərarası beynəlxalq münasibət iştirakçılanna müəyyən hərəkətləri etməyi yasaqlayan normalar başa düşülür. Belə normalann sayı beynəlxalq hüquqda az deyildir. Məsələn, hərbi güc tətbiq edilməsini, başqa dövlətlərin daxili işlərinə qanşraağı, bakterioloji silahın istehsal olunmasını və s. halları yasaq edən normalar qadağanedici beynəlxalq hüquq normalanna misaldır. Qadağanetmə metodu da məhz qadağanedici beynəlxalq hüquq normalarının tətbiq olunmasını nəzərdə tutur. Qadağanetmə də, mahiyyətcə, tənzimetmə və nizamasalma üsullarına (raetodlarma) aiddir.

Qeyd etmək vacibdir ki, beynəlxalq hüquq qadağanetmə, icazə və məcburetmə kimi tənzimetmə metodlarının sistemidir; bu sistem dövlətlərarası münasibət iştirakçılannın iradə ifadəsi olub, onlar tərəfindən həmin münasibətləri tənzimləmək üçün yaradılmışdır. Həmin metodlar isə, müvafiq olaraq, qadağanedici, səla- hiyyətverici və məcburedici beynəlxalq hüquq normalannda əks olunur.'

Normativ tənzim.etmənin qətiliyi baxımından, beynəlxalq nizamasalma metodunun iki növü fərqləndirilir:

- imperativ metod;
- dispozitiv metod.

Imperativ tənzimetmə metodu dedikdə beynəlxalq imperativ hüquq normalarının vasitəsilə tətbiq edilən nizamasalma üsulu başa düşülür; beynəlxalq imperativ hüquq normalan isə dövlətlərarası beynəlxalq münasibət iştirakçılan üçün dəqiq və dürüst davranış qaydalan müəyyən edir; onlar bu qaydalardan kənara çıxa bilməzlər. Məsələn, dövlətlər üçün kimyəvi silahlan və onlan istehsal edən obyektləri məhv etmək barədə öhdəlik müəyyənləşdirən norma beynəlxalq imperativ hüquq normasıdır.

Dispozitiv tənzimetmə metodu dedikdə beynəlxalq dispozitiv hüquq normalarının köməyi ilə tətbiq olunan nizamasalma üsulu başa düşülür; beynəlxalq dispozitiv hüquq normalan isə dövlətlərarası beynəlxalq münasibət iştirakçılarına konkret haldan asılı olaraq, istədikləri davranış variantını seçmək, özləri üçün qarşılıqlı hüquq və vəzifələr müəyyənləşdirmək imkanı verir.

Dövlətlərarası beynəlxalq münasibət iştirakçılannın maraq və məqsədi baxımından, iki növ nizamasalma metodu tətbiq oluna bilər:

- subordinasiya tənzimetmə metodu;
- koordinasiya tənzimetmə metodu.

**1 *Вах:* Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.45.**

Subordinasiya tənzimetmə metodu beynəlxalq hüquq üçün tipik və xarakterik olan nizamasalma üsulu deyildir. Ona görə ki, subordinasiya tənzimetmə metodu hakimiyyət xarakterli məcburiyyət-tabeçilik nizamasalma üsuludur; bu üsul aralannda hakimiyyət-tabeçilik və iyerarxiya asılılığı olan münasibətləri tənzimləmək üçün tətbiq edilir (məsələn, bu metoddan konstitusiya, inzibati, maliyyə, cinayət və digər milli hüquq sahələrində istifadə olunur). Beynəlxalq hüquqla tənzimlənən dövlətlərarası beynəlxalq münasibətlərin iştirakçıları arasında isə nə asılılıq, nə də tabeçilik vardır. Həmin münasibətlər hüquqca bərabər olan iştirakçılar arasında da yaranır. Buna görə də, beynəlxalq hüquq üçün koordinasiya tənzimetmə metodu xarakterikdir; həm də ona görə ki, beynəlxalq hüquq koordinasiya xarakterli hüquqdur. Digər tərəfdən, beynəlxalq hüquq həm də, eyni zamanda, koordinasiya funksiyasını yerinə yetirir. Lakin, bunlara baxmayaraq, müəyyən hallarda beynəlxalq hüquqda subordinasiya tənzimetmə metodu tətbiq olunur. Məsələn, bu metod beynəlxalq hüququn institutlarından biri olan iqtisadi inteqrasiya hüququnun başlıca metodu sayılır.' Belə ki, iqtisadi inteqrasiya (iqtisadi federasiya) birlikləri (məsələn, Avropa İttifaqı) ilə üzv-dövlətlər arasında münasibətlərə subordinasiya tənzimetmə metodu tətbiq olunur; üzv-dövlətlər öz hakimiyyət səlahiyyətlərinin müəyyən hissəsini həmin birliklərə verirlər.

Məlum olduğu kimi, beynəlxalq hüquqda elə normalar vardır ki, onlar dövlətlər üçün hamılıqla qəbul olunmuş davranış standartlannı müəyyən edir; məhz həmin normalann köməyi və vasitəsilə koordinasiya tənzimetmə metodu tətbiq olunur. Koordinasiya metodu suveren dövlətlərin özünütənzimetmə, özünüidarəetmə metodudur. Subordinasiya metodu isə bu xüsusiyyətdən məhrumdur. Lakin, buna baxmayaraq, beynəlxalq hüquqda subordinasiya tənzimetmə metodunun tətbiq dairəsinin genişlənməsi

**1 Шумилов В.М.Международное экономическое право. Учебник. Ростов-на-Дону, 2003, С.200; Əliyev E.Ə. Beynəlxalq iqtisadi hüquq. Dərslik. Bakı, 2012, s. 172-178 və b.**

tendensiyası müşahidə olunur. Belə ki, BMT Təhlükəsizlik Şurasının, BMT Beynəlxalq Məhkəməsinin, BMT-nin ixtisaslaşdmlmış təşkilatlanmn və s. orqanlann fəaliyyətində məhz belə elementlərə rast gəlmək mümkündür.

Göstərilənlərdən başqa, beynəlxalq hüquqda tənzimetmə metodunun aşağıdakı növlərindən də istifadə oluna bilər:

- birtərəfli tənzimetmə metodu;
- ikitərəfli tənzimetmə metodu;
- çoxtərəfli tənzimetmə metodu.

Birtərəfli tənzimetmə metodunun mahiyyəti bundan ibarətdir ki, dövlətlərarası beynəlxalq münasibət iştirakçıları birtərəfli qaydada öz üzərlərinə hər hansı beynəlxalq-hüquqi öhdəlik götürürlər. Beynəlxalq hüquq praktikası göstərir ki, bunu ən çox, əsasən, dövlətlər edirlər. Məsələn, hər hansı dövlət birtərəfli qaydada öz üzərinə nüvə sınağı (partlayışı) keçirməmək barədə öhdəlik götürür.

Birtərəfli tənzimetmə metodu həm də dövlətlərin birtərəfli aktı formasında tətbiq oluna bilər.’ Belə aktlar məcburi davranış qaydaları müəyyən edir və buna görə onlar beynəlxalq-hüquqi əhəmiyyətə malik olur. Məsələn, dövlət tərəfindən hər hansı digər dövlətin tanınması barədə verilən bəyanat məhz bu cür xüsusiyyətə malikdir^ və ona görə də, birtərəfli tənzimetmə metodu sayılır. Lakin, dövlətlərin elə birtərəfli aktlan vardır ki, belə aktlar məcburi davranış qaydalarmı müəyyənləşdirmir; bu səbəbdən də, onları birtərəfli tənzimetmə metodu hesab etmək olmaz. Məsələn, dövlət hər hansı xarici dövlətin hərəkətlərinə etiraz etmək barədə bəyanat verir və s.

İkitərəfli tənzimetmə metodu dövlətlərarası beynəlxalq münasibətlərin iki iştirakçısı arasındakı qarşılıqlı əlaqələrə tətbiq olunur;

**1** ***Doha dtrafli:*** **Лукашук И.И. Международное право. Учебник. Общая часть. М., 2005, с.123-128.**

**2 Cassese A. International Law. Oxford, 2001, p. 150-151.**

bu metod beynəlxalq investisiya hüququnun (beynəlxalq investisiya hüququ beynəlxalq iqtisadi hüququnun yanmsahələrindən biridir) başlıca tənzimetmə metodu sayılır.

Çoxtərəfli tənzimetmə metodu dövlətlərarası beynəlxalq münasibətlərin çoxsaylı iştirakçılan arasmda qarşılıqlı münasibətlərə tətbiq olunur. Bu növ tənzimetmə metodu, əsasən, beynəlxalq təşkilatlar (məsələn, BMT, BVF, ÜTT, BYİB, ATƏT, ŞAMT və s.) və yaxud regional inteqrasiya birlikləri (məsələn, Avropa İttifaqı və s.) çərçivəsində həyata keçirilir; həmin metod ya universal səviyyədə (universal çoxtərəfli tənzimetmə metodu), ya da regional səviyyədə (regional çoxtərəfli tənzimetmə metodu) tətbiq oluna bilər. Çoxtərəfli tənzimetmə metodu universal səviyyədə, xüsusən də, ÜTT sistemində tətbiq olunur; bu universal beynəlxalq təşkilatın yaradılması ilə dövlətlərarası ticarət münasibətlərinin ikitərəfli tənzimetmə metodu çoxtərəfli tənzimetmə metodu ilə əvəz olunmuşdur.

Beynəlxalq hüquqa həm də fovqəlmilli tənzimetmə metodu məlumdur.' Fövqəlmilli tənzimetmə metodu dedikdə fovqəlmilli hüquq vasitəsilə tətbiq edilən nizamasalma üsulu başa düşülür. Fövqəlmilli hüquq isə dövlətdaxili (milli) hüquqlardan üstün olan hüquqdur; biz, onu şərti termin kimi işlədirik.

Bildiyimiz kimi, dövlətlərarası beynəlxalq təşkilatların üzvləri dövlətlərdən ibarətdir; üzv olmaqla dövlətlər öz hakimiyyət səlahiyyətlərinin bir hissəsini həmin təşkilatlara vermiş olurlar. Buna görə də, beynəlxalq təşkilatlar onların üzvü olan suveren dövlətlərə münasibətdə müstəqil sərəncam səlahiyyətlərinə malik olurlar. Hətta onlar öz nizamnaməsinə əsasən, konkret hərəkətləri (qərarlan) ilə üzv-dövlətlərin üzərinə müəyyən vəzifələr (öhdəliklər) qoya bilirlər. Xüsusilə qeyd etməliyik ki, beynəlxalq təşkilatlann qəbul etdikləri normativ hüquqi aktlann üzv-dövlətlər üçün məcburi hüquqi qüvvəsi vardır; həmin aktlar əsasında onlann aynca

**1 Шумршов В.М. Международное экономическое право в эпоху глобализации. М., 2003, с. 22.**

hüququ formalaşır (məsələn, ÜTT hüququ, BVF hüququ və s.). Məhz belə hüquq fovqəlmilli hüquq adlanır. Əgər fövqəlmilli hüquqla üzv-dövlətlərin daxili (milli) hüququ arasında beynəlxalq təşkilatın (məsələn, ÜTT-nin) səlahiyyətinə aid olan məsələdə ziddiyyət yaranarsa, onda fovqəlmilli hüquq norması tətbiq edilir; dövlətdaxidi (milli) hüquq norması isə dəyişilməlidir.

BVF hüququna aid çoxsaylı normalar fövqəlmilli xarakterə malikdir. Elə məsələlər vardır ki, bu məsələlər barədə (onlann sayı 40-dan çoxdur) BVF-nin qəbul etdiyi qərarları üzv-dövlətlər məcburi olaraq icra etməlidirlər. Buna görə də, BVF hüququna fövqəlmilli tənzimetmə metodu xasdır.

Fövqəlmilli tənzimetmə metodu həm də inteqrasiya birliklərinin hüquqi nizamasalma mexanizmində tətbiq olunur. Söhbət, hər şeydən əvvəl, Avropa İttifaqı kimi inteqrasiya birliyinin fəaliyyətindən gedir.* Bu birliyin orqanları üzv-dövlətlər üçün məcburi olan və birbaşa tətbiq edilən hakimiyyət xarakterli aktlar qəbul etmək səlahiyyətinə malikdir; bu aktlann hüquqi qüvvəsi üzv- dövlətlərin daxili (milli) hüququndan üstündür; həmin aktlann vasitəsi ilə həyata keçirilən nizamasalma üsulu fovqəlmilli tənzimetmə metodu sayılır. Bu metoddan, bir qayda olaraq, beynəlxalq iqtisadi inteqrasiya münasibətlərinin tənzimlənməsində istifadə olunur. Buna görə də, fovqəlmilli tənzimetmə metodu beynəlxalq iqtisadi hüququn əsas nizamasalma üsulu sayılır.

Hansı normalarm köməyi ilə nizamlamasından asılı olaraq, beynəlxalq hüquqda tənzimetmə metodunun iki növü fərqləndirilir:

- beynəlxalq-hüquqi tənzimetmə metodu;
- siyasi-mənəvi tənzimetmə metodu.

Beynəlxalq-hüquqi tənzimetmə metodu dedikdə beynəlxalq hüquq normalannm (beynəlxalq müqavilə və beynəlxalq adət hüquq normalannm) vasitəsilə tətbiq olunan nizamasalma üsulu

**1** ***Bu barədə ətraflı bax:*** **Avropa hüququ. Dərslik E.Ə.Əliyevin ümumi redaktəsi ilə. Bakı, 2016, §6.2.**

başa düşülür. Beynəlxalq hüquq özünün nizama saldığı dövlətlərarası münasibətlərə, xüsusilə, beynəbcalq müqavilə normalanmn vasitəsilə tətbiq olunan tənzimetmə metodu ilə təsir göstərir. Bununla yanaşı, dövlətlərarası münasibətlərin hüquqi tənzimetmə mexanizmində beynəlxalq-adət hüquq normaları da mühüm yer tutur.

Siyasi-mənəvi tənzimetmə metodu dedikdə beynəlxalq hüquq normaları sayılmayan davramş qaydalan vasitəsilə həyata keçirilən nizamasalma üsulu başa düşülür. Beynəlxalq hüquq normalan sayılmayan davranış qaydalarına isə, ilk növbədə, hər şeydən əvvəl, siyasi-mənəvi normalar aiddir. Siyasi-mənəvi normalar dedikdə «mülayim hüquq» normalan başa düşülür. Təbii ki, öncə «mülayim hüquq nədir?» sualına cavab verməliyik.

Qeyd etmək lazımdır ki, son zamanlar (son 20-30 illər ərzində) «mülayim hüquq» kimi konsepsiya inkişaf etmişdir. «Mülayim hüquq»* dedikdə məcburi hüquqi qüvvəsi olmayan və beynəlxalq müqavilə sayılmayan tövsiyə xarakterli beynəbcalq aktlar (beynəbcalq təşkilat və orqanlann qətnamələri, birgə bəyanatlar, rəsmi məlumatlar və s.) başa düşülür (məsələn, keçən yüzilliyin 40-cı illərində antihitler koalisiyası ölkələrinin keçirdikləri konfranslann qərarlan; ATƏT-in sənədləri və s.). Belə aktlar beynəlxalq-normativ hüquqi aktlar hesab edilmir; həmin aktlarda beynəlxalq hüquq normalan deyil, siyasi-mənəvi normalar ifadə olunur. Buna görə də onlann məcburi hüquqi qüvvəsi yoxdur. Lakin, buna baxmayaraq, «mülayim hüquq» normalanmn böyük mənəvi-siyasi gücü və qüvvəsi vardır. Belə ki, həmin normalar məcburi hüquqi qüvvəsi olan beynəlxalq hüquq normaları ilə eyni dərəcədə dövlətlərarası beynəlxalq münasibət iştirakçılanna siyasi-mənəvi təsir etmək xüsusiyyətinə malikdir. Digər tərəfdən, «mülayim hüquq» normalan əsasında dövlətlərin praktikası vasitəsilə beynəlxalq-adət hüquq normalan yarana bilər.^

1 URL:http://www.enc-dic.com

2 **Sheiton D. Normative Hierarchy in International Law //American Journal of International Law. Vol.lOO, 2006, № 2, p.292; həmçinin URL:http://www. books.google.ru**

«Mülayim hüquq» normalannm, xüsusilə, beynəlxalq təşkilat və orqanların fəaliyyəti üçün böyük əhəmiyyəti vardır; beynəlxalq təşkilat və orqanların fəaliyyəti sayəsində isə beynəlxalq münasibətlərin geniş dairəsi tənzimlənir.

«Böyük Səkkizlik» (ABŞ, Almaniya, Fransa, Böyük Britaniya, Kanada, Yaponiya, İtaliya və Rusiya Federasiyası) çərçivəsində qəbul olunan sənədlərdə də «mülayim hüquq» normaları ifadə edilir; bu normalar məcburi-hüquqi əhəmiyyətə malik olmasa da, dövlətlərarası beynəlxalq münasibətlər sistemində böyük rol oynayır. Belə ki, «Böyük Səkkizlibı beynəlxalq təhlükəsizlik, iqtisadi, maliyyə, beynəlxalq mübahisələrin həlli, beynəlxalq cinayətkarlıqla (beynəlxalq korrupsiya və rüşvətxorluq, terrorizm, narkobiznes, «çirkli» pulların yuyulması və digər təhlükəli cinayətlərlə) mübarizə və başqa sahələrdə vacib beynəlxalq məsələlər barədə müvafiq qərarlar qəbul edir; həmin qərarlar məcburi hüquqi qüvvəyə malik olmasa da, beynəlxalq münasibətlərin tənzimlənməsinə böyük təsir göstərir.

«Mülayim hüquq» normaları vasitəsilə həyata keçirilən tən- zimetmə metodu tövsiyə xarakterli nizamasalma üsuludur; o, siyasi-mənəvi nizamasalma metodu hesab edilir. Buna görə də, həmin metod beynəlxalq-hüquqi tənzimetmə vasitəsi sayılmır.

«Mülayim hüquq» normalannın hüquqi təbiətinə və xarakterinə alimlərin baxışlan müxtəlifdir. Bu, beynəlxalq hüquq doktrinasında (elmində) mübahisəyə səbəb olan məsələlərdən biridir.

Bəzi müəlliflər hesab edirlər ki, beynəlxalq hüquqa həm də, eyni zamanda, transmilli hüquq vasitəsilə tənzimetmə metodu xasdır.[1] Transmilli hüquq konsepsiyasının əsasını keçən yüzilliyin 50-ci illərində amerikalı alim F.S.Cessun qoymuşdur. Bu konsepsiyanın mahiyyəti ondan ibarətdir ki, beynəlxalq münasibət işti- rakçılannm özləri hüquq normalan müəyyənləşdirirlər və bu normalar nə daxili hüquq, nə də beynəlxalq hüquq normalandır; on-

**1 Шумилов В.М. Международное OKOHONraneсКое право.Учебник. Ростов-на Дону, 2003, с.20.**

lar xüsusi normalar olub, transmilli hüququ əmələ gətirir. Transmilli hüquq isə beynəlxalq və daxili hüquqi tənzimetmə sistemlərindən aynca mövcud olan yeni «muxtao> tənzimetmə sistemidir.'

Dünyada yalnız iki hüquqi tənzimetmə sistemi mövcuddur ki, bunlardan biri beynəlxalq hüquq, digəri isə milli (dövlətdaxili) hüquq adlanır. «Transmilli hüquq» kimi heç bir yerdə sistemləşdirilməyən və hüquqi cəhətdən təsbit olunmayan aynca («muxtar») hüquq sisteminin mövcudluğundan söhbət gedə bilməz. Ona görə ki, transmilli hüquq, əsasən, milli (dövlətdaxili) hüquq sistemlərinin beynəlxalq ticarət (kommersiya) əqdiərini və xarici iqtisadi əməliyyatları tənzimləyən aynca normalar kompleksidir. Bıma görə də, zənnimizcə, transmilli hüquq beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası tənzimetmə mexanizmində metod kimi tətbiq edilə bilməz.

**1 Шумилов В.М. Глобализация мировой экономики и глобальная провавая система // Внешнеэкономический бюллетень. 2003, № 8, с.78.**

# II FƏSİL. BEYNƏLXALQ HÜQUQ - ELMİ MƏNADA VƏ TƏDRİS KURSU KİMİ

## 2.1. Elmi mənada beynəlxalq hüququn anlayışı, predmeti və sistemi

### 2.1.1. Elmi mənada beynəlxalq hüququn anlayışı

Biz, bu əsərin I fəslində obyektiv mənada beynəlxalq hüquqdan danışdıq; həmin fəsildə obyektiv mənada beynəlxalq hüququn nizamasalma predmeti və metodu, onun funksiyaları və sistemi kimi vacib məsələlərə aydmiıq gətirildi. İndi isə elmi mənada, habelə tədris kursu (fənni) mənasında beynəlxalq hüquq barədə söhbətimizi davam etdirəcəyik. Belə ki, beynəlxalq hüquq obyektiv mənadan başqa, həm də, eyni zamanda, elmi və tədris kursu (fənni) kimi mənalarda işlədilir. Yeri gəlmişkən, qeyd etməliyik ki, son dövrlərdə yazılan əsərlərdə nə elmi mənada, nə də tədris kursu (fənni) mənasında beynəlxalq hüquqa dair məsələyə aydınlıq gətirilir.[1] Halbuki həm elmi, həm də tədris kursu (fənni) kimi mənalarda beynəlxalq hüquq kifayət dərəcədə hüquqi əhəmiyyətə malik olan vacib və aktual məsələ sayılır. Odur ki, gələcəkdə qələmə alınacaq dərsliklərdə elmi və tədris kursu (fənni) kimi mənalarda beynəlxalq hüquq mövzusuna toxunulmasını və həmin mövzunun tam işıqlandırılmasını zəruri cəhət sayınq. Düzdür, müasir dərsliklərdə «elmi mənada beynəlxalq hüquq» və «tədris kursu (fənni) mənasında beynəlxalq hüquq» anlayışları işlədilsə

**1 Söhbət, hər şeydən əwel, V.M.Şumilovun yazdığı dərslikdən gedir. O, beynəlxalq hüququn elmi və tədris fənni kimi mənalar ifadə etdiyini göstərsə də, həmin məsələlərə aydınlıq gətirmir *(bax:* Шумилов В.М. Международное право.Учебник. М., 2008, с. 163-164).**

də, ancaq onlann mahiyyəti ətraflı açıqlanmır. Buna görə də, hər şeydən öncə, biz, elmi mənada beynəlxalq hüquqa, başqa sözlə, beynəlxalq hüquq elminə anlayış verməliyik; əvvəlki fəsildə göstərdiyimiz kimi, ona beynəlxalq hüquq doktrinası da deyilir. Deməli, «beynəlxalq hüquq elmi» və «beynəkalq hüquq doktrinası» eynimənalı (sinonim), mənaca bir-birilə üst-üstə düşən anlayışlardır.

Qeyd etmək lazımdır ki, obyektiv mənada beynəlxalq hüququn öz nizamasalma predmetinə daxil olan dövlətlərarası münasibətləri hüquqi cəhətdən tənzimləməsi bütöv bir mexanizm deməkdir; ona beynəlxalq-hüquqi tənzimetmə mexanizmi deyilir. Beynəlxalq- hüquqi tənzimetmə mexanizmi dedikdə dövlətlərarası münasibətlərə göstərilən təsirin beynəlxalq-hüquqi üsul və vasitələrinin məcmusu başa düşülür. Qeyd etməliyik ki, dövlətlərarası münasibətləri beynəlxalq-hüquqi tənzimetmənin öz obyektiv qanunauyğunluqları vardır. Şübhəsiz, həmin qanunauyğunluqlar alimlərin və praktiki işçilərin fikirləri əsasında öyrənilir, tədqiq olunur; həmin fikirlərin məcmusuna beynəlxalq hüquq elmi və ya beynəlxalq hüquq doktrinası deyilir.

Beynəlxalq hüquq elmi (doktrina) dedikdə dövlətlərarası münasibətləri beynəlxalq-hüquqi tənzimetmə mexanizminin obyektiv qanunauyğunluqlanm öyrənən fikirlərin məcmusu başa düşülür.

Beynəlxalq hüquq elmini obyektiv mənada beynəlxalq hüquqdan ayırmaq, onlan bir-birilə qanşdırmamaq lazımdır. Bir neçə əlamət əsasında onlann fərqləndirilməsi, aralarında hədd qoyulması mümkündür.

Birinci, obyektiv mənada beynəlxalq hüquq və beynəlxalq hüquq elmi bir-birindən predmetlərinə görə fərqlənir. Belə ki, bildiyimiz kimi, obyektiv mənada beynəlxalq hüququn predmeti belə bir suala cavab verir: beynəlxalq hüquq nəyi, hansı növ beynəlxalq münasibətləri tənzimləyir və nizama salır? Beynəlxalq hüquq elminin predmetinə gəldikdə isə, qeyd etməliyik ki, onun predmeti belə bir suala cavab verir: beynəlxalq hüquq elmi nəyi

öyrənir, hansı məsələni tədqiq edir? Əgər obyektiv mənada beynəlxalq hüquq nizamasalma (tənzimetmə) predmetinə malikdirsə, beynəlxalq hüquq elminin də tədqiqetmə (öyrənmə) predmeti vardır. Obyektiv mənada beynəlxalq hüququn nizamasalma {tənzimetmə) predmeti, məlum olduğu kimi, dövlətlərarası beynəlxalq münasibətlərdən ibarətdir; beynəlxalq hüquq elminin isə tədqiqetmə predmetini beynəlxalq-hüquqi tənzimetmə mexanizminin obyektiv qanunauyğunluqları təşkil edir.

İkinci, onlar bir-birindən öz funksiyalarına görə fərqlənirlər. Belə ki, qeyd etdiyimiz kimi, obyektiv mənada beynəlxalq hüququn başlıca funksiyası dövlətlərarası münasibətləri tənzimləməkdən ibarətdir (İ.İ.Lukaşuk).’ Beynəlxalq hüquq elmi isə beynəlxalq- hüquqi tənzimetmə mexanizmini tədqiq etmək (öyrənmək) kimi əsas funksiyanı yerinə yetirir. Əgər obyektiv mənada beynəlxalq hüquq dövlətlərarası münasibətləri tənzimləyirsə, beynəlxalq hüquq elmi həmin münasibətləri beynəlxalq-hüquqi tənzimetmə mexanizmini tədqiq edir, öyrənir.

Üçüncü, onlar bir-birindən sisteminə görə fərqlənir. Bildiyimiz kimi, obyektiv mənada beynəlxalq hüququn formal surətdə, normativ qaydada müəyyənləşdirilmiş sistemi mövcud deyildir. Buna görə də, obyektiv mənada beynəlxalq hüququn yalnız elmi sistemindən, yəni beynəlxalq hüquq elmi tərəfindən müəyyən edilən sistemindən danışmaq olar. Lakin, buna baxmayaraq, hər necə olsa da, obyektiv mənada beynəlxalq hüququn sistemi obyektiv xarakter daşıyır. Beynəlxalq hüquqa dair ədəbiyyat səhifələrində obyektiv mənada beynəlxalq hüququn məhz bu cəhətinə xüsusi diqqət yetirilmişdir.^ Beynəlxalq hüquq barədə

**1 Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, С.1.**

**2 Курс международного права /Глав. ред. В.Н.Кудрявцев. М., 1989, Том 1, С.242; Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М., 2008, С.32; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008, с.31.**

yazan bütün müəlliflər, demək olar ki, birmənalı şəkildə göstərirlər ki, beynəlxalq hüququn sistemi obyektiv əsasa malikdir.*

Beynəlxalq hüquq elminin sisteminə gəldikdə, qeyd etməliyik ki, o, obyektiv xarakter daşımır. Belə ki, beynəlxalq hüquq elminin sistemi beynəlxalq hüquq üzrə mütəxəssis alimlərin, ümumiyyətlə, beynəlxalq hüquq barədə yazan müəlliflərin elmi fikirlərinin nəticəsidir. Deməli, o, obyektiv mənada beynəlxalq hüququn sistemindən fərqli olaraq, subyektiv xarakter daşıyır. Başqa sözlə, beynəlxalq hüquq elmi müəlliflərin (alimlərin) subyektiv mülahizələri əsasında obyektiv mənada beynəlxalq hüququn şərh olunması və izah edilməsidir. Buna görə də, ayrı-ayrı müəlliflər (alimlər) beynəlxalq hüquq elminin bir-birindən fərqli, müxtəlif sistemlərini təklif edə bilərlər. Lakin, buna baxmayaraq, necə olsa da, beynəlxalq hüquq elminin sistemi obyektiv mənada beynəlxalq hüququn sisteminə əsaslanır və onunla müəyyən olunur.^ Amma «beynəlxalq hüquq elminin sistemi» və «obyektiv mənada beynəlxalq hüququn sistemi» kimi iki anlayışı eyniləşdirmək olmaz.

Dördüncü, onlar bir-birindən tərkibinə görə fərqlənirlər. Belə ki, qeyd etdiyimiz kimi, obyektiv mənada beynəlxalq hüquq beynəlxalq hüquq normalanndan ibarətdir. Beynəlxalq hüquq elminin tərkibcə nədən ibarət olmasına gəldikdə isə, qeyd etməliyik ki, o, elmi-nəzəri fikirlərin məcmusudur. Bir az öncə qeyd etdik ki, beynəlxalq hüquq elmi beynəlxalq-hüquqi tənzimetmənin qanu- nauyğunluqlanm öyrənir. Bu öyrənmə nəticəsində obyektiv mənada beynəlxalq hüquq haqqında nəzəriyyə - beynəlxalq hüquq nəzəriyyəsi formalaşır.^ Beynəlxalq hüquq nəzəriyyəsi isə bir-biri ilə qarşılıqlı əlaqədə olan anlayışların, elmi mühakimə, mülahizə, nəticə, baxış, şərh, postulat, hipoteza, tezis, müddəa, aksiom, fərziyyə və konsepsiyaların sistemidir.

1 ***Məsələn, bax:*** **Международное право. Учебник / Отв.ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 15.**

2 **Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черни- ченко. М., 2008, с.31.**

3 ***Məsələn, bax:*** **Тункин Г.И. Теория международного права. М., 1970; Черниченко С.В. Теория международного права. В 2-х томах. М., 1999.**

Beşinci, onlar bir-birindən bütün dövlətlər üçün ümumi və vahid olmaq baxımından fərqlənir. Belə ki, bütün dövlətlər üçün ümumi və vahid olan beynəlxalq hüquq elmi yoxdur. Hər bir dövlətdə aynca beynəlxalq hüquq elmi mövcuddur. Məsələn, Rusiyamn beynəlxalq hüquq elmi, Almaniyanın beynəlxalq hüquq elmi, Fransanın beynəlxalq hüquq elmi, Azərbaycanın beynəlxalq hüquq elmi və s. Bu gün dünyada təxminən 220-yə yaxm dövlət və dövlətəoxşar qurumlar vardır və onların hər birində beynəlxalq hüquq elmi formalaşmışdır.

Obyektiv mənada beynəlxalq hüquqa gəldikdə isə, qeyd etməliyik ki, o, bütün dövlətlər üçün ümumi və vahiddir. Buna görə də, əgər ABŞ-m, Almaniyanın, Azərbaycanın, Fransanın, İtaliyanın, Rusiya Federasiyasının və s. ölkənin öz beynəlxalq hüququna malik olması barədə fikir söyləmiş olsaq, belə fikir səhv və yanlış olardı. Ona görə ki, dünyada mövcud olan bütün dövlətlər üçün yalnız bir universal dövlətlərarası hüquq sistemi vardır ki, o, obyektiv mənada beynəlxalq hüquq və ya sadəcə olaraq, beynəlxalq hüquq adlanır.

Beynəlxalq hüquq elminin, ilk növbədə, böyük nəzəri əhəmiyyəti vardır; çünki beynəlxalq hüquq, hər şeydən əv\'əl, nəzəri elmdir. Belə ki, o, beynəlxalq-hüquqi tənzimetmə mexanizminin qanıma- uyğunluqlarını izah edir, obyektiv mənada beynəlxalq hüququn bütün anlayışlannın şərhini verir və onlann mahiyyətinə aydınlıq gətirir. Elə məsələlər vardır ki, obyektiv mənada beynəlxalq hüquq onlara leqal (normativ) anlayış vermir (məsələn, beynəlxalq hüquq subyektliyinə, beynəlxalq hüququn mənbələrinə, beynəlxalq hüquq məsuliyyətinə, beynəlxalq hüququn əsas prinsiplərinə, beynəlxalq hüququn sahələrinə və digər məsələlərə). Belə halda beynəlxalq hüquq elminin köməyindən istifadə olunur. Həmin məsələlərin hüquqi tərifini məhz beynəlxalq hüquq elmi verir. İnqilabaqədərki Rusiya alimi, Sankt-Peterburq Universitetinin professoru F.F.Martensin haqlı mövqeyinə görə, beynəlxalq hüquq elmi həmişə beynəlxalq adətlərin əsl və həqiqi mənasım müəyyənləşdirməyin (aydınlaşdırmağın) vacib vasitəsi olmuşdur; buna

görə də, o, mübahisəsiz olaraq, beynəlxalq hüququn mənbələri sırasına aiddir.'

Beynəlxalq hüquq elmi həm də, eyni zamanda, praktiki əhəmiyyətə malikdir. Belə ki, o, nəzəri elm olmaqdan savayı, həm də tətbiqi elm kimi tanmır. Nəzərə almalıyıq ki, beynəlxalq hüquq elmi beynəlxalq hüquq normalannın praktikada necə tətbiq olunmasını da öyrənir və ümumiləşdirmələr apanr.^

Hüquqtətbiqetmə orqanlan öz fəaliyyətlərində müəyyən hallarda beynəlxalq hüquq elminin köməyinə bel bağlayır. BMT-nin Beynəlxalq Məhkəməsi qərar çıxaran və müvafiq məsələ barədə rəy tərtib edən zaman, bəzən, beynəlxalq hüquq elmindən istifadə edir. Qeyd etməliyik ki, beynəlxalq məhkəmə və tribunallann qərarlannda, habelə BMT-nin Beynəlxalq Hüquq Komissiyasının sənədlərində tanınmış alimlərin elmi əsərlərinə istinad etmək praktikası geniş yayılmışdır. Təsadüfi deyil ki, Beynəlxalq Məhkəmə Statutunun 38-ci maddəsi beynəlxalq hüquq elmini beynəlxalq hüququn mənbə növlərindən biri kimi nəzərdə tutur. Belə ki, həmin maddəyə görə, Beynəlxalq Məhkəmə mübahisələrə baxarkən beynəlxalq hüquq doktrinasını (elmini) tətbiq edə bilər.

Güman edirik ki, beynəlxalq hüquq doktrinası (elmi), xüsusən də beynəlxalq hüquq sahəsində tanmımş alimlərin elmi əsərləri bundan sonra da məhkəmələr tərəfindən beynəlxalq hüquq sahəsində qərarlar qəbul edilərkən müəyyən rol oynamaqda davam edəcəkdir. Məhkəmə qərarlarında doktrinadan istifadə olunması bu və ya digər hüququn mövcudluğunu sübut etmək məqsədinə xidmət edir.^

**1 Мартенс Ф.Ф. Современное международное право цивилизованных народов. Том 1. М., 1996, с. 151 (bu əsərin 1-ci cildi ilk dəfə 1882-ci ildə Sankt-Peterburqda nəşr olunmuşdur).**

**2 Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 163.**

**3 Оппенгейм Л. Международное право. Том 1. Полутом 1. Пер. с анг. М., 1948. С.52.**

## 2.1.2. Beynəlxalq hüquq elminin tədqiqetmə predmeti və əsas vəzifələri

Qeyd etdik ki, beynəlxalq hüquq elmi beynəlxalq-hüquqi tənzimetmə mexanizminin qanunauyğunluqlannı öyrənir və tədqiq edir. Geniş və ümumiləşdirilmiş anlayış olan beynəlxalq-hüquqi tənzimetmə mexanizminin tərkibi isə ayrı-ayn elementlərdən ibarətdir. Buna görə də, təbii ki, beynəlxalq hüquq elmi həmin elementləri öyrənir. Məhz həmin elementlər onun tədqiqetmə (öyrənmə) predmetini təşkil edir. Beynəlxalq-hüquqi tənzimetmə mexanizminin tərkibcə hansı elementlərdən ibarət olmasına gəldikdə, qeyd etməliyik ki, bu mexanizmin tərkibinə aşağıdakı elementlər daxildir:'

- beynəlxalq hüquq norması;
- beynəlxalq hüquq münasibəti;
- hüquqi fakt.

Beynəlxalq hüquq norması beynəlxalq-hüquqi tənzimetmə mexanizminin tərkibinə daxil olan ilkin elementdir; o, həm də əsas element sayılır. Ona görə ki, obyektiv mənada beзməlxalq hüquq məhz beynəlxalq hüquq normalarından təşkil olunmuşdur; həmin normaların köməyi və vasitəsilə beynəlxalq hüququn nizamasalma predmetinə daxil olan dövlətlərarası münasibətlər tənzimlənir, başqa sözlə, beynəlxalq-hüquqi tənzimetmə mexanizmi həyata keçirilir. Məhz bu səbəbdən beynəlxalq hüquq elminin tədqiqetmə (öyrənmə) predmetini, hər şeydən əvvəl, beynəlxalq hüquq normalan təşkil edir. Qeyd etməliyik ki, beynəlxalq hüquq normalannm məzmununu hərtərəfli, əsaslı, mükəmməl və dərindən öyrənmək beynəlxalq hüquq elminin üzərinə düşən birinci növbəli (yəni birinci sırada duran, təxirəsalınmaz) aktual vəzifədir. Bu vəzifənin lazımınca yerinə yetirilməsi isə, əlbəttə, beynəlxalq hü-

1 **Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997, с.160-162; Шумилов В.М. Международное право. Учебник. М., 2008, с. 162.**

quq normalarının düzgün və bir cür başa düşülməsini, eləcə də onların beynəlxalq hüquq praktikasında bu və ya digər orqan (hü- quqtətbiqetmə orqanı, xüsusən də məhkəmələr) tərəfindən eyni şəkildə tətbiq olunmasını təmin edir.

Beynəlxalq hüquq elmi beynəlxalq hüquq normalannm anlayışmı verir və onları xarakterizə edən ayn-ayn hüquqi əlamətləri müəyyənləşdirir. O, həm də beynəlxalq hüquq normalarının yaradılması prosesini və struktur elementlərini izah edir. Bunlardan başqa, beynəlxalq hüquq elmi öz məzmun və formaları baxımından eyni olmayan beynəlxalq hüquq normalannm müxtəlif meyarlara görə elmi cəhətdən əsaslandınimış geniş hüquqi təsnifini verir; belə təsnifın isə, sözsüz, həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır.

Beynəlxalq hüquq elmi təkcə beynəlxalq hüquq normalannı öyrənməklə və tədqiq etməklə kifayətlənmir; onun tədqiqetmə predmetinə həm də, eyni zamanda, beynəlxalq-normativ hüquqi aktlar daxildir ki, belə aktlann (ilk növbədə, əsasən də, beynəlxalq müqavilələrin) məcmusu Qərb hüquq ədəbiyyatında «beynəlxalq qanunvericilik» adlanır. Belə ki, beynəlxalq hüquq elminin tədqiqat predmetinə daxil olan beynəlxalq hüquq normalan öz normativ ifadəsini ayrı-ayrı, müxtəlif beynəlxalq qanunvericilik aktlarmda tapır. Buna görə də, təbii ki, beynəlxalq hüquq elmi beynəlxalq hüquq normaları ilə yanaşı və bərabər, həm də onlann ifadə və əks olunduğu beynəlxalq qanunvericiliyi öyrənir; bu, onun qarşısında duran ümdə vəzifələrdən biridir. Beynəlxalq hüquq elmi beynəlxalq müqavilələrə anlayış verir və onlann tərəflərini (subyekt tərkibini) müəyyənləşdirir; o, həm də beynəlxalq müqavilələrin bağlanma, qüvvədə olma və xitam olunma qaydalannı izah edir.

Beynəlxalq hüquq münasibəti beynəlxalq hüquq elminin tədqiqat predmetinə daxil olan məsələlərdən biridir; o, beynəlxalq-hüquqi tənzimetmə mexanizminin digər əsas elementidir. Buna görə də, beynəlxalq hüquq münasibətini öyrənmək beynəlxalq hüquq elminin vacib vəzifələrindən biri sayılır; həm də ona görə ki, yalnız beynəlxalq hüquq normalannı və onlann ifadə olunduğu

beynəlxalq qanunvericiliyi öyrənmək be>'nəlxalq-hüquqi tənzimetmə mexanizmini düzgün başa düşmək üçün kifayət etmir. Bundan ötrü, eləcə də beynəlxalq hüquq normalarmın məzmununu düzgün dərk etmək üçün beynəlxalq hüquq münasibəti barədə elmi təsəvvürə malik olmaq lazımdır. Belə təsəvvürü isə bizdə yalnız beynəlxalq hüquq elmi yarada bilər.

Beynəlxalq hüquq elmi beynəlxalq hüquq münasibətlərinə anlayış verir, bu münasibətlərin iştirakçılannı (subyekt tərkibini) müəyyən edir və onlan ayrı-ayrı növlərə bölərək hüquqi cəhətdən təsnifləşdirir. Beynəlxalq hüquq münasibətlərinin strukturunu təşkil edən elementlər (struktur elementlər) də beynəlxalq hüquq elmi tərəfindən izah edilir.

Beynəlxalq hüquq münasibəti dövlətlərarası münasibətin hüquqi formasıdır. Belə ki, dövlətlərarası münasibətlərin beynəlxalq hüquq normalan ilə tənzimlənməsi nəticəsində onlar «beynəlxalq hüquq münasibətləri» kimi hüquqi forma alır. Fəlsəfi baxımdan, onlar arasında əlaqə «məzmun» və «forma» kimi kateqoriyalar arasındakı münasibətin eynidir. Belə ki, əgər dövlətlərarası münasibətlər məzmundursa, beynəlxalq hüquq münasibətləri formadır. Məzmun və forma daxili vəhdətdə, bir-birilə qarşılıqlı dialektik əlaqədə olan fəlsəfi kateqoriyalardır. Buna görə də, dövlətlərarası münasibətləri öyrənmədən beynəlxalq hüquq münasibətlərinin mahiyyətinə aydınlıq gətirmək qeyri-mümkündür. Odur ki, beynəlxalq hüquq elminin tədqiqat predmetinə həm də, eyni zamanda, dövlətlərarası münasibətlər daxildir. Spesifikliyi, özünəməxsusluğu ilə fərqlənən həmin münasibətləri beynəlxalq hüquq elmi obyektiv mənada beynəlxalq hüququn nizamasalma predmeti kimi müəyyən edir. Beynəlxalq hüquq elmi dövlətlərarası münasibətlərə anlayış verir və həmin münasibətlərdə iştirak etmək qabiliyyətinə malik olan subyektlərin, yəni dövlətlərarası münasibət iştirakçılarının dairəsini müəyyənləşdirir. Beynəlxalq hüquq elmi əsaslandırır ki, dövlətlərarası münasibətlərdə yalmz beynəlxalq hüquq subyektlijmə malik olan subyektlər iştirak edə bilərlər, o, «beynəlxalq hüquq subyektliyi nədir?» sualma da cavab verir.

Beynəlxalq hüquq elminin tədqiqat predmetinə nəinki dövlətlərarası münasibətlər, həmçinin beynəlxalq hüquq normalannm həmin münasibətlərə təsir göstəmıək mexanizmi daxildir. Bildiyimiz kimi, beynəlxalq hüquq normalan və bu normalann tənzimlədiyi dövlətlərarası münasibətlər arasında qarşılıqlı əlaqə mövcuddur; həmin əlaqənin qanunauyğunluqlarını öyrənmək və müəyyənləşdirmək (aydınlaşdırmaq) beynəlxalq hüquq elminin başlıca vəzifələrindən biridir.

Beynəlxalq hüquq elminin tədqiqat predmetinə həm də hüquqi faktlar daxildir; hüquqi faktları öyrənmək onun vəzifələrindən biri sayılır. Ona görə ki, beynəlxalq dövlətlərarası hüquq münasi- bətlənnin mahiyyətini başa düşmək üçün hüquqi faktlar mühüm əhəmiyyət kəsb edir; həmin münasibətlər məhz onlann əsasında əmələ gəlir. Başqa sözlə, hüquqi faktlar dövlətlərarası beynəlxalq hüquq münasibətlərinin yaranma əsaslarından biridir. Bu səbəbdən beynəlxalq hüquq elmi onlan tədqiq edir, öyrənir. Bunun nəticəsində o, hüquqi faktların elmi cəhətdən əsaslandınimış təsnifini verir ki, belə təsnifm həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Həmin təsnif, xüsusən də beynəlxalq hüququn, eləcə də beynəlxalq qanunvericiliyin təkmilləşdirilməsi və inkişafı baxımından əhəmiyyətlidir.

Nəhayət, beynəlxalq hüquq elminin tədqiqat predmetinə beynəlxalq hüquq normalarının tətbiqi praktikası daxildir. Belə ki, bu praktikanı öyrənmək nəticəsində beynəlxalq qanunvericilikdə mövcud olan hüquqi boşluq və çatışmazlıq üzə çıxır, müəyyən olunur; bu boşluq və çatışmazlığı aradan qaldırmaq üçün beynəlxalq hüquq elmi beynəlxalq qanunvericiliyin və onun tətbiqi praktikasının təkmilləşdirilməsinə yönələn lazımi elmi təkliflərlə müvafiq beynəlxalq qurumlar qarşısında çıxış edir. Buna görə də, beynəlxalq hüquq normalarının tətbiq praktikasını öyrənmək beynəlxalq hüquq elminin üzərinə düşən vacib vəzifələrdən biridir; həm də ona görə ki, hüquq normalarının tətbiqi praktikasını öyrənmək beynəlxalq hüquq normaları və onlann tənzimlədiyi dövlətlərarası münasibətlər arasında mövcud olan qarşılıqlı əlaqənin qanunauy- ğunluqlannm aydınlaşdınimasına imkan verir.

Bir az əvvəldə qeyd etdiyimiz kimi, hər bir ölkənin öz beynəlxalq hüquq elmi vardır (Rusiyanın beynəlxalq hüquq elmi, İtaliyanın beynəlxalq hüquq elmi, Almaniyanın beynəlxalq hüquq elmi və s.). İstənilən ölkənin beynəlxalq hüquq elmi, aydın məsələdir ki, başqa ölkələrin beynəlxalq hüquq elminin qabaqcıl təcrübəsini və nailiyyətlərini nəzərə almadan inkişaf edə bilməz. Buna görə beynəlxalq hüquq elminin tədqiqat predmetinə həm də başqa ölkələrin beynəlxalq hüquq elmi daxildir. Şübhəmiz yoxdur ki, ayn-ayrı ölkələrdə (Almaniyada, İtaliyada, ABŞ-da və s.) formalaşmış beynəlxalq hüquq konsepsiyalan barədə təsəvvürə malik olmağın yalnız əhəmiyyəti və faydası ola bilər.'

Beynəlxalq hüquq elmi göstərilənlərdən başqa, həm də beynəlxalq hüququn tarixini, habelə onun inkişaf perspektivini öyrənir. Buna görə onun tədqiqat predmetinə beynəlxalq hüququn tarixi və onun gələcək inkişaf perspektivi də daxildir.

### 2.1.3. Beynəlxalq hüquq elminin sistemi

Beynəlxalq hüquq elmi beynəlxalq-hüquqi tənzimetmə mexanizmi barədə, başqa sözlə, obyektiv mənada beynəlxalq hüquq barədə elmi məlumatların məcmusudur; həmin məlumatlara beynəlxalq-hüquqi biliklər deyilir.

Beynəlxalq-hüquqi biliklər qarma-qanşıq şəkildə deyil, müəyyən ardıcıllıqla yerləşir. Belə yerləşmə beynəlxalq hüquq elminin sistemi adlanır.

Beynəlxalq hüquq elminin sistemi dedikdə obyektiv mənada beynəlxalq hüquq barədə elmi məlumatlann, yəni beynəlxalq-hüquqi biliklərin müəyyən ardıcıllıqla yerləşməsi başa düşülür. Bu biliklər ya beynəlxalq hüququn ümumi (məsələn, beynəlxalq hüquq

1 ***Ayn-ayrı ölkəhrin beynəlxalq hüquq konsepsiyalan barədə bax:*** **Антонов И.П. Германская концепция международного права. Воронеж, 2006; Лу- кашук И.И. Международное право. Учебник. Особенная часть. М., 1998, с.321-327; Шумилов В.М. Международное право. Учебник. М., 2008 (IV раздел, га. 11-13).**

subyektliyinə, beynəlxalq hüququn mənbələrinə və s.), ya da xüsusi məsələlərinə (məsələn, beynəlxalq hüququn sahələrinə və s.) aid olur. Bu baxımdan, beynəlxalq hüquq ehni iki hissədən ibarətdir;

- ümumi hissə;
- xüsusi hissə.

Belə bölgü obyektiv mənada beynəlxalq hüququn ümumi və xüsusi hissə kimi iki yerə bölünməsinə uyğundur. Axı, beynəlxalq hüquq elminin sistemi obyektiv mənada beynəlxalq hüququn sistemi ilə müəyyən edilir.

Beynəlxalq hüquq elminin ümumi hissəsi dedikdə obyektiv mənada beynəlxalq hüququn ümumi məsələləri barədə beynəlxalq- hüquqi biliklərin məcmusu başa düşülür. Həmin məsələlərə aiddir:

- obyektiv mənada beynəlxalq hüququn nizamasalma predmeti və metodu;
- obyektiv mənada beynəlxalq hüququn funksiyaları və sistemi;
- obyektiv mənada beynəlxalq hüququn əsas prinsipləri;
- obyektiv mənada beynəlxalq hüququn subyektləri;
- obyektiv mənada beynəlxalq hüququn mənbələri;
- obyektiv mənada beynəlxalq hüquq və dövlətdaxili (milli) hüquq arasında qarşılıqlı əlaqə;
- beynəlxalq-hüquqi məsuliyyət;
- beynəlxalq mübahisələrin həlli;
- beynəlxalq hüquq normalan və onlann tətbiqi;
- beynəlxalq hüquq münasibətləri;
- beynəlxalq-normativ hüquqi aktlar (beynəlxalq qanunvericilik aktlan);
- beynəlxalq hüquqi faktlar və s.

Beynəlxalq hüquq elminin xüsusi hissəsi dedikdə obyektiv mənada beynəlxalq hüququn sahələrinə aid olan beynəlxalq- hüquqi biliklərin məcmusu başa düşülür. Belə ki, beynəlxalq hüquq elminin beynəlxalq hüququn ayn-ayn sahələrini (onlann ibarət olduğu yanmsahələri, hüquq institutlanm və beynəlxalq hüquq normalanm) öyrənməsi nəticəsində elmi biliklər formalaşır; bu biliklərin məcmusu beynəlxalq hüququn xüsusi hissəsi adlanır.

Beynəlxalq hüququn həm ümumi, həm də xüsusi hissəsinə aid olan beynəlxalq-hüquqi biliklər, bir qayda olaraq, adətən, «beynəlxalq hüquq kursu» kimi tədqiqat işində sistemləşdirilir, yəni sistem halına salmır.' «Beynəlxalq hüquq kursu» bütövlükdə obyektiv mənada beynəlxalq hüququn öyrənilməsinə həsr olunan və onun barəsində elmi biliklər verən əsərdir; onun tədris kursunu beynəlxalq hüquqdan fərqləndirmək lazımdır. Tədris kursu mənasında beynəlxalq hüquq tədris fənni (beynəlxalq hüquq dərsliyi) deməkdir.

Beynəlxalq hüquq kursu ümumi və xüsusi hissələrdən ibarətdir: onlar isə, öz növbəsində, fəsillərə, fəsillər paraqraflara bölünür və hər bir paraqrafda müəyyən konkret mövzu tədqiq olunur.

## 2.2. Tədris kursu mənasında beynəlxalq hüquq-beynəlxalq hüquq fənni kimi

### 2.2.1. Beynəlxalq hüquq fənninin anlayışı

Beynəlxalq hüquq ixtisası üzrə ali təhsil alan istəniln tələbə obyektiv mənada beynəlxalq hüququ, beynəlxalq qanunvericilik mənasında beynəlxalq hüququ, eləcə də beynəlxalq hüquq elmini (doktrinanı) dərindən bilməlidir. Bunu beynəlxalq hüquq sahəsində özünü gələcəkdə yüksək səviyyəli, savadlı və bilikli mütəxəssis kimi görmək istəyən hər kəs etməlidir. Məlum məsələdir ki, xarici əlaqələr sahəsində çalışan işçilərin, xüsusilə də diplomat və konsulların, öz fəaliyyətlərində beynəlxalq hüquqla əlaqəsi olan praktiki işçilərin, xarici siyasət sferasında çalışanlann, dünya iqtisadiyyatı və siyasəti ilə təmasda olan şəxslərin, beynəlxalq münasibət iştirakçılannm və digər kateqoriya subyektlərin həm obyektiv mənada beynəlxalq hüququ, həm də beynəlxalq hüquq elmini bilməsi vacibdir. Şübhəsiz, onlan bilmək xarici siyasi və beynəlxalq-hüquqi mövqelərin formalaşmasında böyük rol oynayır. Təbii ki, belə halda bir haqlı sual ortaya çıxır: obyektiv mənada

**1 *Məsələn, bax:* Курс международного права. М., 1972; Курс международного права. В 7 т. / Глав. ред. Н.В.Кудрявцев. М., 1989-1993.**

beynəlxalq hüququ, beynəlxalq qanunvericilik mənasında beynəbcalq hüququ, eləcə də beynəlxalq hüquq elmini nəyin vasitəsilə öyrənmək və bilmək olar?

Qeyd etmək vacibdir ki, obyektiv mənada beynəbcalq hüququ, beynəlxalq qanunvericilik mənasmda beynəlxalq hüququ, habelə beynəlxalq hüquq elmini bu və ya digər mənbənin vasitəsilə öyrənmək mümkündür. Beynəbcalq hüquq fənni məhz həmin mənbələrdən biridir və ona həm də beynəlxalq hüquq dərsliyi demək olar.

Beynəlxalq hüquq fənni (beynəlxalq hüquq dərsliyi) dedikdə obyektiv mənada beynəlxalq hüququ, beynəlxalq qanunvericilik mənasmda beynəlxalq hüququ, eləcə də beynəlxalq hüquq elmini tələbələrə öyrədən mənbə başa düşülür. Belə mənbənin köməyi və vasitəsilə həm obyektiv mənada beynəlxalq hüquq, həm beynəlxalq qanunvericilik mənasmda beynəlxalq hüquq, həm də beynəlxalq hüquq elmi barədə biliklərə yiyələnmək mümkün olur.

Beynəlxalq hüquq fənni həm obyektiv mənada beynəlxalq hüquqdan, həm də beynəlxalq hüquq elmindən fərqlənir; onlar arasında, əsasən, yerinə yetirdikləri vəzifəyə (funksiyaya) görə hədd qoyulur. Belə ki, obyektiv mənada beynəlxalq hüququn əsas vəzifəsi (funksiyası) dövlətlərarası münasibətləri tənzimləməkdən ibarətdir; obyektiv mənada beynəlxalq hüququ (beynəlxalq-hüquqi tənzimetmə mexanizminin elementlərini) tədqiq etmək və öyrənmək isə beynəlxalq hüquq elminin əsas vəzifəsi (funksiyası) sayılır. Beynəlxalq hüquq fənninin əsas vəzifəsi iki məsələni öyrətməkdən ibarətdir; bu məsələlərdən biri obyektiv mənada beynəlxalq hüquq, digəri isə beynəlxalq hüquq elmidir. Onun beynəlxalq hüquq elmini öyrətməsini başa düşmək olar; bu, məlum məsələdir. Belə ki, obyektiv mənada beynəlxalq hüququ oxucu auditoriyasına (tələbələrə, praktiki işçilərə və s.) dərindən öyrətmək, hər şeydən əvvəl, onun beynəlxalq hüquq elminin nəticələri ilə tanış olması tələb edilir; yalnız beynəlxalq-hüquqi elmi biliklərə yiyələnməklə obyektiv mənada beynəlxalq hüququ hərtərəfli, tam və əsaslı surətdə bilmək olar.

Beynəlxalq hüquq (obyektiv mənada) və beynəlxalq qanunvericilik mənasında beynəlxalq hüquq tənzimləyir; beynəlxalq hüquq elmi öyrənir və tədqiq edir; beynəlxalq hüquq fənni isə öyrədir.

Beynəlxalq hüquq fənni həm də beynəlxalq qanunvericilik mənasında beynəlxalq hüquqla əlaqəlidir. Bildiyimiz kimi, beynəlxalq qanunvericiliyin beynəlxalq ictimai həyatda yaranmış ayrı-ayrı hallara düzgün tətbiq olunmasının vacib əhəmiyyəti vardır. Buna görə də, beynəlxalq hüquq ixtisası üzrə təhsil alan tələbələr beynəlxalq qanunvericilik mənasmda beynəlxalq hüququ öyrənməli, beynəlxalq qanunvericiliyin tətbiq praktikasını bilməli, praktiki işləmək və fəalİ3^ət göstərmək vərdişlərinə malik olmalıdırlar. Belə vərdiş və bilikləri tələbələr məhz beynəlxalq hüquq fənninin köməyi ilə əldə edir, beynəlxalq qanunvericiliyin tətbiq praktikası ilə tanış olurlar.

### 2.2.2. Beynəlxalq hüquq fənninin sistemi

Beynəlxalq hüquq dərsliyinin (fənninin) sistemi obyektiv mənada beynəlxalq hüququn sistemi ilə müəyyən olunur. Bu səbəbdən beynəlxalq hüquq dərsliyi də iki hissəyə bölünür:' ümumi hissə; xüsusi hissə.

Beynəlxalq hüquq dərsliyinin ümumi hissəsi obyektiv mənada beynəlxalq hüququn, beynəlxalq qanunvericilik mənasında beynəlxalq hüququn və beynəlxalq hüquq elminin ümumi məsələlərini öyrədir. Be)məlxalq hüququn (obyektiv mənada) sahələrini, beynəlxalq qanunvericiliyi, habelə beynəlxalq hüquq elminin bu barədə biliklərini öyrədən bölmə isə beynəlxalq hüquq dərsliyinin xüsusi hissəsi adlanır.^

1 **Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черни- ченко. М., 2008, с.31; Международное право. Учебник /Отв. ред. Г.В.Иг- натенко, О.И.Тиунов. М., 2009, с.19.**

2 **İ.İ.Lukaşukun müəllifliyi ilə yazılan beynəlxalq hüquq dərsliyi iki hissədən ibarətdir: onun birinci hissəsi ümumi, digəri isə xüsusi hissə adlanır *{bax:* Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997; Особенная часть. Учебник. М., 1998).**

Hal-hazırda Rusiya Federasiyasında yazılan beynəlxalq hüquq dərsliklərinin sayı 20-dən çoxdur.' Onların əksəriyyəti məhz ümumi və xüsusi hissələrə bölünür;^ bəzi dərsliklərdə isə belə bölgüyə rast gəlmirik.^

Beynəlxalq hüquq dərsliyi ayrı-ayn müxtəlif mövzulardan ibarətdir; bir-birinə yaxın və oxşar olan eyni predmetli mövzular pa- raqraflarda, paraqraflar da, öz növbəsində, yarımbaşlıq və başlıqlarda, bunlar isə fəsillərdə birləşir; onlann məcmusuna bütövlükdə tədris (dərslik) materialı deyilir. Ayrı-ayrı mövzulann məhz bu cür ardıcıllıqla düzlənməsi və yerləşməsi beynəlxalq hüquq fənninin (dərsliyinin) sistemi adlanır.

Obyektiv mənada beynəlxalq hüququn sistemini beynəlxalq hüquq dərsliyinin sistemi ilə eyniləşdirmək olmaz. Belə ki, beynəlxalq hüquq dərsliyinin nəzərdən keçirdiyi və öyrətdiyi elə məsələlər vardır ki, həmin məsələlər obyektiv mənada beynəlxalq hüququn sistemindən kənarda qalır. Həmin məsələlərə aiddir:

- beynəlxalq hüququn anlayışı, predmeti və metodu;
- beynəlxalq hüququn funksiyalan, sistemi və mənbələri;
- beynəlxalq hüququn tarixi və digər məsələlər.

Buna görə də, «obyektiv mənada beynəlxalq hüququn sistemi» «beynəlxalq hüquq dərsliyinin sistemi» ilə üst-üstə düşmür. Beynəlxalq hüquq dərsliyinin sistemi obyektiv mənada beynəlxalq hüququn sistemi ilə müəyyən edilsə də, həmin sistemin qurulmasında, əsasən, beynəlxalq hüquq elminin sistemi nəzərə almır.

**1 *Məsələn, bax:* Мигачев Ю.М. Международное право. Учебник. М., 2004; Ушаков Н.А. Международное право. Учебник. М., 2000; Бирюков П.Н. Международное право. Учебник. М., 2006; Международное право. Учебник / ОтБ. ред. В.Н.Кузнецов. М., 2001; Международное право. Учебник / Под ред. А.И.Микулыпина. М., 2005 və başqalan.**

**2 Bəzən, «Beynəlxalq müqavilə hüququ» və «Beynəlxalq təşkilatlar hüququ» kimi mövzular beynəlxalq hüquq dərsliyinin xüsusi hissəsində deyil, ümumi hissəsində nəzərdən keçirilir *(bax:* Международное право. Учебник /Отв. ред. Ю.М.Колоеов, Э.С.Кривчикова. М., 2000).**

**3 *Məsələn, bax:* Международное публичное право. Учебник / Отв. ред. К.А.Бекяшев. М., 2009; Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 və s.**

# İSTtFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Beynəlxalq hüquq. Azərbaycan dilində / Məsul redaktor və tərcüməçi - R.F.Məmmədov. Bakı, 2002, 752 s.
2. Əliyev Ə.İ. Beynəlxalq ümumi hüquq (metodik vəsait). Bakı, 2004,208 s.
3. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, 2007,488 s.
4. Əsgərov E.Beynəlxalq hüquq. Dərslik. Bakı, 1976 (I fəsil).
5. Hüseynov L.H.Beynəlxalq hüquq. Dərslik. Bakı, 2008 (I fəsil).
6. Золотой фонд Российской науки международного права. Том I / Д.Каченовский. К>рс международного права. Харьков, 1863; М.Капустин. Международное право. Ярославль, 1873; Н.Коркунов. Лекции по международному праву. Санкт-Петербург, 1884, Сопредседатели ред. кол. А.Л.Колодкин, В.В.Ершов. М.; Международные отношения, 2007. - 368 с.
7. Караев Р.М. Соотношение принципов территориальной целостности и самоопределения народов в теории и практике международного права. Баку: «Текнур», 2009. - 304 с.
8. Курс международного права: в 7 т. Том 1. Понятие, предмет и система международного права /Гл. ред. В.Н.Кудрявцев. М., 1989.
9. Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., 1997 (гл.1, IV).
10. Международное право. Учебник / Отв. ред. А.А.Ковалев, С.В.Черниченко. М., 2008 (гл.2).
11. Международное право. Учебник / Отв. ред. В.И.Кузнецов, Б.Т.Тузмухамедов. М., 2007 (гл.П).
12. Международное право. Учебник / Отв.ред. Г.В.Игнатенко, О.И.Тиу- нов. М., 2009 (гл.1).
13. Международное право. Учебник / Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000 (гл. I).
14. Международное право. Учебник / Под общ. ред. А.Я.Капустина. М.,2008 (гл.П, III).
15. Международное публичное право. Учебник/ Отв.ред. К.А.Бекяшев. М., 2009 (гл.1).
16. Тимченко Л.Д. Международное право. Учебник. Харьков, 2004 (гл.1).
17. Шзшилов В.М. Международное право. Учебник. М., 2008 (с.П, 56, 163-164).
18. www.eisil.org - электронная справочная система по международному праву.

## M U N D Ə R I C A T


**ÖN SÖZ ............................. .. .................................................................3**

**I FƏSİL, BEYNƏLXALQ HÜQUQUN ANLAYIŞI VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ**

**1.1. Beynəlxalq hüququn anlayışı və predmeti ............................................8**

**1.1.1. Beynəlxalq hüquq - müstəqil hüquq sistemi kimi..............................8**

**1.1.2. Beynəlxalq hüquq - dövlətlərarası hüquq kimi .................................12**

**1.1.3. Beynəlxalq hüququn doktrinal anlayışı ..............................................18**

**1.1.4. Beynəlxalq hüququn nizamasalma predmeti......................................24**

**1.2. Beynəlxalq hüququn funicsiyalan, əhəmiyyəti və xüsusiyyətləri30**

**1.2.1. Be>Tiəlxalq hüququn fiınksiyalan....................................................... 30**

**1.2.2. Beynəlxalq hüququn əhəmiyyəti......................................................... 36**

**1.2.3. Beynəlxalq hüququn xüsusiyyətləri.................................................... 39**

**1.3. Beynəlxalq hüququn sistemi ................................................................43**

**1.3.1. Beynəlxalq hüququn sistemi anlayışı.................................................. 43**

**1.3.2. Beynəlxalq hüququn ümumi hissəsi ................................................... 48**

**1.3.3. Beynəlxalq hüququn xüsusi hissəsi...................................................... 54**

**1.4. Beynəlxalq hüququn nizamasalma metodu............................................69**

**1.4.1. Beynəlxalq hüququn nizamasalma metodu anlayışı ..........................69**

**1.4.2. Beynəlxalq hüququn nizamasalma metodologiyası............................71**

**II FƏSİL. BEYNƏLXALQ HÜQUQ - ELMİ MƏNADA VƏ TƏDRİS KURSU KİMİ**

**2.1. Elmi mənada beynəlxalq hüququn anlayışı, predmeti və sistemi82**

**2.1.1. Elmi mənada beynəlxalq hüququn anlayışı.......................................82**

**2.1.2. Beynəlxalq hüquq elminin tədqiqetmə predmeti və əsas vəzifələri.........................................................................................................88**

**2.1.3. Beynəbcalq hüquq elminin sistemi ....................................................92**

**2.2. Tədris kursu mənasında beynəlxalq hüquq - beynəlxalq hüquq fənni kimi .........................................................................................................94**

**2.2.1. Beynəlxalq hüquq fənninin anlayışı...................................................94**

**2.2.2. Beynəlxalq hüquq fənninin sistemi ....................................................96**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.........................................................98**

**© Əliyev Etibar Əli oğlu**
**“Beynəlxalq hüquq:**
**anlayışı, hüquq doktrinası**
**və tədris kursu”**

**«Günəş-B» nəşriyyat-poliqrafiya müəssisəsi**

**i sentyabr 2016-cı il tarixdə çap edilmişdir.**
**Formatı 60x84 1/16. Şərti çap vərəqi 6,25.**
**Tirajı 300.**